www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 avqust 2015-ci il Cümə № 189 (6217) Qiymıəti 40 qəpik

Xəbər

## Həbsxana əməkdaşları qəzaya düşdü: 4 ölü

yazısı səh.15-də

Gündəm

### "Ehsan qadağası"nın 1 ili: Şeyx nə məğlubdur, nə qalib...



Qadağa QMİ sədrini hökumətdəki rəqibləri ilə üz-üzə qoydu, yeni qaydaların tətbiqi niyə alınmadı?

yazısı səh.4-də

### Qovulmaq xəbərdarlığına "AG blok"dan sərt cavab gəldi

yazısı səh.5-də

*Hacı Qalib:*

### "Adım siyahıda olmasa..."

yazısı səh.9-da

### Elza Seyidcahan "gəl, namizəd ol" təklifini rədd etdi

yazısı səh.5-də

### Diplomatların parlament seçkilərinə xüsusi diqqətinin sirri

yazısı səh.9-da

### AXCP-də narazılar qurultaya hazırlaşır

yazısı səh.7-də

### Beynəlxalq Bank işi - hansı məşhurların yaxınları həbsdədir?

yazısı səh.13-də

### Elçin Behbudov Mingəçevirdəki ölüm işini araşdırıb

yazısı səh.7-də

### Xədicə İsmayılın ittiham aktı-son bölüm

yazısı səh.6-da

### Türkiyədən qovulan PKK-çılar Qarabağa qaçır

yazısı səh.4-də

### Yanın binanın istintaqı yekunlaşmaq bilmir

yazısı səh.3-də

### ABŞ-ın analitik mərkəzi ölkəmizi niyə 126-cı yerə qoyub?

yazısı səh.8-də

## Milli Məclisə seçkilərə rəsmi start verilir

# GÖZLƏR PREZİDENTDƏ: SEÇKİLƏRLƏ BAĞLI SƏRƏNCAM VƏ SİYAHI...

Dövlət başçısı İlham Əliyevin V çağırış Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı sərəncamı bu gün elan edilə bilər; YAP-ın böyük maraqla gözlənilən namizədlər siyahısı da açıqlanmalıdır; iqtidar rəsmisi "hakimiyyətə söz gətirə biləcək əməllərdən" çəkinməyə çağırıb və saxtakarlıq təsdiqləndiyi halda komissiya üzvlərinin sərt cəzalandırılacağını bildirib




yazısı səh.5-də

## Brüsseldən Bakıya mesaj - Moskva qəzəblənəcək

NATO-nun Gürcüstanda açılan təlim mərkəzi Azərbaycan ordusunun da gücləndirilməsinə kömək edəcək; Putinin bölgədə Qərbə atdığı "əlcəyi" Qərb, nəhayət, götürdü

yazısı səh.8-də



*Hikmət Hacızadə:*

### "Quyuya düşmüşük - lap Məlikməmməd kimi"

yazısı səh.10-da



*Abbas Abbasovun oğlu sükutu pozdu:*

### "Mənə nə qadağa qoyula bilər ki?"

yazısı səh.9-da



*İlham Şaban:*

### "Neft Azərbaycan üçün hələ uzun müddət çörək ağacı olacaq"

yazısı səh.12-də

# Müsavat Partiyası Saday Hacılının həbsi ilə bağlı bəyanat verdi



**Müsavat Partiyası Məclis üzvü Saday Hacılının həbsi ilə bağlı bəyanat yayıb. Bu barədə partiyanın mətbuat xidmətindən musavat.com-a məlumat verilib. Bəyanatda deyilir: "Avqustun 27-də səhər saatlarında Müsavat Partiyasının Məclis üzvü Saday Hacılı Şirvan Şəhər Polis İdarəsinə aparılıb. İdarədə heç bir əsas göstərilmədən Saday Hacılıya "polisə tabe olmamaq" ittihamı irəli sürülüb. Vəkillə təmin edilmədən, ailəsi və yaxınları məlumatlandırılmadan aparıldığı məhkəmə onun haqqında 20 sutkalıq həbs cəzası barədə qərar verib.**

S.Hacılı Müsavat Partiyasının Şirvan rayon təşkilatının rəhbərliyində təmsil olunur, eyni zamanda təcrübəli seçki mütəxəssisidir. S.Hacılının parlament seçkiləri ərəfəsində uydurma ittihamla həbs edilməsi rejimin seçki repressiyasına start verməsinin açıq nümayişidir.

Müsavat Partiyası Azərbaycan hakimiyyətindən müxalifət nümayəndələrinə qarşı apardığı təqib və təzyiqlərə son qoymağı, partiyanın Məclis üzvü Saday Hacılını, eləcə də bütün siyasi məhbusları dərhal azad etməyi tələb edir".

# Zakir Qaralov prokuroru işdən çıxardı



**Abşeron rayon prokuroru Qənimət Səfərov vəzifəsindən azad edilib. Milli.az xəbər verir ki, o, baş prokuror Zakir Qaralovun əmri ilə tutduğu vəzifədən azad edilib. Q.Səfərov yaş senzi ilə əlaqədar təqaüdə göndərilib. Q.Səfərov əvvəl Bakı şəhər prokurorunun müavini işləyib. O, 2011-ci ildə həmin vəzifədən azad olunaraq Aberon rayonunda prokuror postuna təyin olunub.**

# Hüquq müdafiəçisi evsiz şəxsə yardım etdi



**Eldar Məhərrəmov adlı bakılı səfilin həyatı haqqında saytımızda məqalə dərc olunandan sonra "Azərbaycan əsgər anaları" cəmiyyəti sədrinin müavini, Azərbaycan Rus İcmasının respublika Şurasının üzvü, hüquq müdafiəçisi Taisa Qordeyeva redaksiyamıza telefon zəngi edib və adıçəkilən şəxslə görüşdüyünü deyib.**

"O özünü yaxşı hiss edir. Onun ambulator qeydiyyat vəqərəsi tapıldı, sabah onunla birlikdə poliklinikaya müayinəyə gedəcəyik. Eləcə də onun şəxsiyyət vəsiqəsi almasına kömək edəcəyik", - T.Qordeyeva bildirib.

# Məşhur PKK lideri İrana qaçdı

**Murat Qarayılandan sonra PKK İdarə Heyətinin daha bir üzvü İrana qaçıb. Axar.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, PKK İdarə Heyətinin əsas üzvü Cəmil Bayık təşkilata qarşı təşkil edilən hava əməliyyatları nəticəsində İrana qaçıb. Qeyd edək ki, bu gün Türkiyənin Tunceli vilayətində PKK terror təşkilatının 22 ayrı nöqtəsinə qarşı təşkil olunan hava hücumu zamanı terrorçulara məxsus 14 sığınacaq tamamilə məhv edilib.**

# Poroşenkonun Azərbaycana səfəri planlaşdırılır

**Ukrayna prezidenti Pyotr Poroşenko Azərbaycana səfər etməyi planlaşdırır. Bu barədə APA-ya Ukrayna Prezident Administrasiyasının mətbuat katibliyindən məlumat verilib.**

Mətbuat katibliyindən bildiriblər ki, hazırda Azərbaycan tərəfi ilə səfərin tarixi müzakirə edilir. "Ukrayna prezidenti dəfələrlə Azərbaycanla strateji tərəfdaşlıq əlaqələrinin inkişafının vacibliyini vurğulayıb", - deyə açıqlamada qeyd olunub.

# Türkeşin oğlu MHP-dən çıxarıldı

## Keçici hökumət danışıqları Türkiyə siyasətini böldü

**Türkiyədə keçici hökumətin qurulması üçün başladılan proses ölkə siyasətində bomba effekti verib. Ölkə qanunlarına əsasən, erkən seçkiləri keçirmək üçün 3 aylıq keçici hökumətin qurulması prosesi bir neçə gün əvvəl başlayıb. Ölkə prezidentinin hökumət qurmaq səlahiyyəti verdiyi baş nazir Əhməd Davudoğlunun parlamentdəki müxalifət partiyalarına hökumətdə iştirak təklifi göndərməsi əsl qalmaqala səbəb olub.**



Toğrul Türkeş

Qeyd edək ki, mövcud qanunlara və parlamentdə mandat bölgüsünə əsasən baş nazirdən başqa 11 nazir postu AKP-yə, 5 post CHP-yə, MHP və HDP-yə isə hər birinə 3 mandat təklif olunmalıdır, 3 nazir postu (ədliyyə, daxili işlər və rabitə) isə müstəqil şəxslərə veriləcək. Ancaq baş nazirin kabinetdə iştirak təklifi göndərdiyi partiyalarda sözün əsl mənasında qalmaqal qopub. İlk olaraq MHP-dən İzmirdən deputat seçilmiş, partiya sədrinin müavini Kenan Tanrıkulu baş nazirin hökumətdə iştirak təklifindən imtina etməklə yanaşı, partiyadakı sədr müavini postundan istefa verib. O, addımını hakimiyyətin MHP-nin sədr müavininə vəzifə təklif etməsinə etiraz kimi əsaslandırıb.

Davudoğlunun vəzifə təklif etdiyi digər MHP üzvü, deputat Meral Akşener də təklifdən imtina edib. Ancaq nazir postu təklif edilən 3-cü şəxs, MHP-nin keçmiş sədri, Türkiyə milliyyətçilərinin əfsanəvi lideri Alparslan Türkeşin oğlu Yıldırım Toğrul Türkeş Davudoğlunun hökumətdə iştirak təklifini qəbul edib.

T.Türkeşin bu qərarı MHP-də şok effekti doğurub. AKP ilə koalisiya danışıqlarından imtina edən, sərt müxalifət mövqeyi nümayiş etdirən MHP-dən hökumətə əməkdaşlıq əli uzadılması partiya rəhbərliyinin sərt reaksiyasına səbəb olub. MHP sədrinin müavini postunu tutan Toğrul Türkeşin vəzifəsindən və partiyadan çıxarılması ilə bağlı qərar verilib.

Qeyd edək ki, Toğrul Türkeş 1997-ci ildə A.Türkeşin ölümündən sonra keçirilən seçkilərdə MHP sədri olmaq istəsə də, hazırkı MHP sədrinə uduzmuşdu. D.Baxçalı həmin vaxtdan bu günə qədər MHP sədri olmaqda davam edir. Toğrul Türkeş MHP-dən ayrılaraq Aydınlıq Partiyasını qursa da, seçkilərdə uğur qazana bilməyib və 5 ildən sonra yenidən MHP-yə qayıdıb. Ancaq ötən müddətdə Toğrul Türkeşin partiyanın sədri Dövlət Baxçalı ilə münasibətləri yaxşı olmayıb. Onun partiya qərarına zidd olaraq AKP-nin qurduğu keçici hökumətə qatılmağa razılıq verməsi ilk dəfə olaraq MHP-dən üzvlərin partiya qərarına ən yüksək səviyyədə zidd getməsi kimi tarixə düşür.

Toğrul Türkeşin addımı Baxçalının sərt etirazına səbəb olub. Malazgird müharibəsinin ildönümü ilə bağlı sosial şəbəkədən yaydığı mesajlarda Baxçalı üstüörtülü şəkildə Toğrul Türkeşi tənqid edib, onun addımını dəyərlərə xəyanət etməkdə ittiham edib.

Qeyd edək ki, hazırda CHP-nin də ümumi olaraq keçici hökumətə qatılmaq təklifindən imtina etdiyi məlumdur. Partiyanın nazir vəzifəsi təklif edilmiş bir sıra deputatları artıq mövqelərini nümayiş etdirib. Ötən gün baş nazir Davudoğlu Toğrul Türkeşə hökumətdə iştirak təklifinə müsbət cavab verdiyi üçün təşəkkür edib. Eyni zamanda Davudoğlu MHP və CHP liderlərini tənqid edib, hökumətin qurulmasına dəstək verməməkdə günahlandırıb. Onu da qeyd edib ki, əgər CHP və MHP imtina edərlərsə, hökuməti AKP və HDP, o cümlədən müstəqil namizədlərdən formalaşdıracaq. Keçici hökumət ən çoxu 3 ay hakimiyyətdə olacaq və seçkilərdən sonra istefaya gedəcək.

❑ KƏNAN



# Azərbaycanlı iş adamı özünü öldürdü

**Ukraynanın Donetsk vilayəti ərazisində azərbaycanlı iş adamı silahlı separatçılarla atışmada yaralanıb və ölüb.**

Donetsk vilayəti Azərbaycanlılar Konqresindən APA-ya verilən məlumata görə, bu şəxs Ukrayna vətəndaşı, 1975-ci il təvəllüdlü Vahid Babayevdir.

V. Babayev Donetskin İlovaysk şəhərində bir qrup silahlı separatçı ilə qarşılaşıb. Silahlılarin onu girov götürmək cəhdinə müqavimət göstərən iş adamı ilə quldurlar arasında atışma baş verib. V. Babayev ağır yaralanıb və quldurların mühasirəsində qalaraq onların əlinə düşməmək üçün şəxsi silahı ilə özünü öldürüb. Onun meyiti təxminən 10 gün separatçıların nəzarətindəki ərazidə qalıb. Donetskdəki azərbaycanlıların və Ukrayna tərəfinin apardığı danışıqlar nəticəsində meyiti çıxarmaq mümkün olub. V. Babayev doğulduğu Odessa şəhərində dəfn edilib.

Qeyd edək ki, Vahid Babayevin atası mingəçevirlidir.




# AXCP-dən daha beş gənc Razi Nurullayevin tərəfinə keçdi

## Gənclər Əli Kərimlinin siyasətinə etiraz etdilər; yeni AXCP-nin sıraları günbəgün genişlənir

**AXCP-də istefalar səngimək bilmir. Razi Nurullayevin rəhbərlik etdiyi Etimad Qurultayı üzrə Təşkilat Komitəsinə qoşulanların sayı günbəgün artır. Qurumun daha beş gənc üzvü partiya sıralarından istefa verərək, R.Nurullayevin tərəfinə keçiblər.**

Gənclər sosial şəbəkələrdə paylaşdıqları şəkillərdə öz fikirlərini ifadə ediblər. Hüseyn Bayramov, İsmayıl Azəroğlu, Kamran Fərəcov, Riçard Bəkiroğlu və Ceyhun Bayramov Əli Kərimlinin yürütdüyü siyasəti pisləyərək, bundan sonra fəaliyyətlərini R.Nurullayevin liderliyi altında davam etdirəcəklərini bildiriblər.

Cəbhəçi gənclər üzərində "Əli Kərimli biz sizə yox deyirik", "Razi bəy biz sizi dəstəkləyirik" və "Gənclərlə irəli gedəcəyik" yazılmış plakatlar tutmaqla, Əli Kərimlinin siyasətinə etirazlarını ifadə ediblər. Gənclər öz bəyanatlarında partiyada fəaliyyət göstərdikləri dövrdə şəxsən sədrin göstərişi ilə təzyiqlərlə üzləşdiklərini bildiriblər.

Bəyanatda bu sözlər yer alır: "Partiyada hökm sürən avtoritarizm gənclərin inkişafını əngəlləyir. Çünki hər bir gəncin timsalında Əli Kərimli özünün alternativini görür. Etimadsızlıq mühitində fəaliyyət göstərmək mümkün deyil. Partiya üzvlərinin 90 faizi bu gün Əli Kərimliyə etimadsızlıq göstərir və onu sədr kimi görmək istəmir. Biz bütün AXCP üzvlərini ona etimadsızlıq göstərməyə və fəaliyyətlərini Əli Kərimlisiz AXCP-də davam etdirməyə çağırırıq".

❑ Cavanşir ABBASLI



# Son il yarımda Azərbaycan nefti 70 dollardan çox ucuzlaşıb

**2014-cü ilin fevral-mart-aprel aylarından Rusiya Ukraynanın Krım bölgəsini və Donbas vilayətinin bir hissəsini işğal altında saxlayır. O vaxtdan bəri dünya çapında yaranan yeni qarşıdurma iqtisadi basqılarla da müşayiət olunur. Neftin dünya bazarında qiymətinin enişi Qərblə Rusiyanın iqtisadi müharibəsinin əsas elementidir. Transparency.az 2014-cü ilin martından - Krımın ilhaqından bəri dünya bazarında neftin qiymətinin necə dəyişdiyini araşdırıb.**

Mart 2014: Nyu-Yorkun NYMEX birjasında "Layt" markalı neftin bir barreli 104,92 dollara, Londonun İCE birjasında isə "Brent" markalı neftin bir barreli 111,20 dollara satılır.

Azərbaycan nefti "AzəriLayt"ın bir barrelinin qiyməti London birjasında 114,80 dollardır.

Aprel 2014: Nyu-York birjasında "Layt" markalı neft 101,58 dollara, London birjasında "Brent" 108,94 dollara satılır.

May 2014: "AzəriLayt" 111,13 dollar.

İyun 2014: " "AzəriLayt" 111,69 .

İyul 2014: "AzəriLayt" 113,92 .

Avqust 2014: "AzəriLayt" 107,005.

Sentyabr 2014: " "AzəriLayt" 103,32.

Oktyabr 2014: " "AzəriLayt" 96,57.

Noyabr 2014: " "AzəriLayt" 86,61.

Dekabr 2014: "AzəriLayt" 74,52.

Yanvar 2015: " "AzəriLayt" 57,34.

Fevral 2015: "AzəriLayt" 50,89.

Mart 2015: "AzəriLayt" 63,74.

Aprel 2015: "AzəriLayt" 56,96.

May 2015: "AzəriLayt" 66,87.

İyun 2015: "AzəriLayt" 65,30.

İyul 2015: "AzəriLayt" 63,66.

Və... avqustun 27-də yayılan məlumata görə, "AzəriLayt" markalı neftin bir barreli London birjasında 44,34 dollardır.

Bu o deməkdir ki, 2014-cü ilin fevral-mart-aprel aylarında Ukrayna torpaqlarının işğalı ilə başlayan iqtisadi basqı dalğasında "Layt" 66 dollar 32 sent, "Brent" 68 dollar 6 sent ucuzlaşıb.

Ən bahalı neft sayılan Azərbaycan nefti isə son il yarımda 70 dollar 46 sent dəyər itirib...

YENİ MÜSAVAT
N 189 (6217) 28 avqust 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Yanan binanın istintaqı yekunlaşmaq bilmir

## Aylar ötür, vəzifəli şəxslərin istintaqa cəlb olunması da mümkünsüzləşir

**Binəqədi rayonu, Azadlıq prospektində yanan bina ilə bağlı istintaqın uzanması müxtəlif xəbərlərin yayılmasına səbəb olub. Belə məlumatlar dolaşır ki, istintaqın uzanması işə olan ictimai marağın öləziməsinə və işdə günahı olam məmurların istintaqdan kənar saxlanılmasına xidmət edir.**

**Yada salaq ki, mayın 19-da baş vermiş dəhşətli yanğın nəticəsində 15 nəfər həlak olub, 60-dan çox sakin müxtəlif xəsarətlər alıb.**

Hadisədən sonra prezident İlham Əliyev Abid Şərifovun rəhbərliyi ilə Dövlət Komissiyası yaratmış, hadisə yerinə şəxsən baş çəkmişdi. Mayın 20-də hadisə yerindən qayıtdıqdan dərhal sonra prezident Dövlət Komissiyasının üzvləri ilə toplantı keçirdi. Bildirdi ki, işdə günahı olan hər kəs ciddi şəkildə cəzalandırılacaq.

"Əgər bütün işlər düzgün qurulsaydı, bu hadisə baş verməzdi. Azərbaycan vətəndaşları bilməlidir ki, günahkar və günahkarlar kimdir? Bu hadisəyə görə kim məsuliyyət daşıyacaq? Hər kəs nəticə çıxarmalıdır, hər bir məmur öz məsuliyyətini dərk etməlidir. Bir də qeyd edirəm ki, heç kim cəzasız qalmayacaq. Günahkarlar dövlət tərəfindən cəzalandırılacaq və ədalət bərpa ediləcək" deyə, İlham Əliyev bildirmişdi.

Prezidentin çıxışından sonra Baş Prokurorluq hərəkətə keçdi. Faktla bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 225.2-ci - ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma, 308.2-ci - vəzifə səlahiyyətlərindən sui-istifadə və 314.2-ci - ağır nəticələrə səbəb olan səhlənkarlıq maddələri ilə cinayət işi başlanılıb. Hadisəni araşdırmaq üçün Baş Prokurorluğun, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradıldı. Həbslər həyata keçirildi.



Poliuretan məmulatını istehsal edən "Qlobal Stone" MMC-nin baş direktoru Uğur Bəşirov, "Global Construction" MMC-nin sədr müavini Ələkbər Əsgərov, 2012-2013-cü illərdə Binəqədi rayon mənzil-kommunal təsərrüfat birliyinin rəisi işləmiş rayon icra hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri Ədalət Rəcəbov və Binəqədi rayonu, 72 saylı mənzil-kommunal istismar sahəsinin rəisi Nizami Orucov Cinayət Məcəlləsinin 225.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Bundan sonra daha bir sensasion həbs gerçəkləşib. Belə ki, 2012-2013-cü illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmiş Qəzənfər Novruzov tutulub. Onun barəsində də 4 aylıq həbs- qətimkan tədbiri seçilib.

Bu həbslərdən sonra gözləntilər vardı ki, istintaq günahkar şəxslərin dairəsini müəyyən etməkdən çəkinməyəcək. Məsələn, binalara poliuretan üzlüklərin vurulmasına göz yuman, həmin üzlükləri alıb binaya vurduran vəzifə sahiblərinin də tutulacağı gözlənilirdi. Amma bu gözləntilər hələ ki reallıq olmayıb. İstintaq binalara tezalışan üzlüklərin vurulması icazəsini verməyə səlahiyyəti olmayan şəxslərə ittiham verməklə davam etdirildi.

Bu gün də binanın üzlənməsinə dövlət büdcəsindən vəsait ayrılıb-ayrılmaması bilinmir. Bu və digər suallara aydınlıq gətirilməsi üçün Maliyyə Nazirliyinə informasiya sorğusu yollamışdıq. Həmin sorğu ilə Binəqədi rayonunda binaların üzlənməsinə dövlət büdcəsindən 2015-ci ilə qədər hər il nə qədər vəsait ayrılmasına; vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi hansı nəticələr verməsinə; ayrılmış vəsaitdən bilavasitə yanmış binanın üzlənməsinə nə qədər vəsait xərcləndiyinə; həmin binaya ayrılan vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi həyata keçirilib-keçirilməməsinə aydınlıq gətirilməsini xahiş etmişdik. Mayın 29-da yolladığımız sorğuya təəssüf ki, bu günə qədər cavab yoxdur.

İstintaqın nə vaxt yekunlaşacağı da bəlli deyil. İyulun ortalarında bununla bağlı suala cavab verən yanğınla bağlı yaradılmış Dövlət Komissiyasının rəhbəri Abid Şərifov "istintaq 10 günə yekunlaşacaq" demişdi. Həmin açıqlamadan 1 aydan artıq müddət ötüb. İstintaq isə yekunlaşmayıb.

Baş Prokurorluğun mətbuat xidmətinə bununla bağlı ünvanladığımız sorğuya xidmət rəhbəri **Eldar Sultanov** cavab verib. Bildirib ki, hazırda cinayət işi üzrə istintaq davam etdirilir: **"Cinayət işi üzrə zəruri və təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri həyata keçirilməklə hadisənin çoxlu sayda zərərçəkmişləri və 200-dən artıq şahidləri dindirilib, yanğının baş vermə səbəbləri, yanğın nəticəsində vurulmuş ziyanın müəyyənləşdirilməsi məqsədi ilə iş üzrə məhkəmə-yanğın-texniki, tikinti-texniki, fiziki-kimyəvi, məhkəmə-tibbi və digər ekspertizalar təyin edilmiş, eyni zamanda müvafiq prosessual hərəkətlər yerinə yetirilir"**.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Qiymətlər artır, xalq susur, müxalifətsə...



**Azər RƏŞİDOĞLU**

**Hamı qiymət artımından danışır. Ölkədə ciddi bahalaşma ajiotajı yaşanmaqdadır. Azərbaycan cəmiyyəti bu dəfə də gözləmə mövqeyi tutaraq, prosesləri öz axarına buraxıb. Qarşıdan da parlament seçkiləri gəlir.**

İqtidar arxayındır və anlayır ki, vətəndaşlar ölkədə baş verən haqsızlıqlara seyrçi qalırlar. Qiymət artımına da reaksiyalar ciddi deyil. Bunu anlamaq da mümkündür. İnsanlar səmərəsiz mübarizə metodlarından beziblər. Lakin milyonlarla insanın öz taleyinə biganə qalmasına haqq qazandırmaq çətindir. Digər tərəfdən, xalqı da günahlandırmaq absurddur. Xalq son 20 ildə dəfələrlə ən ağır şərtlər altında öz sözünü deyib. Son illər mübarizənin səmərəsiz olması proseslərə mənfi təsir göstərib. Lakin xalqı öz gücünə və qələbəyə inandırmaq hələ də mümkündür. Ənənəvi şüar və taktika ilə isə buna nail olmaq son dərəcə çətindir.

Qiymət artımı hər bir vətəndaşın vəziyyətini pisləşdirir. Bu baxımdan, sosial tələblərlə aksiya keçirtmək müxalifət üçün göydəndüşmə olmalı idi. Lakin bu baş vermədi.

Əslində, müxalifət dərhal, vaxt itirmədən sosial tələblərlə küçə və meydanlara axışmalı, iqtidara qarşı irimiqyaslı aksiyalara başlamalı idi. Seçkilərə qədər itirilən vaxt xalq qəzəbinin, etiraz buxarının azalması üçün kifayət qədər böyük zaman kəsiyidir.

Az da olsa güman etmək olar ki, heç olmasa seçkilərə qədər müxalifət bütün daxili narazılıqları bir kənara qoyacaq və hamının maraqlarına birbaşa zərbə vuran "qiymət artımına yox deyək" şüarı ilə protest elektoratını birləşdirməyə cəhd göstərəcək.

Ölkə daxilində aksiya, digər narazılıqlar üçün şərait yaranıb, xarici amillər də müxalifətin "çörəyinə yağ sürtür". Məntiq onu deməyə əsas verir ki, müxalifət bu şansdan bəhrələnəcək və Ukrayna proseslərini kölgədə qoyacaq aksiyalara başlayacaq. Bunu çoxları düşünür.

Lakin son 20 ilin proseslərini daha soyuqqanlı izləyən müşahidəçi anlayır ki, müxalifət bu dəfə də bunu edə bilməyəcək. Bəlkə də bu, belə də olmalıdır. Cəmiyyət özü ağır vəziyyətdədir. Ölkədə siyasi nümunələr, ölçülər, dəyərlər sistemi dəyişməyənə qədər belə də olacaq. Azərbaycanda siyasi sistemin iflası ilə yanaşı hakimiyyətin ayrı-ayrı qruplarının sürətlə silahlanması prosesi müşahidə olunur.

Azərbaycan xalqı rasional olduğu qədər də ayıqdır. 1988-ci ildən bu yana dəyişməyən müxalifətçilik şüurunu, qarşılıqlı ittihamları, agent axtarışını həzm edə bilmir.

Müxalifətin bir-birinə qarşı ardıcıl, təşkil olunmuş hücumları ümumi müxalif düşüncəyə zərbələr vurur. Eyni zamanda geniş xalq kütlələrinin protestlərə daha fəal müdaxiləsinin qarşısını alır.

Baş verənlər bir daha onu vurğulamağı zəruri edir ki, siyasi sistem tam iflas içindədir. Keyfiyyətcə yeni siyasi sistem yaradılmayınca müsbət dəyişiklik də baş verə bilməz.

Lakin cəmiyyət özü də taqətsiz vəziyyətə salınıb və bütün məsuliyyəti yalnız müxalifətin üzərinə yıxmaq yanlışdır. Proseslərin bir baş qəhrəmanı var. O da xalqın özüdür. Yalnız xalq bütün ssenariləri pozmağa və layiq olduğu yaşamı qazanmağa qadirdir...

# Vüqar Bayramov Meydan TV-ni məhkəməyə verə bilər

## İqtisadçı ekspertin adından yayılan fikirlər qalmaqal yaradıb

**Avqustun 25-də Meydan TV-də "Install Service LLC" şirkətinin fəaliyyəti ilə bağlı dərc olunan məqalədə iqtisadçı ekspert Vüqar Bayramovun adından fikirlərin qeyd olunması ciddi qalmaqal yaradıb. Məqalə Meydan TV-nin veb səhifəsində Azərbaycan, ingilis və rus dillərində çap olunub.**

**Vüqar Bayramov** "Yeni Müsavat"a açıqlamasında məqalə hazırlanarkən ondan fikir öyrənilmədiyini bildirdi: "Mənimlə heç kim məqalə barədə danışmayıb. Amma adımdan məqalədə fikirlər yer alıb. Bu, beynəlxalq normalara uyğun deyil. Maraqlıdır ki, yazıda adıçəkilən şirkətin adını məqaləni ilk dəfə oxuyarkən bildim. Təsəvvür edin ki, adını bilmədiyim şirkət haqqında fikirlərim gedir. Bunlar kifayət qədər təəccüb doğurur. Xaricdə iqtisadçı ekspert kimi tanınıram. Mən Avropa Birliyində forum sədri olmuş yeganə azərbaycanlıyam. Kifayət qədər beynəlxalq əlaqələrim var. Adımdan fikirlərin qeyd olunması, məqalənin gücləndirilməsi anlamına gələ bilər. Sanki doğru olduğunu isbatlamaq üçün adımdan istifadə ediblər. Özünü güclü şəbəkə sayan media orqanı yazısında bir iqtisadçı və mərkəzlə bağlı fikir soruşmadan istinadlar verirsə, sadəcə, dəhşət bürüyür. Yazıda kifayət qədər uydurma faktlar yer alır. Əgər faktlar göydən götürülürsə, deməli, yazı bir adamın fantaziyası və göydən götürülmüş məlumatlardır. Söhbət burada fikir soruşulmadan adımdan istinadların getməsindən getmir. Özünə hörmət edən heç bir təşkilat hesabatında belə uydurma xəbərlər yaymaz. Rəyini



soruşmadan bir iqtisadçının adından fikirlər yazılmamalıdır. Rəy öyrənilməndən sonra hər hansı bir fikirlərin qeyd olunmasına ehtiyac var. Bu şəbəkənin məqaləsi onu göstərir ki, digər məlumatları da hansısa bir şəxsin stol arxasında oturub yazdığı "araşdırmalardan" ibarətdir".

**V.Bayramov adından gedən məqalə ilə bağlı məhkəmə perespektivindən də danışdı:** "Biz artıq müraciət etmişik. Meydan TV yazı dərc edən zaman öz fikrimizi bildirdik. Həmin şəbəkəyə müraciət edərək, həmin hissənin məqalədən çıxarılmasını tələb etmişik. Maraqlı tərəf odur ki, məqalənin müəllifi yoxdur. Meydan TV məqaləni dərc edən şəbəkədir. Bildirirlər ki, məqalənin müəllifini bilmirik. Sözlərindən belə çıxır ki, məqalə göydən düşüb. Əgər dediyimiz hissələr çıxarılmasa, hüquqi müstəvidə həll edəcəyik. Səs yazısı, internet yazışmalarının üzə çıxarılmasını tələb edəcəyik. Bunlar, ümumiyyətlə, yoxdur. Çünki heç bir rəy soruşulmayıb".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 189 (6217) 28 avqust 2015



# Türkiyədən qovulan PKK-çılar Qarabağa qaçır

**Elxan Şahinoğlu:** "Ermənistanın Dağlıq Qarabağda əlavə terrorçulara ehtiyacı var"

**Arzu Nağıyev:** "PKK-çılar asanlıqla Qarabağ ərazisində də peyda ola bilərlər"

**PKK terror təşkilatı Türkiyə dövlətinə qarşı terrorçu fəaliyyətini təzədən bərpa edib. Bu arada hörgütün qardaş ölkə ərazisində sıxışdırılan əli qanlı silahlılarının Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsinə adlamaq və ora sığınmaq istəməsi haqda xəbərlər yayılıb. Bəs belə bir şey mümkündürmü?**

**Politoloq Arzu Nağıyevə** görə, Qarabağ ərazisində muzdluların vuruşması yeni məsələ deyil: "PKK-nın da, ermənilərin də eyni mərkəzdən idarə edildiyini nəzərə alsaq, belə faktlar qaçılmazdır. Yəni Türkiyədə vuruşan, terror və təxribatla məşğul olan PKK-çılar asanlıqla Qarabağ ərazisində də ola bilərlər. Lakin onların yalnız kürdlərdən ibarət olmasını düşünmək də düzgün olmazdı. Bu yaxınlarda, Türkiyə ordusunun keçirdiyi əməliyyatlar vaxtı ələ keçirilən PKK döyüşçüsü milliyyətcə erməni idi. Bundan başqa, öz maliyyə mənbələrini genişləndirmək üçün Dağlıq Qarabağ ərazisindəki "Boz zona"larda PKK -nın da qaçaqmalçılıqla məşğul olması haqqında məlumatlar var və bu haqda Azərbaycan tərəfi dəfələrlə beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırıb. Yəni PKK-nın hansısa dövlətlə konkret bağlılığı olmadığı üçün kimə müraciət etməyin özü də bir müşkül məsələdir. Buna görə də əsas məsələ məhz Türkiyədə aparılan antiterror əməliyyatlarıdır, əsas özək vurularsa, Qarabağ ərazisindəki dəstələr avtomatik ərazini tərk edəcək".

**Siyasi şərhçi Elxan Şahinoğlu da hesab edir ki, PKK-ya bağlı bəzi qrupların Ermənistan və Dağlıq Qarabağda yerləşməsi imkanları az deyil:** "Birincisi, onu nəzərə almalıyıq ki, PKK-nın "tarixi qardaşı" olan erməni ASALA terror təşkilatıdır. PKK ASALA üzərindən Rusiya və Ermənistandakı maraqlı dairələrlə illərlə təmas saxlayıb, silah və pul alıb. PKK indi də həmin dairələrin sifarişini yerinə yetirir. Məsələn, PKK-nın Bakı-Tiflis-Ərzurum boru xəttini iki dəfə partlatması məhz həmin dairələrin maraq dairəsinə daxildir. Nə Kreml, nə də İrəvan Azərbaycan qazının Türkiyə və qardaş ölkədən Avropaya daşınmasını istəyir. Çünki bu halda Azərbaycanın və Türkiyənin bölgədəki rolu artır. Bunun qarşısını almaq üçün də PKK terrorundan yararlanırlar. PKK Rusiya və Ermənistandakı bəlli dairələrin maraqlarına xidmət etməsi qarşılığında bu dairələrin köməyinə arxayındır. Türkiyə ordusu hazırda PKK-ya güclü zərbələr endirir. Doğrudur, bu müharibədə ordu və polis də şəhid verir. Ancaq PKK-nın itkiləri daha çoxdur. PKK artıq yüzlərlə terrorçusunu itirib, pərəm-pərəm düşüblər, Kandil dağının ətəkləri artıq təhlükəsiz məkan deyil. Ona görə də PKK liderləri və üzvləri gizlənmək üçün yeni məkanlar haqqında düşünməlidir".

**Politoloq PKK rəhbərliyinə daxil olan bəzi terrorçuların hətta İranda gizləndiklərinə dair xəbərlər olduğunu deyir:** "Mən iddia etmirəm ki, İran hakimiyyəti bunun üçün PKK-ya şərait yaradır. Çünki PKK-nın bir qolu var ki, illərdir İran ordusu və polisi ilə toqquşur. PKK liderlərinin bir qismi İran ərazisinə gizli keçib yerli radikal kürdlərdən dəstək ala bilərdilər. Buna baxmayaraq, İranda PKK liderlərinə nəvaziş göstərən dairələr də tapıla bilər. Onlar üçün əsas olan Türkiyənin zəifləməsi və regional gücünü itirməsidir. Ermənistan da eyni maraqlardan çıxış edir. Rusiya, İran və Ermənistandakı bəlli dairələr PKK-nın zəifləməsində maraqlı deyillər. İndi isə PKK ən ağır dövrlərindən birini yaşayır. Terrorçu təşkilat dəhşətli zərbələr alır. Buna görə də PKK öz havadarlarından dəstək istəyir. İstisna etmirəm ki, bu məsələdə Ermənistana da pay düşür. Onlar "yay düşərgəsi" kimi PKK-nın bəzi silahlı qrupları üçün Dağlıq Qarabağda qalmağı təklif edə bilərlər. Onsuz da Ermənistanın canlı qüvvəsi tükənir və Qarabağda itkiləri getdikcə artır. İrəvanın Dağlıq Qarabağda əlavə terrorçulara ehtiyacı var. Ermənistanın bir başqa məqsədi də PKK terrorçularını Azərbaycan ordusu ilə toqquşdurmaqdır. Onsuz da əgər PKK başbilənləri Dağlıq Qarabağda yerləşməyə qərar verərlərsə, anlamalıdırlar ki, qarşılarında Türkiyə ilə yanaşı, Azərbaycan ordusunu da görəcəklər. Belə olan halda İrəvan və PKK onu da anlamalıdır ki, Azərbaycan artıq Türkiyə ilə birgə Dağlıq Qarabağın azad olunması uğrunda birgə hərəkata başlaya bilər. İndinin özündə də PKK-nın Bakı-Tiflis-Ərzurum boru xəttini partlatması və Naxçıvanla sərhəddə təxribatlar törətməsi, faktiki, Azərbaycana qarşı da müharibə elan etməsi anlamına gəlir. Hazırda Azərbaycanla Türkiyənin hərbi hava qüvvələri birgə hərbi təlimlər keçirirlər. Əgər PKK-çıların Dağlıq Qarabağda varlıqları təsdiqlənərsə, təlimlər, hava hücumları erməni separatçıları ilə PKK terrorçularına qarşı da inikas oluna bilər.

❑ **Cavid TURAN**

# "Ehsan qadağası"nın 1 ili: Şeyx nə məğlubdur, nə qalib...



## Qadağa Şeyx və hökumətdəki rəqiblərini üz-üzə qoydu, bir sıra bölgələr və bəzi mərasim zalları imtina etsə də, qadağanın tətbiqi alınmadı

**Azərbaycanda "ehsan qadağası"nın bir ili tamam oldu. Ötən il avqustun sonlarında hökumət ölkə ərazisində yas mərasimlərində yeməkli ehsan süfrələrini qadağan edən qərar verdi. Doğrudur, rəsmi qurumlardan belə bir qərar olmasa da, ölkə boyunca hökumət qurumları ehsan məclislərini qadağan edirdilər. Əvvəlcə rayon icra qurumları və din xadimlərinə ehsan süfrələrinin qadağan edilməsi ilə bağlı tapşırıq verildi. Bundan sonra isə qadağaya əməl etməyən yas sahibləri cəzalandırıldı, hətta bəzi rayonlarda yemək qazanları yığışdırıldı.**

Ancaq az sonra məlum oldu ki, ölkənin qeyri-rəsmi əsas dini qurumu olan Qafqaz Müsəlmanları İdarəsi bu qadağaya əməl etmir. Doğrudur, QMİ formal olaraq 2011-ci ildə Qazılar Şurasının əhaliyə ehsan süfrələrində israfa yol verməməklə bağlı müraciətini bir daha yayaraq dəbdəbəli ehsan süfrələrini tövsiyə etmədiyini bəyan etdi. Ancaq faktiki olaraq QMİ-nin mərkəzi ofisinin yerləşdiyi Təzəpir məscidindəki mərasim zallarında və idarəyə məxsus digər zallarda ehsan verilməsi davam etdi.

Qadağa əsasən rayonlarda tətbiq edildi. Qeyd edək ki, artıq bir neçə ildir bir sıra bölgələrdə, o cümlədən Naxçıvanda və bəzi rayonlarda yeməkli dəbdəbəli ehsan süfrələri açılmır. Naxçıvanda bu qadağanı Vasif Talıbov tətbiq edir. Rayonlarda və bəzi kəndlərdə isə bunu yerli əhali öz təşəbbüsləri ilə edir. Ötən il qadağa tətbiq edildikdən sonra ehsan süfrələrindən imtina edən bölgələrin sayı artıb. O cümlədən qərb bölgəsində rayonlarda yas mərasimlərində ehsan süfrələri yığışdırılıb.

Ancaq Bakıda və eləcə də əksər rayonlarda hələ də yeməkli ehsan süfrələri açılır. Yeri gəlmişkən, artıq Bakıda da bir sıra mərasim zalları yeməkdən imtina edib. Ötən gün əməkdaşımız paytaxtda fəaliyyət göstərən bir neçə mərasim zallarında yemək verilmədiyini əks etdirən elanlarla rastlaşıb. Bunların arasında SOCAR-ın tikdirdiyi mərasim zalları da var.

Azərbaycanda ehsan qadağasının bütün ölkə boyunca tətbiqinin baş tutmamasının əsas səbəbi QMİ sədrinin bu qadağaya qarşı olması göstərilir. Məsələ burasındadır ki, QMİ rəhbəri açıq şəkildə münasibət bildirməsə də, onun birbaşa nəzarətində olan mərasim zallarında ehsanların verilməkdə davam etməsi, həmçinin Şeyxin qardaşı, deputat Cavanşir Paşazadə və qudası, deputat Qalib Salahzadə qadağaya qarşı çıxıb.

Şeyxin ehsan qadağasına müqavimət göstərməsi mərasim zallarından şeyxülislamın qazanc güdməsi, zalların bir çoxunun birbaşa Şeyxə və ya yaxın ətrafına məxsus olması ilə izah edilsə də, o zaman mətbuatda digər versiyalar da gündəmə gəlmişdi. Çünki aydın məsələdir ki, bütün mərasim zalları və ya ehsan mərasimlərinin təşkili Şeyxin monopoliyasında deyil, hətta olsa belə ordan gələn gəlir QMİ sədrini siyasi hakimiyyətə, onun verdiyi qərara qarşı çıxmağa vadar edə bilməzdi. Şeyx uzun illər çoxlu sayda siyasi hakimiyyətlərlə işləyib və çox ehtiyatlı və təcrübəli biridir. Bu səbəbdən QMİ sədrinin bir neçə mərasim zalında yeməkli ehsan vermək üçün hökumətin qərarına müxaliflik etməsi inandırıcı görünmür. Ortada başqa mətləblərin olduğu dəqiqdir.

Bu mətləb isə Şeyxin hakimiyyət içərisindəki rəqibləridir. Məsələ burasındadır ki, son illər hakimiyyət daxilində Şeyxə qarşı ciddi "cəbhə" yaranıb. Bunu QMİ-yə qarşı münasibətdə də hiss etmək olur. Məsələn, son illərdə Şeyxin dini sahədə avtoriteti zəiflədilib. Hökumət daha əvvəl QMİ-nin səlahiyyətində olan dini maarifçilik işini yeni qurumlara tapşırdı. Ötən il millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşavirliyi yaradıldı və Kamal Abdulla qurumun rəhbəri, həmçinin prezidentin müşaviri təyin olundu. Bundan başqa, uzun illər yalnız dini qurumların qeydiyyatı və nəzarətini həyata keçirən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə əlavə səlahiyyətlər, ən mühüm dini maarifçilik səlahiyyəti verildi, idarənin ştat vahidi artırıldı, hər bir rayonda şöbələri yaradıldı. Bundan başqa, daha əvvəl QMİ-yə verilən müsəlman dini icmalarına dövlət yardımı ötən ildən DQİDK-ya verildi.

İlk baxışdan adi bürokratik və idarəçilikdə təkmilləşmə kimi görünsə də, bu addımların hər biri Şeyxin din sahəsində avtoritetini azaldır, QMİ-nin dominant rolunu məhdudlaşdırır. Bizə çatan məlumata görə, hökumətin ehsan qadağasının müəllifi də məhz Şeyxə qarşı olan şəxs və qurumlar olub. Bu səbəbdən də Şeyx ehsan qadağası kimi birbaşa onun nəzarətində olan sahəyə hökumət müdaxiləsinə müqavimət göstərib və göstərməkdə davam edir. Bununla da QMİ sədri din sahəsində əsas söz sahibinin özü olduğunu demək istəyib.

Lakin son olaraq Bakıda bir sıra mərasim zallarının ehsandan imtina etməsi, həmçinin yeni tikilmiş "Heydər" məscidinin idarəçiliyinin *(bu məsciddə 3 mərtəbəli binada 10-dn artıq mərasim zalı var - K.R.)* QMİ-yə deyil, BŞİH-ə verilməsi göstərdi ki, hökumət içində Şeyxin müxalifləri ona qarşı mübarizəni davam etdirirlər və geri çəkilmək fikirləri yoxdur.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Milli Məclisə seçkilərə rəsmi start verilir

**Noyabrda Milli Məclisə keçiriləcək seçkilərə bu gün rəsmi start verilə bilər. Azərbaycan Konstitusiyasının 84-cü maddəsinin II hissəsinə və 109-cu maddəsinin 1-ci bəndinə uyğun olaraq deputat seçkiləri gününü prezident təyin edir.**
**"Yeni Müsavat"ın əldə etdiyi məlumatda deyilir ki, böyük ehtimalla bu gün Azərbaycan prezidenti İlham Əliyevin V çağırış Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər barədə sərəncamı elan edilə bilər.**



## Gözlər prezidentdə: seçkilərlə bağlı sərəncam və siyahı...

### Dövlət başçısı İlham Əliyevin V çağırış Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı sərəncamı bu gün elan edilə bilər; YAP-ın böyük maraqla gözlənilən namizədlər siyahısı da açıqlanmalıdır; iqtidar rəsmisi "hakimiyyətə söz gətirə biləcək əməllərdən" çəkinməyə çağırıb və saxtakarlıq təsdiqləndiyi halda komissiya üzvlərinin sərt cəzalandırılacağını bildirib

Gözlənilir ki, sərəncamla həm Prezident Administrasiyasına, həm MSK-ya və Daxili İşlər Nazirliyinə seçki ilə bağlı bütün vacib prosedurların başlanması və əməl edilməsi, o cümlədən siyasi partiyalara, siyasi partiyaların bloklarına və deputatlığa namizədlərə müəyyən olunmuş yerlərdə seçkiqabağı təşviqatın keçirilməsi üçün bütün zəruri şəraiti yaradılması tapşırılacaq. Mənbəmiz deyib ki, bu gün YAP böyük maraqla gözlənilən namizədlər siyahısını da açıqlamalıdır. Qeyd edək ki, bir neçə gün əvvəl MSK sədri Məzahir Pənahov avqust ayının sonuna doğru parlament seçkiləri ilə bağlı kampaniyaya start veriləcəyini deyib. Sərəncamla bağlı maraqlı məqamlardan bir də seçki günü ilə bağlıdır. Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin 2-ci bəndinə əsasən, Milli Məclisin hər çağırışının seçkiləri noyabr ayının birinci bazar günü keçirilir. 2015-ci ilin noyabrın ilk bazar günü ayın 1-nə təsadüf edir. Buna görə də seçkilərin noyabrın 1-də keçirilməsi gözlənilir. Amma istisna deyil ki, Türkiyədə də təkrar parlament seçkiləri noyabrın 1-nə təyin edildiyi üçün Azərbaycanda seçkilər noyabrın 8-də keçirilsin. Hər halda, bu vaxtadək nə MSK, nə Prezident Administrasiyası seçkilərin məhz noyabrın 1-də keçiriləcəyi barədə bir söz deməyiblər.

Qeyd edək ki, aşağı seçki komissiyalarının üzvlərinin Milli Məclisə seçkilərlə bağlı müxtəlif istiqamətlərdə maarifləndirilməsi məqsədi ilə avqustun 24-dən 26-dək ölkə ərazisindəki bütün dairə seçki komissiyalarının katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrlərini əhatə etməklə, seçki hüququ üzrə ixtisaslaşdırılmış kursları tamamlayıb. Ümumilikdə 6000-dən çox seçki rəsmisini əhatə edən irimiqyaslı layihə aşağı seçki komissiyaları üzvlərinin seçki prosesi ilə bağlı məlumatlandırılmasına xidmət edib.

İddialara görə, keçirilən təlimatlarda seçki komissiyası üzvlərinə xəbərdarlıq edilib ki, bu dəfə seçkidə nəzarət ciddi olacaq, 1000-dən çox məntəqə isə canlı yayınla izlənəcək. Onlara xüsusilə müxalifət namizədləri ilə diqqətli olmaq, narazılıq yaradacaq hallara yol verməmək tapşırılıb. Məlumata görə, seçki komissiyaları üzvlərinə heç bir halda YAP və ya hakimiyyətə yaxın partiya namizədləri ilə kontakt qurmamaq göstərişi verilib.

Prezident Administrasiyası rəhbərinin müavini Zeynal Nağdəliyev də ötən həftə MSK-da keçirilən geniş toplantıda xəbərlərə görə, hamını "hakimiyyətə söz gətirə biləcək əməllərdən" çəkinməyə çağırıb və saxtakarlıq təsdiqləndiyi halda komissiya üzvlərinin, dairə-məntəqə sədrlərinin sərt cəzalandırılacağını bildirib.

**Gözlər prezidentdə...**

❑ "Yeni Müsavat"

# Qovulmaq xəbərdarlığına "AG blok"dan sərt cavab gəldi

### **Sevinc Hüseynova:** "Tural Abbaslı düzgün yol seçməyib"
### **Tural Abbaslı:** "Rəsulzadə sağ olsaydı..."




**"AG blok"un təsis edilməsindən sonra cəmiyyətin əsas marağında olan məsələlərdən biri də qurumda təmsil olan Müsavat üzvlərinin partiyadakı fəaliyyətləridir. Müsavat rəhbərliyi mətbuata verdikləri açıqlamalarda "AG blok"a daxil olan üzvlərinin partiyadan çıxarılacaqları anonsunu verməkdədirlər.**

Belə bir açıqlama Müsavat MNTK-nın sədri Sevinc Hüseynovaya məxsusdur. O, APA-ya açıqlamasında partiya daxilində blok yaradıb, seçkilərə getməyin mümkünsüz olduğunu qeyd edib. MNTK sədri blokun təsisçilərindən olan, Müsavat başqanlığına keçmiş namizəd Tural Abbaslının partiyadan kənarlaşdırılacağını istisna etməyib: "Hələ ki "AG blok" təqdimatını keçirib. Əgər Tural Abbaslı və digər Müsavat üzvləri partiyanın siyasi xəttinə zidd hərəkət etsələr, təbii ki, bu məsələ MNTK-da müzakirə olunacaq. "AG blok"un təqdimatına yalnız Müsavatın əleyhdarları, partiyadan kənarlaşdırılanlar toplaşmışdılar. Onlar özlərini ləkələnməmişlər kimi təqdim edirlər. Əgər onların fikrincə, müxalifətdə ləkələnməmişlər 5-6 nəfərdirsə, deməli, digərlərinə kölgə salırlar. Ona görə də mən hesab edirəm ki, Tural Abbaslı düzgün yol seçməyib".

**"AG blok" və barəsində səslənən fikirlərlə bağlı Tural Abbaslının mövqeyini öyrəndik. O, bir partiyanın rəhbər strukturunda təmsil olunan bir şəxsin dilindən səslənən bu fikirlərə təəssüfləndiyini bildirdi:** "Partiyaların əksəriyyətində rəhbər orqanlarda təmsil olunan şəxslər siyasi baxımdan zəifdirlər. Bu dəqiqə müxalifətə didişmələr yox, bütövlük lazımdır. Mənim səhv və ya düz olduğum mənəvi məsələlərdir. Hər şeyi zaman göstərəcək. Bu günə qədər heç vaxt yanlış yolda olmamışıq, bundan sonra da olmayacağıq".

**"AG blok"un təmsilçisi Müsavatın yanlış yolda olduğunu da qeyd etdi:** "Amma bu gün Müsavat rəhbərliyinin yanlış yolda olduğunu rahatlıqla deyə bilərik. Arif Hacılı başda olmaqla, onu dəstəkləyən qrup çox yanlış yoldadır. İnsanları Müsavatdan qovdurmaqla, küsdürməklə, şantaj etməklə heç nəyə nail olmaq olmaz. Bu insanlar illərini Müsavata vermiş şəxslərlə hələ danışıq tərzini öyrənməyiblər. Anlamırlar ki, 22 ildir müxalifətdə olan bir partiyanın rəhbərləridir. Bu illər ərzində insanlar heç bir maddiyyat güdmədən canlarını partiya yolunda qoyublar. Müsavatın adının yaşaması bu şəxslərdən asılıdır. Bu yolla partiyanı nəinki gücləndirmək, hətta ayaqda belə saxlamaq çətindir. Bu gün Gülağa Aslanlı belə, Arif Hacılının maraqlarına zidd addım atsa, eyni sözlər onun barəsində deyiləcək. Müsavatda partiya maraqlarından daha çox Arif Hacılı maraqları güdülür. Təbii ki, mən bu maraqlara cavab vermirəm. Ona görə də bu cür ittiham, şantajlar təbiidir. Sevindirici hal olmalıdır ki, yeni bir siyasi qurum yaranıb. Ən azından alternativlər artır. Bunlar isə siyasi qısqanclıqla məşğuldurlar. Təqdimata gələnləri analiz edirlər. İştirak edən hər bir müsavatçını bir-bir tanıyıram. Hər biri böyük mübarizə yolu seçiblər. Onların müsavatçılığına şübhə yoxdur. Rəsulzadə sağ olsaydı, eyni ittihamlar ona da deyilərdi. Cavab verməkdən daha çox, öz işlərimizlə məşğul olmaq istəyirik. Onlara da eyni məsləhəti verərdim. Daha çox hakimiyyəti analiz etsinlər. Cılız işlərlə məşğul olmasınlar. Müxalifətdaxili intriqalarda iştirak etmək istəmirik. Hər kəsə uğurlar arzulayıram".

❑ Cavanşir ABBASLI

# Müsavat blok yaradır?

### REAL, NİDA, Müsavat üçlüyündən fərqli açıqlamalar gəldi










**Müsavat Partiyası, REAL Vətəndaş Hərəkatı və NİDA Vətəndaş Hərəkatı arasında ard-arda görüşlərin keçirilməsi və verilən rəsmi açıqlamada görüşlərdə noyabr ayında keçiriləcək parlament seçkiləri və bu seçkilərdə həmin təşkilatlar arasında əməkdaşlıq perspektivlərinin müzakirə edildiyinin bildirilməsi bu üç təşkilatın seçkilərdə seçki bloku şəklində ittifaqının yaranacağı haqda söhbətlərə yol açıb.**

"Müsavat, REAL və NİDA seçkidə birlikdə iştirak edəcəkmi? Müştərək namizədlərlə seçkiyə ittifaq şəklində gediləcəyi deyilir. Doğrudurmu" sualları ilə hər üç qurumun rəhbərliyinə daxil olan və müzakirələrdə şəxsən iştirak edən funksionerlərə müraciət etdik.

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah bildirdi ki, hələ müzakirələr davam edir:** "Hədəfimiz seçki dövründə mümkün əməkdaşlıq perspektivlərini razılaşdırmaqdır. Bir-iki günə müzakirələr yekunlaşacaq. İnanıram ki, bu üç siyasi təşkilat seçkilərə əməkdaşlıq şəraitində gedəcək".

**NİDA Vətəndaş Hərəkatının İdarə Heyətinin üzvü Turqut Qəmbərin isə cavabı daha qısa və konkret oldu:** "Xeyr, deyilənlər doğru deyil. Hər hansı ittifaq müzakirə mövzusu deyil".

**Respublikaçı Alternativ Hərəkatının (REAL) İdarə Heyətinin üzvü Erkin Qədirli isə aznews.az-a açıqlamasında bildirib ki, üçlük arasında hər hansı bloklaşma olmayacaq:** "Həmişəki kimi görüş keçirilir. Gələcək seçkilərlə bağlı bəlli bir müzakirə aparılır. Ortada hələ heç nə yoxdur. Amma bəlli bir formatda layihə var. Sonuncu görüşdə onu müzakirə etdik. Layihənin nə ilə bağlı olduğunu indi deyə bilmərəm. Müzakirələr tam bitsin, əgər müsbət bir şey olsa, mətbuata açıqlama veriləcək".

**Erkin Qədirli də bildirib ki, müzakirələr yenə davam edəcək:** "Çünki mətn üzərində işləmək lazımdır. Amma bu, hansısa bloklaşma və yaxud da eyni təşkilatda birləşmə anlamına gəlmir. Bu, sırf seçki öncəsi hesablanmış bir niyyətdir. Bu, hansısa təşkilati öhdəlikləri ehtiva etmir, bloklaşmanı nəzərdə tutmur. Biz yalnız ölkə üçün ümumi strateji olan riskləri müzakirə etdik. Görüşdə həm daxili, həm də xarici proseslərlə bağlı müzakirələr aparırdıq.

Hansısa bloklaşma, təşkilati öhdəliklər, ənənəvi müxalifətin həmişə qurduğu formatlar və ya parlament seçkisində birləşmə prosesi olmayacaq. Yaxın vaxtlarda növbəti görüş olacaq. Amma hələ ki vaxtı dəqiqləşdirməmişik".

❑ Etibar SEYİDAĞA

# Elza Seyidcahan "gəl, namizəd ol" təklifini rədd etdi

### Əməkdar artist Şabran-Siyəzən seçki dairəsindənmi namizəd olmaq istəyir?




**"Mən heç kimin xətrinə dəymək istəmirəm. Lakin hər kəsə məlumdur ki, mən uzun illərdir Yeni Azərbaycan Partiyasının üzvüyəm. Partiya həmişə öz layihə və konsertlərimdə mənə yetərincə dəstək olub. Buna görə də namizədliyimi irəli sürmək istəsəm, YAP-dan başqa heç bir partiyaya müraciət etməyəcəm".**

Bu sözləri əməkdar artist Elza Seyidcahan Müasir Müsavat Partiyası tərəfindən parlament seçkilərinə həmin partiyadan namizədliyini irəli sürmək təklifinə münasibət bildirərkən deyib. Bəstəkar-müğənni məqamı gələndə parlament seçkilərində iştirak edəcəyini də deyib:

"Çox istərdim ki, mən də millət vəkili seçilib, parlamentdə xalqımı, millətimi layiqincə təmsil edim".

Qeyd edək ki, bugünlərdə MMP sədri Hafiz Hacıyev əməkdar artist Elza Seyidcahanı rəhbərlik etdiyi partiyadan namizədliyini verməyə dəvət edib. H.Hacıyev a24.az-a bildirib ki, Elza Seyidcahan MMP-dən namizədliyini vermək istəsə böyük məmnuniyyətlə onu qəbul edər.

Aktual.az saytı isə bəstəkar-müğənninin hansı dairədən namizəd olacağına dair özəl informasiya əldə edib.

Məlum olub ki, Elza Seyidcahan öz namizədliyini 54 saylı Şabran-Siyəzən seçki dairəsindən irəli sürəcək.

Hazırda bu dairədən millət vəkili Milli Məclisin Aqrar Siyasət Komitəsinin üzvü Tahir Süleymanovdur.

67 yaşlı YAP-çı deputatın bu dəfə də seçkilərə qatılacağı, Elza Seyidcahanla rəqib olacağı gözlənilir.

Elza Seyidcahan Siyəzən rayonunda anadan olub və bu rayonda orta təhsil alıb. Hazırda Siyəzəndə çoxlu qohumları yaşayan E.Seyidcahan bu dairədən şanslarını yüksək qiymətləndirir və məhz elə bu səbəbdən də 54 saylı Şabran-Siyəzən seçki dairəsini seçib.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 189 (6217) 28 avqust 2015

# Xədicə İsmayılın ittiham aktı-son bölüm...

## Tural Mustafayevin həyat yoldaşı: "Əvvəl namaz qılırdı, içki içmirdi, Bakıya gəldi...."

**AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılın cinayət işi üzrə istintaq materiallarının son bölümünü təqdim edirik. Bu sayımızda X.İsmayılın və onun həbsinə səbəb olan Tural Mustafayevin bəzi yaxınlarının ittiham aktında yer alan ifadələrinə yer verəcəyik.**



***

### "İstəmirsən, ərizəni ver, boşan"

Tural Mustafayevin həyat yoldaşı olmuş şahid Mustafayeva Şəfa Şahin qızı ifadəsində göstərib ki, 2004-cü ildə T.Mustafayevlə rəsmi nikaha girib və bu nikahdan Tuncay və Tunay adlı övladları anadan olub. Turalla bir-birini sevərək evlənsələr də, 8 may 2014-cü il tarixdə onunla rəsmi olaraq Göyçay Rayon Məhkəməsində boşanıblar. Boşanmaya ərizəni Tural verib və onun ərizəsi əsasında da boşanıblar. O, özü 2013-cü ilin dekabr ayında boşanmaq üçün ərizə yazıb. Tural onun ərizə yazdığını bilib, ərizəni məhkəməyə verməkdən çəkindirib. Həmin vaxt Turalın facebook səhifəsində özünü subay kimi göstərməsini görüb və elə bu səbəbdən ərizə yazaraq ondan boşanmaq qərarına gəlib. Həmin vaxta kimi Turalın ailəsi və onunla maraqlanmadığına görə artıq aralarında soyuqluq yaranıb, həmin dövrlərdə Tural Bakıya gedib-gəlib, AzadlıqRadiosunda işləyib. O, Turalın həyatında kiminsə olduğunu hiss edib, ancaq konkret olaraq bu barədə hər hansı bir məlumatı olmayıb. Tural AzadlıqRadiosunda işləyəndə facebook səhifəsində iş yoldaşlarının, özünün, o cümlədən Xədicə İsmayılova ilə birlikdə olan şəkillərini yerləşdirib. Bundan başqa, X.İsmayılovanın adını tez-tez çəkərək onunla yaxın dost münasibətlərində olduğunu deyib.

Keçmiş həyat yoldaşı deyib ki, T.Mustafayev tamam dəyişib, həmişə ailəsinə, uşağına qarşı diqqətcil, qayğıkeş olan biri, kobud olmuş, əvvəllər namaz qılıb, spirtli içki qəbul etməsə də, araq içməyə başlayıb. Bütün bu dəyişikliklər onda radioda işə düzələndən bir müddət sonra yaranmağa başlayıb. Tural onu ərizəni məhkəməyə verməkdən çəkindirmək istəyib. Onlar aralarında bir yerdə yaşayaraq ailəni qoruya biləcəkləri qərarına gəliblər. Bundan sonra o, 2014-cü ilin yanvar ayının 1-də uşaqları ilə birlikdə Bakıya gəlib. 2014-cü ilin mart ayının 15-nə kimi Turalla həmin mənzildə birlikdə yaşayıb, həmin dövrdə Tural artıq başqa yerdə, "Meydan TV"də işə düzəlib. Evə çox gec gəlib, özü də əksər hallarda içkili olub. Eks həyat yoldaşı bildirib ki, onu ailəsindən, uşaqlarından ətrafında olanların uzaqlaşdırdığını anlayıb.

Turalın dostları kimi Aygül və İlhamiz adlı şəxsləri tanıyıb. Onlar bir dəfə 2014-cü ilin fevral ayında, bir dəfə də uşağın ad günündə, 10 mart 2014-cü il tarixdə evlərinə gəlib və gecəni onların evində qalıblar. Onların arasında olan söhbətlərdən "onsuz da işdən çıxartdıracaq, Xədicə ondan əl çəkməyəcək, qisas alacaq" sözlərini eşidib. Tural çox əsəbi halda bu sözləri Aygüllə İlhamizə deyib. Tural 14 mart 2014-cü il tarixdə axşam evə gəlib uşaqlar yatandan sonra ona deyib ki, həyatında başqası var, onunla yaşamaq istəmir, o, Turalın bu sözlərinə hazır olduğundan, "lap yaxşı, istəmirsən, ərizəni ver, boşan" cavabını verib.

T.Mustafayev 15 mart 2014-cü il tarixdə evdən birdəfəlik çıxıb gedib, sonra Göyçay Rayon Məhkəməsinə ərizəni verib, 08 may 2014-cü il tarixdə rəsmi olaraq boşanıblar. Turaldan ayrılandan sonra onun həyatı ilə maraqlanmasa da, atasının sözlərindən Turalın işsiz olduğunu, Xədicənin onu işə düzəlməyə imkan verməməsini, nişanlısı ilə aralarını vurduğunu, Turalın başını itirdiyini eşidib. Son vaxtlar uşaqların alimentini ondan istəyəndə Tural işləmədiyindən pul verə bilmədiyini deyib. Turalın siçan dərmanı içərək intihara cəhd etməsi barədə məlumatı anasından eşidib.

### Tural Mustafayevlə bir evdə yaşamış Cavid Abdullayev baş verənləri necə danışıb?

**Şahid Abdullayev Cavid İlqar** oğlu ifadəsində göstərib ki, 2013-cü ilin dekabr ayında "Meydan TV" internet televiziyasının redaktoru Təhminə Tağızadə onunla əlaqə yaradaraq, reportyor işinə dəvət edib. X.İsmayılova barədə bildirib ki, onun istər AzadlıqRadosunda, istər "Meydan TV"də, istərsə də bir sıra saytlarda böyük nüfuza malik olan şəxs olduğunu bilir. Bundan başqa, Xədicənin Avropada, Amerikada əlaqələrinin geniş olduğunu da bildirib. "Meydan TV"nin rəhbəri kimi tanıdığı Emin Milli ilə isə dostdurlar. Emin Milli Almaniyada yaşayır. C.Abdullayev deyib ki, eşitdiyinə görə, X.İsmayılova E.Millinin həmin dövlətdə yerləşməsinə, orada əlaqələr quraraq işləməsinə də köməklik edib.

T.Mustafayevi yaxşı bir insan, öz işini bilən, səmimi biri kimi tanıyıb. Təxminən 2014-cü ilin aprel ayına kimi onun barəsində hər hansı bir pis söz eşitməyib. 2014-cü ilin mart ayının ortalarında Tural onunla birlikdə "Meydan TV"nin ofisində yaşamağa başlayıb. Həmin vaxt Turalın söhbətlərindən bilib ki, Turalın X.İsmayılova ilə münasibətləri pozulub və buna da səbəb Turalın Rövşənə adlı qızı sevməsi, ona qarşı fikrinin ciddi olmasını Xədicə İsmayılovaya deməsi olub. X.İsmayılova qısqanclıq edərək onu hədələyib evindən qovub. Ona görə də Tural söhbətlərində deyib ki, "Meydan TV"də işləməsinə imkan verməyəcəklər, artıq Xədicə aralarında olan münasibətlərin pozulduğunu hamıya çatdırıb.

Təxminən mart ayının axırlarında Emin Milli skayp vasitəsilə müşavirə keçirən zaman əmək haqqının ödənilməsi üçün imkan olmadığını, maddi problemlər olduğunu, ola bilsin kiminsə müqaviləsinin uzadılmayacağını deyəndə həmin müşavirədə iştirak edən T.Mustafayev müqaviləsi uzadılmayan şəxsin onun olacağını bildiyini, ona görə də çatacaq məvacibinin tam ödənilməsini xahiş edib. E.Milli isə onunla razılaşmayıb, "nədən bilirsən ki, sən olacaqsan" deyərək cavab verib, ancaq səhəri gün həqiqətən də məlum olub ki, Turalı işdən maddi vəziyyətlə bağlı müqavilənin uzadılmaması adı ilə çıxarıblar. Buna baxmayaraq, Tural ofisdə qalmaqda davam edirmiş. Bir neçə dəfə ona eşitdiriblər ki, ofisdən çıxmalıdır. Tural imkanı olmadığına görə kirayəyə çıxa bilməmiş və pulunu tələb etmişdir. Ancaq onun pulunu vermirlərmiş, axırda Emin Milliyə onu məhkəməyə verəcəyini deyəndən sonra pulunu bir-iki günə Turala veriblər. Tural "Meydan TV"də eşitdiyinə görə 700-800 ABŞ dolları əmək haqqı alırmış.

"Meydan TV"dən sonra AzadlıqRadiosunda da Turalın məqalələrini götürməyiblər. Bir neçə sayta müraciət etsə də, Turala iş verən olmayıb. Turalın özünün də sözlərinə görə, Xədicə bir jurnalist kimi onun üstündən xətt çəkib.

Təxminən 2014-cü ilin may ayının əvvəlində Turalın nişanlısı Rövşənə ona zəng vuraraq Turalın özünü asdığını, facebookda şəkil paylaşdığını bildirib. O, dərhal yaşadığı evə gedib, Rövşənənin anası ilə artıq evdə olduğunu, Turalın bir kündə dinməz oturduğunu görmüş və ona məlum olub ki, Tural həqiqətən də özünü asaraq intihar etmək istəyib. Tural məléfə ilə özünü asmaq istəsə də, ilgək açıldığından buna nail ola bilməyib. Rövşənə ilə anası getdikdən sonra aralarında olan söhbətdə Turalın intihar etməsi barədə şəkili internetə Xədicəyə görə yerləşdirdiyini bildirib, özünü asmaq, öldürmək istəməsinin səbəbini də Xədicənin onu hər yerdə işdən məhrum etməsi, jurnalist kimi onu silmək istəməsi ilə bağlı olması ilə izah edib. Həmin ərəfədə Turalın Rövşənə ilə münasibətlərinin pozulmasının, aralarında hər hansı bir narazılığın olmasının şahidi olmayıb. Bu hadisədən sonra təxminən bir aya yaxın bir yerdə yaşayıblar.

C.Abdullayev bildirib ki, 2014-cü ilin oktyabr ayının ortalarında xəbər saytlarından T.Mustafayev adlı gəncin bulvarda siçan dərmanı içərək intihara cəhd etdiyini, ancaq xoşbəxtlikdən sağ qaldığını oxuyub. Təxminən oktyabr ayının 25-də təsadüfən Turalla şəhərdə görüşüb. Onunla söhbət zamanı nə üçün belə etdiyini soruşub maraqlananda o, "əşi boş ver, köhnə söhbətlərdir, -başqa nə olacaq, əl çəkmir" deyib. Tural köhnə söhbət deyəndə Xədicə İsmayılova ilə aralarında olan söhbəti nəzərdə tutub.

### Keçmiş nişanlıdan Tural Mustafayev gerçəyi...

İş üzrə şahid qismində dindirilmiş Rəhimova Rövşənə Vaqif qızı ifadəsində göstərib ki, Tural Mustafayevlə 08 mart 2014-cü ildə qadınlar bayramı münasibətilə "Status" kafesində keçirilən məclisdə tanış olub. T.Mustafayev məclisə bir qədər sonra tək gəlib. Hamı ilə görüşüb qadınları təbrik edib, onlar oturduğu masanın arxasında oturub çörək yeyib, spirtli içki qəbul edib. Təxminən saat 23 radələrində onlar evə getmək üçün kafedən çıxandan sonra Aynurə, Xədicə və digər bir nəfər Xədicənin rəfiqəsi taksiyə əyləşmək istəyərkən Aynurəgil ona "gəl səni evədək ötürək" deyəndə onlara narahat olmamalarını, Turalın onu ötürəcəyini deyib. Bundan sonra Xədicə, Aynurə və digərləri maşına oturub gediblər. O isə Turalla piyada öz evi istiqamətində, "28 May" metro stansiyası tərəfə gedib, yol boyu söhbət edərkən Tural özünün evli olduğunu, iki uşağı olmasını bildirib, ona "nə yaxşı xoşbəxtsən" deyəndə o, "yox xoşbəxt deyiləm" deyərək cavab verib, ailəsi ilə aralarında sərinlik olduğunu bildirib. Turalın ondan xoşu gəldiyini hiss etdiyindən evli kişi ilə heç bir münasibətin ola bilməyəcəyini ona bildirmiş, sadəcə olaraq, dost ola biləcəklərini deyib və istifadəsində olan telefonunun nömrəsini ona verib, Tural da öz növbəsində öz nömrəsini əlaqə saxlamaq üçün ona verib və onu evinədək ötürüb çıxıb gedib.

09.03.2014-cü il tarixdə Novxanı qəsəbəsində keçirilən təlimdə olduğu zaman Tural ona SMS vasitəsilə mahnı və şeirlər göndərib. Axşam tərəfi Turalı boulinq oynamağa dəvət edib. Lakin o heç cür gələ bilməyəcəyini, pulu olmadığını bildirmiş, həmin gün gün ərzində Turalın ona mesajlar yazdığını A.İmranovaya deyib. Axşam isə Turaldan söhbət düşəndə Aynurə "yeri gəlmişkən, Tural Xədicəgildədir" deyərək ona bildirib. A.İmranovadan Turalın "nə əcəb onlara gedib" deyə soruşanda Aynurə Turalla Xədicənin əvvəllər yaxın olduqlarını, hazırda isə dost olduqlarını bildirib. İki gündən sonra Turalla zəngləşib görüşərkən söhbət zamanı sonuncu ona X.İsmayılova ilə aralarında əvvəllər özəl münasibətlər olmasını etiraf edib, ancaq hazırda dost olduqlarını, başqa münasibətləri olmadığını bildirib. Tural daha sonra X.İsmayılovanın evinə bir dost kimi getdiyini, onunla mesaj yazışması aparərkən X.İsmayılovanın bunu gördüyünü və ona "o qız yaxşı qızdır, onunla münasibətə girib onu incidəcəksən" sözlərini dediyini və elə bu zəmində də aralarında mübahisə yarandığını danışıb.

R.Rəhimova deyib ki, 2014-cü ilin aprel ayının əvvəllərində Tural Mustafayev "Meydan TV"dən işdən çıxarılıb. Onun "Meydan TV"yə X.İsmayılovanın tövsiyəsi ilə işə götürülməsini kənar insanlardan eşidib, kimdən eşitdiyini xatırlamır. Turala iş tapmaqla bağlı dostuna, yeni Xədicəyə müraciət etməsini məsləhət görərkən sonuncunun bu barədə danışmaq istəmədiyini bildirməsindən Turalla Xədicənin münasibətlərinin pisləşdiyini bilib. Ümumiyyətlə, belə başa düşür ki, Tural Mustafayevlə Xədicə İsmayılovanın münasibətlərinin pozulmasına səbəb Turalın onunla (yəni Rövşənə ilə) tanışlığı olub. X.İsmayılova ilə münasibətlər pozulandan sonra Turalın işsizlik problemləri yaranıb, müəyyən təlimlərə qatıla bilməyib, iş tapmaq üçün müəyyən yerlərə müraciət etsə də işə qəbul olunmayıb. Bundan başqa, işsiz qaldığı dövrdə AzadlıqRadiosuna müəyyən məqalələr göndərsə də, onun məqalələri qəbul olunmayıb.

R.Rəhimova Turalın özünü öldürməyə cəhd etməsinin səbəbinin onun yaşadığı stress və sarsıntılarla bağlı olduğunu düşünür. X.İsmayılova ilə telefon əlaqələri olmasa da, facebook yazışmaları olub. 09.03.2014-cü il tarixdə təxminən saat 23 radələrində X.İsmayılova facebookda "sən çox gözəlsən, imkan vermə ki, kimsə səni incitsin" mesajını yazıb göndərib. Onun göndərdiyi həmin mesajı oxuduqdan sonra ona öz təşəkkürünü bildirib və "əgər Turalla bağlı məsələni nəzərdə tutursunuzsa, Turalla mənim aramda heç bir şey ola bilməz" mesajını yazıb göndərib. Həmin vaxt Turalla onların münasibətlərinin dərinliyini bilmədiyi üçün fikirləşib ki, yəqin Tural ailəli olduğundan X.İsmayılovanın ona belə yazmaqda məqsədi onu ailəli bir insandan qorumaqdır.

❑ **YM**



TƏSDİQ EDİRƏM

Azərbaycan Respublikası
Baş prokurorunun birinci müavini
II dərəcəli dövlət ədliyyə müşaviri
Rüstəm Usubov

09 iyul 2015-ci il.

İsmayılova Xədicə Rövşən qızının Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2., 125.-ci maddələri ilə təqsirləndirilməsinə dair 152006031 №-li cinayət isi üzrə

İTTİHAM AKTI

Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin rəisi, istintaq qrupunun rəhbəri, III dərəcəli dövlət ədliyyə müşaviri Eldar Əhmədov, İsmayılova Xədicə Rövşən qızının Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2. və 125.-ci maddələri ilə təqsirləndirilməsinə dair 152006031 №-li cinayət işi üzrə kifayət qədər sübutların toplanmasını və ibtidai istintaqın tamamlanmasını nəzərə alaraq, Azərbaycan Respublikası CPM-nin 289-cu maddəsini rəhbər tutub, 09 iyul 2015-ci il tarixdə saat 09:30-da Bakı şəhərində ittiham aktını tərtib etməyə başladım.

Həmin cinayət işi Azərbaycan Respublikasının və xarici qeyri-hökumət təşkilatlarının, filial və nümayəndəliklərinin fəaliyyətlərində aşkar edilmiş qanun pozuntuları faktları üzrə ibtidai istintaqı aparılan 142006023 №-li cinayət işindən 20 iyun 2015-ci il tarixdə İsmayılova Xədicə Rövşən qızının barəsində Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2., 125.-ci maddələri ilə ayrılaraq, icraatına qəbul edilməklə rəhbərlik etdiyim istintaq qrupu tərəfindən ibtidai istintaqı davam etdirilmişdir.

c.1, i.v.1-9.

«Azad Avropa/Azadlıq Radiosu»nun Azərbaycan Respublikasındakı nümayəndəliyinin reportyoru vəzifəsində işləmiş Mustafayev Tural Bulut oğlunun 2[illegible] oktyabr 2014-cü il tarixdə Bakı şəhəri Dənizkənarı Milli Parkda intihara cəhd etməsi faktı üzrə Xədicə İsmayılovanın Azərbaycan Respublikası CM-nin 125-ci maddəsi ilə təqsirlənlirilməsinə dair Bakı şəhər prokurorluğunun İstintaq idarəsi tərəfindən ibtidai istintaqı aparılan 140026071 №-li cinayət işi də 19 fevral 2015-ci il tarixdə 142006023 №-li cinayət işinə birləşdirilməklə ibtidai istintaq vahid icraatda davam etdirilmişdir.

c.1 , i.v. 204-206

# AXCP-də narazı tərəflər qurultaya hazırlaşır

## Əli Kərimli də gələn ay qurultay keçirmək niyyətindədir; AXCP sədri imkanlı şəxsi quruma sədr gətirmək istəyib?

**AXCP-nin təcili qurultaya hazırlaşdığı barədə xəbərlər yayılıb. Qurumun gələn ayın sonuna qədər qurultayını keçirəcəyi deyilir. Yayılan xəbərlərdə bildirilir ki, AXCP-nin təcili surətdə bu seçimlərə getməsinə səbəb Əli Kərimlinin keçmiş müavini Razi Nurullayevin yeni təşkilat yaratması və AXCP adına iddiasıdır.**

Yeni yaradılan AXCP də bir ay ərzində qurultay keçirməyi planlaşdırır. Əli Kərimli isə Razi Nurullayevdən qabaq bu məsələni bitirmək niyyətindədir. Çünki günü-gündən partiyadan qopmalar artır.

**Yayılan xəbərlərlə bağlı R.Nurullayev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, AXCP-nin sentyabrın sonuna qədər qurultay keçirəcəyi inandırıcı deyil:** "Təbii ki, bu ola bilər. Mən informasiyalarımı bölüşürəm. AXCP sentyabr ayında qurultay keçirilməsi ilə bağlı qərar verib. Amma bildiyimə görə, Əli Kərimli qurultaya getmək istəmir. Konfranslarını keçirib, hazırlıqlarını başa çatdırıb, özünə sərf edən zamanda qurultay keçirəcək. Əgər gələn ay qurultay keçirsə, qarşısında ciddi maneələr var. İlk növbədə, ictimai qınağa tuş gələcək. Təzədən öz namizədliyini irəli sürəcəksə, bu onu bitirəcək və lağlağı obyektinə çevirəcək. Qurultayda növbəti dəfə Əli Kərimli namizədliyini irəli sürsə, bu, partiya daxilində ciddi narazılıqlarla qarşılanacaq. Kifayət qədər daxildə qruplaşmalar var. Hesab edirəm ki, bunları o, bilməmiş deyil".


Razi Nurullayev

**R.Nurullayev Ə.Kərimlinin Müsavat formatından AXCP-də istifadə etmək niyyətində olduğunu da söylədi:** "Əli Kərimli partiyanın lideri olaraq qalmaq fikrində idi. Onun məqsədlərindən biri də Müsavat formatında siyasətdən çəkilmək idi. Yerinə bir maliyyə mənbəyini müəyyən etmək istəyirdi. O maliyyə mənbəyi isə adını çəkmək istəmədiyim bir nəfərdir. Onun adını çəkməyə qadağa qoymuşam. İstəmirəm ki, adını bulaşdırım. O, Əli Kərimlinin maliyyə mənbəyi ola bilərdi. Həmin şəxsi isə nə cəbhəçilər, nə də ictimaiyyət qəbul edir. O, özünü tükəndirmiş, bulaşdırmış bir insandır. Həmin şəxsi cəbhəçilərə qəbul etdirmək mümkün deyil. Bu baxımdan onun adam tapıb, ətrafına qəbul etdirənə qədər qurultay keçirmək fikri yoxdur. İndi əli hər yerdən üzülürsə, ayağının altından stollar qaçırsa, özünü xilas etmək, təzədən ətrafındakı 3-5 nəfərlə özünü sədr elan etmək istəyirsə, bu onun üçün uğurdursa, edəcək. Bununla da bütün nüfuzunu itirmiş olacaq".

**R.Nurullayev Ə.Kərimlinin qurultay keçirməsinin onlara təhlükə yaratmayacağını qeyd etdi:** "Onun qurultay keçirməsi artıq bizim üçün təhlükəli deyil. Hazırda əsl AXCP-nin qurultayına hazırlaşırıq. Ciddi şəkildə səfərbər olunmuşuq. Az müddət ərzində qurultay keçirməyə nail olacağıq. Bir ay ərzində də qurultayımızı keçirəcəyik. AXCP-nin parçalanmasından söhbət getmir. Partiyanı parçalayan insanlar uğursuz şəxslər olacaq. Həmin şəxslər Əli Kərimlinin yolunu getmiş insanlar olacaqlar. AXCP-ni parçalamaq lazım deyil. Əgər parçalamaq lazım olsaydı, biz edərdik. Biz AXCP-ni parçalamadıq. Partiyanı dağıtmaq ümumi müxalifətə ziyandır. Bizim maraqlarımıza da ziddir. AXCP-ni bütövləşdirmək istiqamətində addımlamaq istəyirik".

❑ Cavanşir ABBASLI

# Elçin Behbudov Mingəçevirdəki ölüm işini araşdırıb

## Məlum olaylara görə saxlanılan şəxslərə 10-20 sutka həbs verilib

**Avqustun 20-də Mingəçevir Şəhər Polis Şöbəsində dünyasını dəyişən Bəhruz Hacıyevin dəfnindən sonra şəhərdə aksiya keçirilmişdi. Aksiya zamanı polislə mərhumun yaxınları və şəhər sakinləri arasında toqquşma baş vermişdi. Nəticədə 20-dən çox aksiya iştirakçısı həbs edilmişdi.**

İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin (İQAK) sədri Elçin Behbudov avqustun 25-də Mingəçevirdə olub və Bəhruz Hacıyevin yaxınları ilə görüşüb. Hüquq müdafiəçisi həmçinin Mingəçevir Şəhər Polis Şöbəsində də olub və aksiya zamanı həbs edilənlərlə görüşüb.

E.Behbudov görüş barədə musavat.com-a açıqlama verib. Hüquq müdafiəçisi bildirdi ki, səfərdə məqsəd Bəhruz Hacıyevin intihar etməsi faktını və onun işgəncəyə məruz qalıb-qalmamasını araşdırmaq olub.

**B.Hacıyevin atası Dilsuz Hacıyev və əmiləri Gündüz Hacıyev, Səməd Səmədovla görüşən E.Behbudov onların şikayətlərini dinləyib:** "Atası və əmiləri ilə görüşdə onların iştirakı ilə meyitə ikinci dəfə baxış zamanı mərhumun qolunda, ayağında zorakılıq əlamətlərinin, zədələrin olub-olmamasını soruşdum. Belə halın şahidi olmadıqlarını dedilər. Əsas şikayətləri ondan ibarətdir ki, Bəhruz Hacıyev dindirilmə zamanı kabinetdə niyə tək buraxılıb. Ailəsi Bəhruz Hacıyevin bədəninin sol tərəfində nöqtə kimi qara ləkələrin olmasından narahatdır. Və həmçinin mərhumun telefon və saatının yoxa çıxması da ailəni narahat edən məsələlərdəndir".

**Hüquq müdafiəçisi daha sonra B.Hacıyevin özünü atdığı deyilən otaqda da olub:** "Həmin otaq çox kiçikdir. Həmçinin pəncərəsi də. O pəncərədən kimisə atmaq mümkün deyil. Əgər onu kimsə pəncərədən atsaydı, binanın yanına düşərdi. Bəhruz Hacıyevin cəsədi binadan 6 metr kənarda olub".

**Şöbənin rəisi polkovnik Ələsgər Bədəlovla da görüşdüyünü deyən hüquq müdafiəçisi B.Hacıyevə qarşı elektroşok aparatından istifadə edilməsi məsələsinə də aydınlıq gətirdiyini söylədi:** "Ələsgər müəllim bildirdi ki, Bəhruz Hacıyevin şöbəyə gətirilməsi kameralarda var. O, şöbəyə gətiriləndən 6-7 dəqiqə sonra özünü atıb. Ələsgər Bədəlov elektroşok aparatlarını yeni aldıqlarını, lakin heç istifadə edilmədiyini bildirdi. Bunu prokurorluq tərəfindən aparılan araşdırmalar da sübut edib".

Aksiya zamanı həbs olunanlarla görüşdüyünü deyən E.Behbudov hazırda Mingəçevir Şəhər Polis Şöbəsinin müvəqqəti saxlama yerində 16 nəfərin saxlanıldığını və onların 10-20 sutka azadlıqdan məhrum edildiklərini bildirdi: "16 nəfər polisə müqavimətdə təqsirli bilinərək həbs ediliblər. Onlar 10-20 sutkayadək azadlıqdan məhrum ediliblər. Onlar inzibati qaydada həbs olunublar. Heç biri saxlanma şəraitindən narazı deyil. Həbs olunanlara qarşı zor tətbiq edilməyib".

Hüquq müdafiəçisi yalnız B.Hacıyevin ölümünə görə həbs olunan polis baş leytenantı Şahlar Şahlarzadənin Gəncə İstintaq Təcridxanasına köçürüldüyünü qeyd etdi.


Elçin Behbudov

Qeyd edək ki, Ş.Şahlarzadə Cinayət Məcəlləsinin iki maddəsi üzrə- 125 (özünü öldürmə həddinə çatdırma) və 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmənin qərarı ilə barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

❑ İlkin MURADOV

# AŞ PA məruzəçisi müxalifətlə niyə görüşmədi...

## Sərdar Cəlaloğlu beynəlxalq təşkilatların Azərbaycandakı siyasi proseslərə təsir imkanının məhdud olduğunu deyir

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) məruzəçisi Militsa Markoviç avqustun 24-dən Azərbaycanda rəsmi səfərdə olub. AŞ PA məruzəçisi səfər zamanı Milli Məclisdə olub, xarici işlər naziri Elmar Məmmədyarovla və bir sıra rəsmi şəxslərlə görüşüb. Militsa Markoviçin Azərbaycana səfəri avqustun 27-də başa çatıb. Lakin AŞ PA nümayəndəsi səfəri zamanı müxalifət nümayəndələrindən heç biri lə görüşməyib.**

Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanı musavat.com-a açıqlamasında M.Markoviçin müxalifət nümayəndələri ilə görüşməməsinin səbəbi kimi ATƏT nümayəndəsinin şəxsi istəyini göstərdi.



**G.Aslanlı bildirdi ki, belə görüşlər protokol qaydalarına uyğun olaraq baş tutur:** "Belə görüşlər protokol qaydalarına uyğun olaraq olur. Səfərə gələn rəsmi şəxs öz protokolunu Azərbaycan hakimiyyətinə və digər strukturlara təqdim edir. Azərbaycan müxalifətinin və ya digər partiyaların onlarla görüşmək istəyib-istəməməsinin heç bir əhəmiyyəti yoxdur. Bu cür görüşlər rəsmi səfərə gələn şəxsin istəyi ilə olur və Müsavat Partiyasına belə bir müraciət olmayıb. Onlar yəqin ki, bizimlə görüşmək istəməyib".

**ADP sədri Sərdar Cəlaloğlu isə ümumiyyətlə ATƏT və Avropa Şurası nümayəndələri ilə görüşməyin mənasız olduğunu bildirdi.**

**S.Cəlaloğlu bu fikrini AŞ PA-nın və digər beynəlxalq təşkilatların Azərbaycandakı siyasi proseslərə təsir imkanının həddən artıq məhdud olması ilə izah etdi:** "Beynəlxalq təşkilatların Azərbaycanda siyasi proseslərə təsir imkanı yoxdur. Əksər hallarda isə əksinə olaraq onların iştirakı ilə demokratiya geriyə doğru inkişaf edib. Şəxsən mən ATƏT-in və Avropa Şurasının Azərbaycandakı fəaliyyəti ilə maraqlanmıram. Çox acı təcrübə onu göstərir ki, ATƏT-in və Avropa Şurasının Azərbaycanda demokratiyanın inkişafına zərrə qədər də olsun təsiri yoxdur. Onların Azərbaycanda apardığı işlər formal xarakter daşıyır".

❑ İlkin MURADOV

# Ərdoğanın ikinci cəhdi...



Hüseynbala SƏLİMOV

**Başa düşürəm, demokratiya əleyhdarları, daim demokratiyaya opponentlik edənlər Türkiyədə baş verən proseslərə təkcə təşvişlə deyil, bir az da istehza ilə baxırlar...**

Amma mən onları tələsməməyə və tələsik nəticələr çıxarmamağa çağırardım. O kəslər ki, hər şeyi yalnız son nəticə ilə ölçürlər, onlar N.Makiavellinin "Məqsəd vasitəyə bəraət qazandırır!" fikrilə oturub-dururlar. Onların fikrincə, indi, bu an Türkiyəyə heç vaxt olmadığı kimi möhkəm hökumət lazımdır...

Amma məsələ də bundadır ki, "möhkəm hökumət" ifadəsini də hərə bir cür başa düşür. Millətin etimad verdiyi hökumət də möhkəm hökumətlər sırasına aid edilməli, bəlkə də həmin ifadənin həm 21-ci əsrə, həm də normal siyasi məntiqə görə yeganə yozumu olmalıdır... Təbii ki, "Xalq üçün xalqsız!" şüarı ilə düşünənləri bir yazı ilə, hətta on yazı ilə inandırmaq mümkün deyil... Amma dünya çox dəyişib, bu dəyişiklikləri görməyənlər, daha doğrusu, onun təsdiqinə imza atmayanlar bəlkə özləri də bilmirlər ki, öz taleləri üçün hansı hökmü verirlər...

Qayıdaq mətləbə. Türkiyə demokratik dövlətdir. Bu faktı ən azı ona görə təkrar - təkrar vurğulamaq lazımdır ki, müsəlman dünyasında ikinci belə bir dövlət yoxdur. Düzdür, demokratiyanın da zəif cəhətləri var. Demokratlar adətən bir məsələdə çətinlik çəkirlər - birləşmək, bir söz demək onlara elə də asan başa gəlmir. Həm də demokratiya zamanı qərarlar çətin, bir az ləng qəbul olunur...

Bunu deyəndə demokratiya əleyhdarları qayıdırlar ki, bəs biz nə deyirik, məgər biz də elə bunu demirikmi? Olsun. Amma bir sual var. Demokratiyanı bəyənməyələr, ona şübhə və bir az da nifrətlə yanaşanlar avtoritar üsullarla qərar qəbul etməklə nəyə nail olublar? Elə bu yola üstünlük verənlər, tutaq ki, Azərbaycanda nəyə nail olublar? Dağlıq Qarabağda bu 22 ildə heç olmasa, bir rayon azad edilibmi?..

Hökumət millətin seçimi ilə formalaşanda onun məsuliyyətini də elə millətin özü daşıyır. Təbii ki, çətindir. Bir çoxu R.T.Ərdoğanı ifrat inadkarlıqda, ölkə üçün məsuliyyətli anda özünün siyasi ambisiyalarını təmin etməyə çalışmaqda qınayırlar. Amma biz yenə də tələsməzdik. Erkən seçkilərə bir o qədər də çox qalmayıb. Millət Ərdoğan haqqında nə düşündüyünü seçkidə ifadə edəcək və biz də hamımız bunu görəcəyik...

Əgər millət onun kursuna dəstək verməsə, Ərdoğan bununla da hesablaşacaq.

Ən azı ona görə ki, bura Türkiyədir, burada seçkiləri saxtalaşdırmaq - filan ola bilməz, hər şey doğru-dürüst, vicdanla olur...

Əgər yox, millət Ərdoğana dəstək versə, bu, o demək olacaq ki, digərləri də bununla barışmalıdır. Düzdür, Ərdoğana mütləq qələbə çox lazımdır, o, hətta bunda israr edir, amma yenə də seçim millətindir...

Bəlkə onun Türkiyədə prezident üsul-idarəsini bərqərar etməyə cəhd göstərməsində bir məntiq var? Bəli, birinci seçki göstərdi ki, onun bu planı keçərli olmadı, prezidentin partiyası mütləq çoxluğu qazana bilmədi. Bəziləri elə bunu əsas götürərək israr edirlər ki, ikinci seçkidə millət Ərdoğana yenə də "yox" deyəcək...

Onlar bu fikri əsas götürürlər ki, qısa müddətdə millətin fikri yaxşılığa doğru ciddi şəkildə dəyişə bilməz, o, ən yaxşı halda birinci seçkidəki nəticəni təkrar edəcək, böyük ehtimalla isə hakimiyyətə dəstəyini bir az da azaldacaq...

Bunu israr edənlər ki, Türkiyənin indiki vəziyyətinə də diqqət yetirməyi tövsiyə edirlər. Türkiyə indi PKK ilə, İŞİD-lə və bir də B.Əsədlə vuruşmaq zorundadır. İnsanlar isə həmişə sabitliyə önəm verirlər. Qərəz, bu məntiqin də söykəndiyi bir fakt var ki, birinci seçkidən bu tərəfə ölkədə vəziyyət nəinki yaxşılığa doğru dəyişib, hətta pisləşib. Bu isə Ərdoğanın partiyasının şansını çox azaldır...

Amma Ərdoğana haqq qazandıranların da öz arqumentləri var. Onlar da diqqəti kürd partiyası olan HDP-nin şanslarına yönəldirlər. Onlar belə hesab edir ki, HDP-nin mandatları böyük ehtimalla digər müxalifət partiyaları arasında bölünəcək və ola bilsin ki, onun bir qismi də elə hakimiyyətə nəsib olacaq. Fəqət, belə fikirlərə düşmək hələ tezdir. Hələlik bəlli olan budur ki, HDP də müvəqqəti hökumətdə iştirak etmək üçün dəvət alıb...

Qərəz, çox ssenarilər fikirləşmək olar. Amma bizim istədiyimiz nədir? Bu gün müsəlman dünyasında bir az əvvəldə qeyd etdiyimiz kimi, tək bir demokratik ölkə var. Bu ölkənin insanlarının buna görə pərt olmasını istəməzdik! Allah öz köməyini onlardan əsirgəməsin!..



# Qurdun monitorinqi

Zamin HACI
zaminhaci@gmail.com

"Bizim polkovnik ümumiyyətlə "Praqa rəsmi qəzetini" də oxumağı əsgərlərə qadağan elədi. Əsgər dükanında hətta sosis və pendiri qəzetə bükmək qadağan olundu. Elə bu çağdan da əsgərlər oxumağa başladılar. Bizim alay dərhal ən oxumuş alay oldu. Biz əlimizə nə keçsə oxuyurduq, hər bölükdə polkovnik haqda şeirlər və mahnılar yazılırdı"

**(Yaroslav Qaşek, "İgid əsgər Şveykin macəraları")**

***

**Öncə Sabir Urufzadə adlı oxucumuzun məktubunu dərc edək, həm çoxdandır poçtumuzda yatır, həm də uca millətimizi yaxından tanımaq üçün xeyli önəm daşıyır:**

"1971-ci ildə cənub rayonlarından birinə təzə raykom katibi qoyulur, bu katib dağ kəndlərinə gəzməyə çıxır. Yolda bir dağ çayına çatırlar, sürücü xahiş edir hamı düşsün, çayı keçib təzədən minərlər, çünki maşının gücü çatmır. Düşürlər, çayı keçəndə bir kolxoz sədri raykom katibinə deyir ki, yoldaş katib, xahiş edirəm belimə minin, sizi o taya keçirim, ayaqqabılarınız batmasın. Katib öncə imtina edir, amma səfər yoldaşı olan başqa sədrlər də xahiş edir, deyirlər, əşşi, cavan oğlandır, nə var burda, qoy sizi keçirsin o taya. Nə isə, katib minir sədrin belinə, çayı keçirlər. Sən demə, lotular bu səhnəni qabaqcadan fikirləşiblər, fotosunu gizli çəkdirib o vaxtkı 1-ci katib Heydər Əliyevə göndərirlər. Belə də şərh yazırlar ki, katib bizi minib çapır: "Sizin göndərdiyiniz katib kolxoz sədrlərini minib kəndbəkənd gəzir". Bundan sonra Əliyev məcbur olur katibi işdən çıxardır".

Doğrudan da unikal millətimiz var. İnsan qürur duyur. Örnək üçün, bugünlərdə Tarif Şurası dərman qiymətlərinin ucuzlaşdırılması haqda qərar veribdir. Ancaq həmin ucuz dərmanları yalnız AZAL-ın ucuz biletlərindən yararlanmış şəxslərə satırlar. Zarafat edirəm. Hərçənd doğrudan da bizdə ucuzlaşma nəsə gözəgörünməz şəkildə olur. Elə bil yapistlərin möcüzəli eynəkləri var, ancaq onlar ucuzluğu görür. Biz isə ancaq bahalaşmanı görürük. Beləncik əsrarəngiz ölkədir.

Mövzumuza o qədər dəxli yoxdur, ancaq ağlıma gəlib, yazıram, əcəb eləyirəm. Demək, iki-üç gün qabaq İstanbulda bir irlandiyalı turistlə camaat dalaşıb, turist boksçu çıxıb, vurub xeyli adamı bir-birinə. Özünün də qolu sınıb. Mən həmin davaya internetdə baxanda fikirləşmişdim bu irlandiyalılara əcəb olur, "Uliss" əsərini yazıb dünyanın başını xarab edən millət elə döyülsə yaxşıdır. Dünən mən bu turistin intervüsünə baxdım, məlum oldu bu qardaş heç əsl irlandiyalı deyil, ərəb əsilli biridir. Hətta Küveytdə dünyaya gəlibmiş. Dərhal yadıma bizim cəbrayıllı turist, Avropa Oyunlarının yaraşığına çevrilmiş Ceyms Bonar Cocuqmərcanlı düşdü. Görəsən, niyə belə olur? Bəlkə bir millət iki dövlət olmağımız üzündəndir?

Gərək millət öz tarixini unutmasın, yoxsa təkrar yaşayır. Bunun birini təzə kəşf eləmişəm. Biz orduda baş verənlər, cəbhə xətti haqda demək olar məlumatsızıq. Xüsusən keçən ilin yayından bəri Zakir müəllimin idarəsi Prezident Administrasiyası ilə birgə bu sahəyə blok qoymuşdur. Nə xəbər versələr, gərək ona inanaq. Misal üçün, desələr İrəvanı almışıq, inanmağa məcburuq. Desələr axırıncı erməninin də vurduq, yenə inanmalıyıq. Ta kiminsə bu xəbərləri yoxlamağa ixtiyarı, imkanı yoxdur. Millətin öz ordusundan bu cür xəbərsizliyinin örnəyi sizcə hansı kitabda var? "Kitabi-Dədə Qorqud" dastanında! Orda "Salur Qazanın evinin yağmalanması boyu" hissəsində kafirlər gəlir Qazanın evini-eşiyini talayıb aparır, bu isə sudan, köpəkdən, qurddan öz ordusunu soruşur. Gəlin qurddan soruşduğu yeri oxuyaq:

*"Qaranqu axşam olanda vaf-vaf hürən,*
*Acı ayran töküləndə çap-çap içən,*
*Gecə gələn xırsızları qorxudan, ....*
*... Ordumun xəbərini bilirmisən, degil mana,*
*Qara başım sağlığında eyiliklər edəm, köpək, sana.*
*Qaranqu axşam olanda günü doğan,*
*Qar ilə yağmur yağanda ər kimi duran, ...*
*... Ordumun xəbərini bilirmisin, degil mana,*
*Qara başım qurban olsun, qurdum, sana".*

Yeni öz silahlı qüvvələri üzərində monitorinq aparmağı itə-qurda həvalə eləmək bu xalqın adətidir. A kişi, sən özün necə sərkərdəsən? Qurd cəhənnəm, bunun totemi-zadı var, hesab edək qutsal heyvandır, adam da köpəkdən ordusunun yerini soruşar? Hələ sudan... Bəlkə su gəlmədi, Bakıda Zığda yaşadın - ordunu nədən soruşacaqsan?

---

# Brüsseldən Bakıya mesaj - Moskva qəzəblənəcək...

## NATO-nun Gürcüstanda açılan təlim mərkəzi Azərbaycan ordusunun da gücləndirilməsinə kömək edəcək; Putinin bölgədə Qərbə atdığı "əlcəyi" Qərb, nəhayət, götürdü...

**NATO-nun baş katibi Yens Stoltenberqin Gürcüstana böyük əhəmiyyət verilən səfəri baş tutdu. Gözlənildiyi kimi, iki günlük səfər çərçivəsində baş katib Gürcüstanın siyasi-hərbi rəhbərliyinə daxil olan şəxslərlə, NATO-nun çevik qüvvələri üçün hazırlanan rotanın zabit və əsgər heyəti ilə görüşdü, ən önəmlisi, qonşu ölkədə alyansın ortaq təlim mərkəzinin açılmasında iştirak elədi. Səfər zamanı həmçinin Gürcüstanın NATO-ya üzvlük perspektivi və regional təhlükəsizlik məsələləri müzakirə olundu.**

Stoltenberqin Tiflis ziyarəti, şübhəsiz, bir neçə mühüm aspektdən və onların mümkün nəticələri baxımından diqqət çəkir. Əvvəla, bu, NATO rəhbərinin Gürcüstana, deməli, həm də strateji əhəmiyyətli Cənubi Qafqaz bölgəsinə SSRİ dağılandan sonra ilk dəfə olaraq alyansın təlim mərkəzi açıldı ki, bu da alyansın Rusiya sərhədlərinə doğru irəliləmək niyyətinin ciddiliyini nümayiş etdirdi - hansı məsələ ki, Kremli daim bərk qıcıqlandırıb və narahat edib.

Alyans baş katibinin səfəri, üstəlik, Rusiya-Qərb (NATO) münasibətlərinin kifayət qədər gərgin, hətta bir sıra analitiklərə görə, müharibə qoxusu verən qarşılıqlı münasibətləri dövrünə təsadüf edirdi. Sirr deyil ki, Moskva bu səfərin baş tutmaması üçün əlindən gələni etdi, bir sıra önləyici, təhdid xarakterli addımlara getdi, Abxaziya və Cənubi Osetiyada, Ermənistanda özünün hərbi mövcudluğunu artırmaqla yanaşı, seriya hərbi təlimlər keçirdi və keçirməkdə davam edir, Bakı-Supsa neft kəmərinin bir hissəsini ələ keçirdi, hazırda isə birtərəfli qaydada Abxaziya dəmiryolunu təmir edib işə salacağı ilə Tiflisi şantaj eləməkdədir.

Kremlin son "preventiv" addımları Rusiya prezidenti Vladimir Putinin 2013-cü ilin dekabrında Ermənistana səfəri zamanı Rusiya bazasının yerləşdiyi Gümrüdən *(Putinin Ermənistan səfəri məhz bu şəhərdən başlamışdı!)* verdiyi bir bəyanatı yada salır. Putin demişdi ki, "Rusiya Güney Qafqazda həmişəlik qalacaq".



Belə bir bəyanat sözsüz ki, öncəliklə ABŞ-a, NATO-ya ünvanlanmışdı və Qərbə faktiki "əlçək atmaq" mənasına gəlirdi. Artıq həmin əlcək NATO tərəfindən götürülmüş sayıla bilər. Hər halda, əksər siyasi müşahidəçilər o qənaətdədir ki, Gürcüstanda təlim mərkəzinin açılışı ilə Şimali Atlantika bloku da Cənubi Qafqazda "həmişəlik qalmaq" əzmini nümayiş etdirib.

***

Beləliklə, NATO öz sərhədlərini bir az da Rusiyaya tərəf sürüşdürmüş oldu, ona daha da yaxınlaşdı və indi daha böyük coğrafiyada Rusiya ilə qonşu-həmsərhəddir faktiki. Aydındır ki, bu proses Moskvanın qətiyyən ürəyincə deyil. Çünki Rusiya yaxşı fərqindədir ki, blok bölgənin "Qərb qapısı" sayılan Gürcüstanın ardınca qonşu Azərbaycanda möhkəmlənməyə can atacaq və Ermənistana da "qarmaq atacaq". Bunun təzahürləri də artıq ortadadır.

**Məsələn, salamnews-un yeni açılacaq NATO-Gürcüstan birgə mərkəzinin Azərbaycanla hansı istiqamətdə əməkdaşlıq edəcəyi barədə sualına alyansın mətbuat xidmətindən belə cavab verilib. Sitat:** "Biz Gürcüstanla birgə sözügedən mərkəzin Gürcüstana, müttəfiq ölkələrə və digər həmkarlara necə fayda verməsini müəyyən etmək üçün birgə işləyirik. Mərkəz tam istismara verildikdən sonra orada müttəfiq ölkələrin və Azərbaycan kimi NATO-ya tərəfdaş ölkələrin ordularının Gürcüstan ordusu ilə birgə hazırlanmasına kömək edəcək".

Ayrı sözlə, Brüssel Azərbaycanın Silahlı Qüvvələrinin də Türkiyə və Gürcüstan kimi alyansın standartları əsasında formalaşmasını istədiyini gizlətmir. Bu isə ən yaxın perspektiv üçün həm də Rusiyanın Azərbaycan kimi mühüm silah alıcısını itirməsi anlamına gəlir. Yəni Kremlə geostrateji itkilərlə yanaşı, sanksiyalardan və rublun devalvasiyasından əziyyət çəkən onun kasad büdcəsinə maddi itkilər də vəd olunur.

Bu yerdə bir daha xatırladaq ki, cari ilin əvvəlində ABŞ Senatının qəbul elədiyi sənədlə Gürcüstan, Ukrayna və Moldova ABŞ-ın NATO-dan kənar hərbi müttəfiqləri elan edilib. Bundan əlavə, sənədə əsasən, Azərbaycan da öz təhlükəsizliyini təmin etmək üçün Amerikaya hərbi kömək üçün müraciət edə bilər *(Ermənistana belə bir şans tanınmayıb).*

Regionumuza, onu təzədən şəkilləndirməyə yönəlik belə çoxşaxəli, strateji əhəmiyyətli fəaliyyət planı böyük ehtimalla, ən əvvəl NATO-nun regiondakı əsas ötürücü dövləti və müttəfiqi Türkiyənin köməyi ilə irəli aparılacaq. Zatən, proses neçə gedir də - artıq müdafiə nazirləri səviyyəsində Bakı-Ankara-Tiflis hərbi əməkdaşlıq formatı mövcuddur, ortaq hərbi təlimlər *(xüsusən də Azərbaycanla)* həyata keçirilir və s.

***

Ötən sayımızda vurğuladığımız kimi, son günlər Qərb üçün strateji önəm daşıyan qaz kəmərlərində *(Bakı-Tiflis-Ərzurum)* intensivləşən, Kremlin də barmağının olduğu istisna edilməyən partlayışlar *(Rusiya belə partlayışlarda "Türk axını"na rəqib sayılan "Transxəzər" qaz kəmərlərinin əngəllənməsi baxımından maraqlıdır)* Qərbin əsas hərbi-siyasi qurumu kimi NATO-nun bölgəyə daha yaxın məsafədə qərar tutmasını labüd edir.

Bu yöndə siqnallar gəlməyə başlayıb. Qalır indi NATO timsalında Qərbin yeni mesaj-siqnallarına şimal qonşumuzun hansı reaksiyanı verməsi.

**❑ Siyasət şöbəsi**

---

# ABŞ-ın analitik mərkəzi ölkəmizi niyə 126-cı yerə qoyub?

## "İnsan azadlığı indeksi" üzrə ölkələrin yeni siyahısı açıqlanıb

**Vaşinqtondakı "İnsan azadlığı indeksi" üzrə "Cato institute" analitik mərkəzi ölkələrin yeni siyahısını açıqlayıb. Musavat.com xarici KİV-ə istinadən verdiyi xəbərə görə, Azərbaycan 6.09 balla 152 ölkə arasında 126-cı yerə layiq bilinib. Qonşu ölkələrdən Gürcüstan 7.50 balla 48, Ermənistan 7.44 balla 53-cü, Türkiyə 7.10 balla 62-ci, Rusiya 6.36 balla 111-ci, İran isə 4.48 balla sonuncu-152-ci yerdə qərar tutub.**

Siyahıya Honkonq (9.04) başçılıq edir. Onun ardınca İsveçrə (8.80) və Finlandiya (8.63) gəlir. Birinci iyirmiliyi 8.26 balla ABŞ qapadır.

"İnsan azadlığı indeksi"nin müəyyən edilməsi üçün şəxsi və iqtisadi azadlıqların 76 meyarı əsas götürülüb. 10 bal maksimal azadlığı ehtiva edir.

Göründüyü kimi, Vaşinqtondakı "İnsan azadlığı indeksi" üzrə "Cato institute" analitik mərkəzi müəyyən etdiyi siyahıda Cənubi Qafqazın 3 ölkəsi sırasında axırıncı yeri tuturuq.

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu bildirdi ki, Azərbaycanda istənilən sahədə durumu təhlil etdikdə məlum olacaq ki, "Cato institute" analitik mərkəzinin Azərbaycanı 126-cı yerə layiq görməsi reallığı göstərir:** "Azərbaycandakı vəziyyəti biz də çox yaxşı görürük. Ona görə də əlimizdə elə bir arqument yoxdur ki, həmin Amerika təşkilatına vəziyyətin yaxşı olduğunu sübuta yetirək. Elə bu gün rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov bəyan edib ki, bütün sosial şəbəkələrin administrasiyası ilə danışıqlar aparılır ki, sosial şəbəkələrin də fəaliyyəti hökumət tərəfindən tənzimlənsin. Bu, əslində o deməkdir ki, sosial şəbəkələrə ciddi nəzarət, məhdudiyyət tətbiq olunacaq. Belə bir vəziyyətin olduğu ölkə azadlıqların vəziyyəti indeksinə görə, əlbəttə, 126-cı və daha pis yerlərdə qərarlaşacaq. Dünyada çox az ölkə var ki, sosial şəbəkələrə qadağalar qoyub və hökumət nəzarət edir. Həmin ölkələr İran, Sudan, Çili, Rusiya, Səudiyyə Ərəbistanıdır. İndi belə çıxır ki, artıq Azərbaycan da bu siyahıya qoşulur. "Cato" İnstitutunu mən çox yaxşı tanıyıram. Orada çalışan insanları da yaxşı tanıyıram. Onlar ABŞ-ın bugünkü hakimiyyətinə müxalif mövqedədirlər. İnstitutun rəhbəri Tom Pagmer özü dəfələrlə Azərbaycanda olub. Ölkəmizi çox gözəl bilir. Mən düşünmürəm ki, onlar Ağ Evdən və ya Dövlət Departamentindən sifariş yerinə yetirsinlər".

**❑ E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 189 (6217) 28 avqust 2015

# Abbas Abbasovun oğlu sükutu pozdu

**Son günlər baş nazirin keçmiş birinci müavini Abbas Abbasovun adı ətrafında növbəti qalmaqallı söhbətlər dolaşır. Belə ki, Rusiyanın Ulyanovsk şəhərində diaspora rəhbəri İslam Hüseynovun ofisinə "OMON" tərəfindən basqında A.Abbasovun adı hallandırılır.**

Ulyanovskda hadisənin şahidi olan Azərbaycan Konqresinin üzvləri bu məsələdə son vaxtlar İslam Hüseynovun mütəmadi olaraq sərt tənqid etdiyi Abbas Abbasovun əli olduğunu da iddia edirlər.

Konqresin üzvü, İ.Hüseynovun köməkçilərindən Həsrət Həsənov APA-ya bildirib ki, xüsusilə son yarım ildə A.Abbasovun Azərbaycan dövlətinə qarşı atdığı addımlara görə İ.Hüseynovun onu sərt tənqid etməsi diaspor rəhbərinin hədəfə götürülməsi ilə nəticələnib: "Abbas Abbasov bura gəlib, məlum fəaliyyətə başlayandan sonra kim ona etiraz edirsə, həmin adamın ya biznesinə, ya da həyatına ciddi təhlükə yaranmağa başlayır. İslam müəllim uzun zamandır burada yaşayır və federasiya üzrə böyük hörməti var. Onun burada düşməni yox, yalnız dostları var. Amma Abbas Abbasovu sərt tənqid etdikdən bəri ona qarşı təzyiqlər başlayıb. Xüsusilə ona qarşı sui-qəsdin araşdırılmasında Abbas Abbasovun adamları hər vasitə ilə yerli istintaq məmurlarına təsir edir. Burada prokurorluqdan bir icazə kağızı alıb, "OMON"un hansısa ünvana basqınına şərait yaratmaq asan işdir. Onlar da bundan istifadə edirlər ki, bizləri qorxutsunlar".



## Aydın Abbasov: "Mənə nə qadağa qoyula bilər ki?"

Məsələ ilə bağlı A.Abbasovun deputat oğlu Aydın Abbasova telefon açdıq. Lakin A.Abbasov bundan əvvəlki kimi atası barədə iddiaları cavablandırmaq fikrində olmadığını deməklə kifayətləndi və xahiş etdi ki, mətbuat bu kimi məsələlərlə bağlı onu narahat etməsin. Digər suallarımızı cavablandırmağa hazır olan deputatdan növbəti seçkilərlə bağlı suallarımıza cavab istədik.

*- Aydın bəy, parlament seçkilərində iştirakınız, hansı dairədən qatılacağınız barədə qərar vermisinizmi?*

- İnşallah, seçki ilə bağlı qərar verilsin, ondan sonra barədə danışarıq.

*- Yəni prezident sərəncamını gözləyirsiniz?*

- Bəli.

*- Adətən hakim partiya güzəştə getdiyi şəxslərə alternativ olaraq eyni dairədən vazkeçilməz rəqib göndərmir. Bu mənada YAP-ın münasibəti sizə bəllidirmi?*

- Mən ilk dəfədir bunu sizdən eşidirəm.

*- Seçki ilə bağlı qərar versəniz öz dairənizi seçəcəksiniz, yoxsa...*

- Çox güman ki. İnşallah seçkiyə start verilsin, ondan sonra qərar verərik.

*- AŞ PA-dan gələn nümayəndə heyətinin parlamentdə qarşılanması zamanı siz də Azərbaycan nümayəndə heyətinin üzvü kimi iştirak edirdiniz.*

- Bəli.

*- Bəzən mətbuat yazılarında iddia olunur ki, sizə qarşı qadağalar var, fəaliyyətiniz məhdudlaşdırılıb, yaxud atanıza görə sizə təzyiqlər var...*

- Deyilənlərlə konkret məsələlər üst-üstə düşmür. Mən Avropa Şurası nümayəndə heyətinin üzvüyəm, mənə nə qadağa qoyula bilər ki?

*- Seçkilərə qatılası olsanız namizədliyinizi fərdi qaydada irəli sürəcəksiniz?*

- Mənim namizədliyim iki çağırışda təşəbbüs qrupu tərəfindən irəli sürülüb. İnşallah, seçicilərim lazım bilərlərsə, yenə də mənim namizədliyimi irəli sürərlər. Amma bu məsələ ilə bağlı heç bir təşəbbüs yoxdur. Təşəbbüs qrupu yaranarsa, seçicilərim mənim deputat seçilməyimi istəyərlərsə, Allahın köməkliyi ilə bu, belə olar. Olmazsa da, bizdən daha layiqli, daha gənc, təcrübəli insanlar seçilə bilər, bu, problem deyil ki...

❑ E.PAŞASOY



# Şeyxin deputat qudası: "Adım siyahıda olmasa..."

## Qalib Salahzadə seçkilərdə iştirak etməyə bilər

**Parlament seçkiləri yaxınlaşdıqca bəzi parlamentarilərin seçkilərə qatılmayacağı, seçki marafonunda iştirak etməyəcəyi ilə bağlı informasiyalar yayılır.**

Aktual.az-a daxil olan məlumata görə, 27 saylı II Sabunçu seçki dairəsindən Milli Məclisin deputatı, bütün Qafqazın şeyxi Hacı Allahşükür Paşazadənin qudası Qalib Salahzadə də seçkilərdə iştirak etməyəcək.

Aktual.az məsələyə Qalib Salahzadənin özündən münasibət öyrənib.

**Portala açıqlamasında Hacı Qalib bildirib ki, seçkilərdə iştirakla bağlı qərarı özündən asılı deyil:**

"Mən ötən seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi olaraq seçkilərdə qalib gəlmişəm. Bu seçkilərdə isə hələ ki YAP namizədlər siyahısını açıqlamayıb. Əgər YAP siyahı açıqlayandan sonra mənim adım orda olsa, seçkilərdə iştirak edəcəm. Yox, əgər adım siyahıda olmasa, seçkilərə qatılmayacam. Bir sözlə, yekun sözü partiya deyəcək. Mənə yaraşmaz ki, partiyanın iradəsindən kənara çıxım".

# Diplomatların parlament seçkilərinə xüsusi diqqətinin sirri

## ABŞ və Avropa İttifaqı ölkələri Azərbaycanda seçkilərin mümkün qədər demokratik və sakit keçməsini istəyirlər

**Parlament seçkiləri yaxınlaşdıqca Azərbaycanda fəaliyyət göstərən xarici diplomatik korpusun, bəzi beynəlxalq təşkilatların təmsilçilərinin müxalifət partiyaları ilə təmasları, müzakirələri intensivləşir. Paralel olaraq hakim Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə də görüşlər başlayıb. ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta avqustun 26-da YAP rəhbərliyi ilə görüşüb. Görüşdə Robert Sekuta bildirib ki, noyabrda azad və şəffaf seçkilərin keçirilməsi Azərbaycanın demokratik inkişafında müsbətə doğru addım kimi qiymətləndiriləcək. Bu barədə ABŞ-ın Azərbaycandakı səfirliyinin twitter səhifəsində yayılan məlumatda deyilir. Sekutanın YAP rəhbərliyi ilə daha bir görüşünün də olacağı qeyd edilib.**

ABŞ səfirliyinin, Böyük Britaniya səfirliyinin və Avropa İttifaqının təmsilçiliyinin nədən Azərbaycanda keçiriləcək seçkilərə indidən xüsusi diqqət ayırdığı maraq doğurmaya bilməz.

**Bu barədə danışan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bildirdi ki, Azərbaycanın regional əhəmiyyəti artır və bölgədə geosiyasi vəziyyət getdikcə gərginləşir. Ona görə də Qərb dövlətləri Azərbaycanda sabitliyin olmasında maraqlıdırlar. Düşünürlər ki, sabitlik məhz seçkilər zamanı pozula bilər və bunun baş verməməsi üçün indidən addımlar atılır. ABŞ və Avropa İttifaqı ölkələri Azərbaycanda seçkilərin mümkün qədər demokratik və sakit keçməsini istəyirlər. Bilirlər ki, demokratik keçməyən seçkilər sabitliyin pozulmasına səbəb ola bilir: "Həm hakimiyyət partiyası ilə, həm də müxalifətlə görüşlər məhz bununla bağlıdır. ABŞ səfirinin öncə YAP-la görüşməsi və növbəti görüşün də keçiriləcəyinin nəzərdə tutulması düzgün addımdır. Çünki adətən ABŞ səfiri müxalifət liderləri ilə görüşlər keçirəndə və YAP-la görüşməyəndə hakimiyyət düşərgəsindən çox qısqanc, narazı açıqlamalar verilir. Ona görə də ABŞ səfiri görüşlərə YAP-dan başlayıb. Böyük Britaniya səfiri də görüşlərə başlayıb. Ona görə bu iki dövlətin səfirləri fəallaşıblar ki, məhz bu iki dövlət Azərbaycanda sabitlikdə və demokratik inkişafda maraqlıdır. Hər iki dövlətin Azərbaycanda böyük kapitalı var. Onlar üçün Azərbaycanda sabitlik və inkişaf həm də buna görə vacibdir. ABŞ və Böyük Britaniya çalışır ki, seçkilər təlatümlü keçməsin və seçkidən sonra təlatümlər yaşanmasın. Onlar müxalifət partiyalarının seçkilərdə iştirakını və qələbə qazanan müxalifətçilərin qələbəsinin tanınmasını istəyirlər ki, seçkilər təlatümlərə yol açmasın. Mən düşünürəm ki, bu məsələ də müzakirə predmetidir. Tərəfləri inandırmağa çalışırlar ki, mümkün qədər seçkilər demokratik və ədalətli keçirilsin və seçkidən sonra təlatümlər olmasın".



**E.Şahinoğlu qeyd etdi ki, indiki geosiyasi şəraitdə və Azərbaycanın iqtisadi, sosial durumunun ağırlaşdığı dövrdə təlatümlər daha ağır nəticələr verə bilər:** "Ona görə də mən inanmaq istərdim ki, hakimiyyət seçkinin demokratik keçirilməsini təmin edəcək. Prezidentin seçkilərin ədalətli keçirilməsi barədə təlimat verdiyi barədə rəsmi açıqlama verildi. Görünür, hakimiyyətdə də anlayırlar ki, belə bir dönəmdə seçkilərdən narazılıqlar çox ciddi nəticələrə gətirib çıxara bilər. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan elə bir mürəkkəb regionda yerləşir ki, o hadisələrdən başqa dövlətlər öz məqsədləri üçün istifadə edə bilər. Qərb ölkələri bunun baş verməməsini istəyirlər. Hakimiyyətdən də çox asılıdır. Hakimiyyət seçkilərin mümkün qədər demokratik keçirilməsinə çalışmalıdır və Qərb diplomatlarının təkliflərinə diqqətlə yanaşılmalıdır. Bilmək lazımdır ki, artıq 2003 və 2005-ci illər deyil. Daha ağır bir dönəmdir".

Ekspertin fikrincə, hakimiyyət və müxalifətlə diplomatik korpusun görüşləri getdikcə artacaq. Ola bilsin ki, ABŞ və Britaniyanın səfirlərinə başqa ölkələrin də səfirləri qoşulacaqlar.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 189 (6217) 28 avqust 2015

# “Quyuya düşmüşük - lap Məlikməmməd kimi”

**Hikmət Hacızadə:** “Hər kəs anlamalıdır ki, müsbət dəyişiklikləri hansısa başqa, mücərrəd qüvvə yox, o özü yaratmalıdır, bunun üçün addım atmalıdır”



**Politoloq, əbədi demokrat və müsavatçı Hikmət Hacızadənin Nardarandakı bağını minlərlə bağın içində “əlimizlə qoymuş” kimi tapdıq. Böyük və mistik çıxmasın, görünür, demokratlar bir-birini maqnit kimi çəkir. Ləşin lap qutaracağında dəmyə torpaqdakı bağın qapısında bizi ev yiyəsi qarşılayır:**

- Xoş gəlmisiz, necəsiz?

***- Xoş gördük, yaxşıyıq, siz necəsiz?***

- Belə.

***- Hikmət bəy, maşallah nə rahat bağınız var. Əsl Bakı bağı - xudmani. Burda bir deputatın bağının yanından keçdik, bir an elə bildim “indiyski” kinoya düşmüşəm.***

- “İndiyski” adamların bağı da “indiyski” olur. Biz sadə adamlarıq. Bu gün bir az çətinliyə düşmüşük - quyumuzun motoru xarab olub, usta səhərdən əlləşir, görək neynəyə biləcək.

***- Day deyin, demokratiyanın bulağı quruyub da..***

- Darıxmayın, yenə açılacaq.

***- Necə gedir Müsavatdan sonrakı həyat?***

- Həmin qaydada. Heç nə dəyişməyib. Mən həmin fəaliyyətimi davam etdirirəm, işləyirəm, düşünürəm, dostlarımla görüşürəm, müzakirələr aparırıq. Əsəblərim də bir az sakitləşib. Bizim yaşımızda əsəb çox lazımlıdır.

***- Kimlərlə müzakirə aparırsız?***

- Mənim dostlarım çoxdur. Ümumiyyətlə, mən çox dostcanlıyam. Orta məktəbdən Müsavat Partiyasına qədər çoxlu dostlarım var. Elə kiminlə münasibətim vardısa, hamısı ilə o münasibətlər davam edir. Yığışırıq, danışırıq, araşdırmalar aparırıq.

***- Nə nəticələrə gəlirsiz? İndiki böhranlı durumdan çıxış yolu tapa bilirsiz?***

- Vəziyyət acınacaqlıdır. Cəmiyyət hansısa bir quyuya düşüb. Lap Məlikməmməd kimi... gedib-gedib və gözünü açıb ki, qara bir quyunun içindədi. Axırı nə olacaq bilmirəm, ancaq indi durum yaxşı deyil. Cəmiyyətin müqavimət gücünü qırıblar. Üstəlik, qavramaq qabiliyyətini də məhv ediblər. İnsanlar nə baş verdiyini sanki başa düşmür. Cəmiyyəti bir orqanizm kimi təsəvvür etsək, elə bilin ayaq çürüyür, ancaq insan beyni bunu dərk eləmir. Uzaq tarixlə yox, 6 ay öncə ilə müqayisə aparanda belə görünür ki, böhran dərinləşir. Cəmiyyət tamamilə müdafiəsiz vəziyyətə düşüb. Neftin qiymətlərinin düşməsi ilə Azərbaycan çox çətin iqtisadi dönəmə gəlib çıxıb, ölkə isə müdafiəsizdir. Neftdən başqa bu ölkədə heç nə yoxdur - bir güclü zavod qura bilməmişik. Süd-qatıq-ayran zavodundan söhbət getmir. Bunları istehsal edirik, çox yaxşı. Mən dünya bazarına rəqabətə davamlı məhsul çıxaracaq zavodlardan danışıram. Əmək vərdişləri itir. Azərbaycanın kənd təsərrüfatı potensialı yüksəkdir. Ancaq kənd uşaqları hamısı Bakıda veyillənir. Çünki kənd təsərrüfatı ilə məşğul olmağa şərait yoxdur, Bakıda isə tikintidə-filanda günəmuzd iş tapmaq olar. Çətinliklər həddən artıq çoxdur.

***- İqtisadçılar da, elə siyasətçilər də illərdir deyir ki, islahatlar aparılmalıdır. Sürətlə böhrana yaxınlaşdığımız dönəmdə islahatların müsbət nəticə verəcəyinə inanırsınız? Biz, deyəsən, həddən çox vaxt itirdik...***

- İslahatlara təcili başlamaq lazımdır. 20 ildir heç bir iş görülməyib. Yəqin bu sözü oxuyan opponentlər deyəcək ki, yollar çəkilib, körpülər tikilib. Birdəfəlik başa düşmək lazımdır, körpü gəlir gətirmir. Hökumət neft pullarının ölkəyə axdığı illərdə gəlir gətirən biznes mühiti yaratmalı idi. Hələlik Azərbaycanın müəyyən ehtiyatları var. Düzgün istifadə etməklə, qənaət rejiminə keçməklə böhranın qarşısını almaq, onu daha az ziyanlı etmək olar. Mərmər döşəmələrə ehtiyac yoxdur. Dünyanın çox ölkəsinə getmişəm. Heç Dubay əmirlərinin də tikdirdiyi yeraltı keçidlər mərmərdən deyil. Mənasız bayramlar, festivallar, olimpiadalar, fişənglər indi bizə lazım deyil. Bunlardan imtina olunmalıdır, bildirilməlidir ki, indi ölkənin buna gücü çatmır. Ən əsası da ölkədə rəqabətli məkan yaratmaq lazımdır - həm iqtisadiyyatda, həm də siyasətdə.




**“Bu gün insanlar niyə seçkiyə gedir, bu, mənə aydın deyil. Niyə dəridən-qabıqdan çıxır, ordan-burdan borc-xərc tapıb kampaniyaya xərcləyirlər, bunu anlamıram. Axı seçki olmayacaq”**

***- Noyabrın 1-nə parlament seçkisi təyin olunub. Çoxları düşünür ki, bu da formal seçkilərdən biri olacaq. Siz hansı kəsimin tərəfdarısız - boykot eləyənlərin, yoxsa şərtlər çətin olsa da, seçkiyə gedənlərin?***

- Şəxsən mən seçkiyə getməyəcəm. Bundan əvvəlki parlament seçkisinə də getməmişdim. 2005-ci il parlament seçkisində iştirak etmişdim. Həm də Şəkidən namizəd idim. Onda da bilirdim ki, heç nə alınmayacaq. Ancaq getdim atamın, babamın doğulduğu torpaqları - İncə kəndini gəzdim, insanlarla ünsiyyət qurdum. Seçkidən mənə qalan da elə bu gəzmək oldu - formal bir səsvemə ilə məni qutuda qoydular. Bu gün insanlar niyə seçkiyə gedir, bu, mənə aydın deyil. Niyə dəridən-qabıqdan çıxır, ordan-burdan borc-xərc tapıb kampaniyaya xərcləyir, bunu anlamıram. Axı seçki olmayacaq. Ən güclü, ən şanslı namizədin seçkiyə qatıldığı dairədən YAP namizəd versə, qutudan YAP-çı çıxacaq. İkinci variant: əgər kimsə macəra axtarırsa, bu başqa məsələ. Mən daha bu oyunu oynamıram.

***- Demokratik dəyişikliklərin seçkidən başqa yolu var?***

- Hələlik biz maarifləndirmə ilə məşğul olsaq, yaxşıdır. Mən şəxsən bununla məşğulam. Çünki başqa açıq ictimai fəaliyyət üçün imkan yoxdur. Açıq ictimai fəallıq qısa zamanda həbslə cəzalandırılır. Birinci dəfə 20 sutka, ikinci dəfə 2 il, üçüncü dəfə 7 il. Biz Brejnev dövrünə qayıtmışıq. İndi Azərbaycanda yalnız mənəvi mübarizə mümkündür. Kimsə həvəslə türməyə getmək istəyirsə, Allah köməyi olsun.

***- Varmı belələri?***

- Niyə yoxdu? Gənclər. Mən belə başa düşürəm, onların çoxu türməyə düşmək istəyirlər.

***- Niyə? Onlar “bayıra” qəhrəman kimi çıxmaq istəyirlər, yoxsa cəmiyyəti hərəkətə gətirməyin başqa yolunu görmürlər, hesab edirlər ki, cəmiyyət günahsız gəncliyin həbsinə etiraz edəcək, sonucda ayağa qalxacaq?***

- Hər ikisi var. Mən bu cəhdlərin hamısını qəbul edirəm. Əgər kimsə indiki durumda hərəkət edirsə, səsini çıxarırsa, qəhrəmandır.

**“Mən belə başa düşürəm, gənclərin çoxu türməyə düşmək istəyir”**

***- Hər seçki dönəmində cəmiyyət siyasi məhbus məsələsində yumşalma olacağını gözləyir. İçəridə səhhəti ilə bağlı problemlər olan məhbuslar var. Sonuncu dəfə Rauf Mirqədirovun səhhətinin ağırlaşması xəbəri gəlib. Sizcə, bu seçkidə azadlığa çıxanlar olacaq?***

- Hansısa amnistiya, əfv gözləyirəm. Siyasi məhbusların azad edilməsini Azərbaycan hakimiyyətindən bütün dünya tələb edir. Bizdən də pis durumda olan Belorusda cəmi 6 siyasi məhbus vardı, Lukoşenko hamısını azad etdi. Azərbaycanın siyasi məhbus siyahısında 100 nəfər var. Kimə nə göstərmək istəyirik? Mən bu qəddarlığın mənasını başa düşə bilmirəm. Məncə, Heydər Əliyev bunu eləməzdi. Mən onun müdafiəçisi deyiləm, ancaq düşünürəm ki, o, belə eləməzdi. Bu qədər günahsız siyasi fəal şəxsləri uzun müddət həbsxanada saxlamaq tarixi biabırçılıq olacaq.

***- Siz digər siyasi liderlərə baxanda hər zaman gənclik üçün daha çatımlı, maraqlı olmusuz. Bayaq dediz, gənclik həbsxanaya düşməyə meyllidir. İndiki fəal gənclər haqqında nə düşünürsünüz? Onlar ən azı durumu dəqiq qiymətləndirə bilirlər?***

- Dediklərinizi kompliment kimi qəbul edirəm və təşəkkürümü bildirirəm. Mən gəncləri sevirəm, çünki özüm də gencəm. Mən onların yaxşı başa düşürəm. Kim hərəkətdədi, hərəkatdadı, mən hamısını dəstəkləyirəm, əlimdən gələn dəstəyi də əsirgəmirəm. Amma hərdən elə fikirləşirəm ki, gəncliyin böyük hissəsi nə baş verdiyini sona qədər dərk etmir. Vəziyyətin ağırlığını nəzərdə tuturam. Onların fikri 90-cı illərin ortalarına gedir bəzən. Ancaq indi şərtlər daha ağırdır. Durumu düzgün dəyərləndirmədikləri üçün də itkiləri böyükdü. Bunları onlara deyirəm, çatdırmağa çalışıram, ancaq gənclik adətən belə tənqidləri qəbul eləmir.

**“Əgər kimsə indiki durumda hərəkət edirsə, səsini çıxarırsa, qəhrəmandır”**

***- Siz gəncliyin ölkəni dəyişənə qədər mübarizəyə tab gətirəcəyinə inanırsız?***

- İnanıram. Sınan da olacaq, dönən də olacaq. Ancaq axıra qədər gedənlər də olacaq. Mən “axıra qədər getmək” deyəndə kiminsə 13-cü kalona düşməsini nəzərdə tutmuram. İnsan ömrünün axırına qədər öz ideyası uğrunda vuruşmalıdır, usanmamalıdır, sözünü deməlidir. Mənim məsləhətim odur. Lüzumsuz əziyyətlərə, açıq sinə ilə bıçaq üstünə getməyə ehtiyac yoxdur. Özünü qorumaq, şəraitə uyğun hərəkət etmək, ən əsası da, savadlanmaq lazımdır.

***- Yeri gəldi, soruşum, indi nə oxuyursuz?***

- Çox qəliz bir kitaba başlamışam. Con Konelli adlı amerikalı siyasi elmlər professorunun “Makrotarix” əsərini oxuyuram. Lap yaxın zamanlarda ruscaya tərcümə edilib. O bu əsərində tarixi və sosiologiyanı birləşdirərək təhlillər aparıb. Konelli hesab edir ki, dəyişiklik təkcə xalqın etirazı ilə mümkün deyil. Bunun üçün idarəedən elitada narazılıqlar, böhran olmalıdır və, və ya parçalanmalıdır. Onlar özləri də dəyişikliklər istəməlidir. Meydanda təkcə xalq olanda yeniliklər olur, ancaq bu ciddi dəyişiklik yaratmır, çünki idarə edənlər yenidən öz mühitlərini bərpa edirlər. Əslində biz 1992-ci ildə bunu yaşadıq. Azərbaycanda böyük hərəkat yaranmışdı, digər tərəfdə isə ölkəni uzun illər idarə edən kommunist bürokratik elita vardı. Onlar bizi dəstəkləmədilər, vəziyyət dəyişən kimi çox böyük həvəslə bizə əks qüvvələrin tərəfinə keçdilər. Çünki o mühit onlara doğma idi. “Turan” İnformasiya Agentliyinin analitikləri hesablayıb, Azərbaycanda təxminən 5 min vəzifə var. Xalq Cəbhəsinin hakimiyyəti illərində onların cəmi 250-sini hərəkatçılar tuturdu, qalanları sovet dönəminin məmurları və sistem işçiləri idi. Bu şəxslər heç bir dəyişiklik istəməyən “brejnevqafalı” insanlar idi. Onlar demokratiyanın - özünü, idarəçiliyin nəyə gərək olduğunu sadəcə başa düşmürdülər. Bizə müqavimət göstərirdilər, ancaq bəlkə də bu heç şüurlu müqavimət də deyildi. Yeni vəziyyətdə başqa cür hərəkət eləmək lazım idi, onlar bunu bacarmırdılar. Ona görə də vəziyyət tezliklə dəyişdi, demokratik proses sürətlə tərs tərəfə inkişaf eləməyə başladı. Demokratiya prosesi sadə məsələ deyil. Uzun, israrla gedilən bir yoldu.

**“Sınan da olacaq, dönən də olacaq. Ancaq axıra qədər gedənlər də olacaq. Mən ”axıra qədər getmək" deyəndə kiminsə 13-cü kalona düşməsini nəzərdə tutmuram. İnsan ömrünün axırına qədər öz ideyası uğrunda vuruşmalıdır, usanmamalıdır, sözünü deməlidir"**

***- Sizin mübarizənizdən bu yana nə dəyişdi, nə olduğu kimi qaldı?***

- Bu gün bizim dövlətimiz var, bayrağımızı ucalda bildik. Bu, çox böyük uğurdur. Biz bunu etməyi bacardıq. Sovetlər Birliyi dönəmində biz kimik, bu millətin adı nədir, tarixdəki rolumuz nə olub - xalq bunları bilmirdi. Düşünün, xalq öz adını bilmir... İndi bu məsələ düzəlib və ya düzəlməkdədir. Üfüqlər genişləndi, sərhədlər açıldı, 70 ilin sükutundan sonra informasiya almağa başladıq, biz bildik ki, Məhəmməd Əmin Rəsulzadə kimdir, Əlimərdan Bəy Topçubaşov kimdir, Corc Vaşinqton kimdir. Bunlar qazancımızdır. Ancaq cəmiyyət azad deyil, normal rəqabətli, sivil düzən qura bilməmişik.

***- Xalqın passiv olması da vəziyyəti çətinləşdirir.***

- Çox. Amma bilirsiz, xalq məişət məsələlərində passiv deyil, xeyirdə-şərdə fəaldır. Toya çağırılan mütləq gedir, düşünür ki, o, dostluq, qohumluq borcunu yerinə yetirməlidir. Ancaq vətəndaş ola bilmir.

***- Bunu necə başa salmaq lazımdı?***

- Sistemli maarifləndirmə, təbliğatla. Bağçadan başlamaq lazımdı. İnsan həyatının 1/3-i yemək, yatmaq, 1/3-i işləməkdi. 1/3-i də düşünməyə, Vətən üçün, cəmiyyət üçün çalışmağa həsr olunmalıdır. Demokratik cəmiyyətlərdə bölgü belədir. Bizim sistemdə sonuncu 1/3 yoxdur. Nə edirsən et, təki düşünmə. Bizim insanımız hələ də cəmiyyət, çevrə deyəndə əmi, xalauşağı, dayı-bacıoğlu münasibətlərini düşünür.

***- Yəni bizim toplum hələ də qəbilə təfəkkürü ilə yaşayır...***

- Təxminən. Bunları dəyişmək üçün ciddi proqramlar lazımdır. Geniş proqramlar yazanda bu məsələni mütləq nəzərə alıram. Ölkənin demokratikləşdirilməsi proqramı hazırlayıb insanlara beşikdən ta sona qədər vətəndaş olmağı öyrətmək lazımdır. Vətəndaşın vəzifəsi, məsuliyyəti nədir, o nələr etməlidir, bu, hər kəsə tam aydın olmalıdır. Hər kəs anlamalıdır ki, müsbət dəyişiklikləri hansısa başqa, mücərrəd qüvvə yox, o özü yaratmalıdır, bunun üçün addım atmalıdır. Qərbdə istehsal olunan normal filmlərə baxın, hamısında demokratiya - azadlıq, ictimai məsuliyyət, həmrəylik mesajları var. Bunlar elə-belə deyil. Bu, güclü təbliğat maşınıdır. Qərbdə anlayırlar ki, yuxarıda 3-5 nəfər demokratın oturması ilə deyil, bütün cəmiyyət demokratik düşünə bilməsə, sistem işləməz.

*(Müsahibənin tam versiyasını www.musavat.com saytından oxuya bilərsiniz)*

❑ **Aygün MURADXANLI**

**Neftin sürətlə ucuzlaşması büdcəsi xeyli dərəcədə neftdən asılı olan Azərbaycanı da çətin vəziyyətlə üzləşdirib. Ekspertlərə görə, manatın dollara nisbətdə öz dəyərini növbəti dəfə itirmək təhlükəsi ilə qarşılaşması, qida məhsullarının bahalaşması, ölkədəki iqtisadi proseslərin əvvəlki kimi getmədiyinin göstəricisidir.**

**Bu arada AXCP sədri Əli Kərimli də apardığı kiçik təhlil əsasında Azərbaycanın çox ciddi sosial-iqtisadi böhrana girdiyini söyləyib.**

# Azərbaycanda iqtisadi böhran yetişir, yoxsa...

## Siyasi və iqtisadi ekspertlərin fikirləri fərqlənir

Bu barədə o, facebook-dakı statusunda yazıb. O, bu xüsusda yalnız son 4 iş günü ərzində Mərkəzi Bankın valyuta rezervlərinin 10 faizdən çoxunun (8 milyard 501 milyon 500 min dollardan 893 milyon dolları) xərcləməsinə diqqət yönəldib.

İqtidar nümayəndələri isə ölkədəki vəziyyəti, sadəcə, müvəqqəti iqtisadi gərginlik adlandıraraq, öz çıxışlarında "iqtisadi böhran" termini işlətməkdən yayınırlar. Bəs Azərbaycandakı iqtisadi durumun adı nədir?

Məsələ ilə bağlı musavat.com-a danışan **iqtisadi ekspert Natiq Cəfərli** bildirib ki, hazırda ölkə iqtisadiyyatı həqiqətən də böhran astanasındadır: "Böhranın astanasında olsaq da, bununla bağlı ciddi fəsadları növbəti aylarda görəcəyik. Çünki indiki situasiyanın arxasınca işsizliyin artması müşahidə olunacaq. Bununla da əhalinin sosial vəziyyəti ağırlaşacaq. Artıq bunun üçün zəmin var. Ölkədə tikintilər dayanır, kiçik və orta biznesin fəaliyyət dairəsi daralır. Eyni zamanda dövlət və hökumət orqanlarında ciddi ixtisarlar gözlənilir. 2016-cı il büdcəsinin müzakirələrində şahidi olacağıq ki, hökumət məcburən bəzi xərclərin kəskin şəkildə azaldılmasına gedəcək. Mənzil bazarında satışlar demək olar ki, dayanıb. Bu da tikinti sektoruna təsir göstərir. Avtomobil və mobil telefon bazarlarında da ötən illə müqayisədə xeyli azalmalar var. Hətta geyim mağazaları artıq bağlanır. Bütün bunlar isə onu deməyə əsas verir ki, biz böhranın astanasından içəri addım atmışıq. Ciddi fəsadları isə bir neçə ay sonra görəcəyik. Banklardakı problemləri də nəzərə alsaq, Azərbaycanda iqtisadi vəziyyətin böhranlı hal aldığını hiss edəcəyik".

**Musavat.com-a danışan digər iqtisadi ekspert Oqtay Haqverdiyev isə hesab edir ki, Azərbaycandakı vəziyyəti böhran adlandırmaq doğru deyil:** "Böhran Rusiyadadır. Özü də dərin böhrandır. Azərbaycanda böhrandır demək doğru olmaz. Əgər büdcəni və ya maliyyə bazarını götürsək, burada müəyyən problemlər var. Ancaq bunu böhran hesab etmək olmaz. Çünki Azərbaycanda inflyasiya aşağıdır. Eyni zamanda ümumi daxili məhsulda artım var. Makroiqtisadi göstəricilərin yüksək olduğu məqamda ölkədə böhran var söyləmək doğru olmaz".

❑ **Əli RAİS**



# "Bu ilin sonuna ehtiyatlar ən azı 5 milyard dollar azalacaq"

**"Neftin ucuzlaşmasının Azərbaycana təsirini birmənalı olaraq neqativ amil kimi qiymətləndirməyin tərəfdarı deyiləm. Bu tendensiyanın ölkəmizə həm də müsbət təsiri ola bilər".**

**İqtisadçı ekspert Qubad İbadoğlu** bu fikirləri "Yeni Müsavat"a açıqlamasında bildirdi. Onun sözlərinə görə, neft-qaz satışından gəlirlər azalır və bu da əlavə maliyyə qaynaqlarına çıxış üçün alternativ imkanlar axtarışı stimullaşdırır: "Təbii ki, çox şey iqtisadiyyatın necə idarə edilməsindən asılıdır. Əgər inzibati metodlarla iqtisadiyyatın tənzimlənməsindən imtina edib, liberallaşdırma istiqamətində reformalara start verilsə və mövcud resurslardan rasional istifadə olunsa, neftin qiymətinin ucuzlaşmasının mənfi təsirlərini maksimum neytrallaşdırmaq mümkün olacaq". **Hazırda ölkəmizin valyuta ehtiyatlarının nə qədər olması, o ehtiyatlardan maaş, pensiya və digər ödənişlərin verilməsi üçün istifadə edilməsinin mümkün olub-olmadığını soruşduqda Q.İbadoğlu bunları bildirdi:** "Ölkənin valyuta ehtiyatlarını iki qrupa bölmək olar. Mərkəzi Bankın və Neft Fondunun aktivləri. İyulun 1-nə hər ikisi birlikdə 42,5 milyard dollar təşkil edib. Mərkəzi Bankın valyuta ehtiyatları ötən ilin eyni dövrü ilə müqayisədə yarıbayarı azalıb. Neft Fondunun aktivləri isə 7,5 faiz azalıb. Hər iki ehtiyatların azalması prosesi davam edir. Çox güman olunur ki, bu ilin sonuna ehtiyatlar ən azı 5 milyard dollar azalacaq. Mərkəzi Bankın ehtiyatlarının azalması manatın sabitliyini qorumaq üçün valyuta bazarında xərcləmələrlə, Neft Fondunun ehtiyatlarının aşağı düşməsi isə fondun büdcəsinin gəlir və xərclərinin tarazlaşdırılması ilə əlaqədardır. Fondun dövlət büdcəsinin transferlərinin artırılması hesabına dövlət büdcəsindən maliyyələşən təşkilatlarda maaş, pensiya krizisinin qarşısını almaq mümkündür".

❑ **Cavid TURAN**

# Azərbaycanın kredit reytinqinin düşməsi iqtisadi gərginliyi artıracaq

## Lakin ekspertə görə, ölkə Yunanıstanın vəziyyətinə düşməyəcək...

**Azərbaycanda manatın növbəti devalvasiyası təhlükəsi gündəmdədir. Bütün bunlarla bərabər, ölkənin əsas ixracı sayılan neftin də qiyməti aşağı düşməkdədir. Bəzi iqtisadçı analitiklər hesab edir ki, mövcud şərtlər altında ölkə iqtisadiyyatını dirçəltmək üçün Azərbaycan xarici ölkələrdən borc almalı olacaq, alınan borc isə ölkənin həm iqtisadi, həm də siyasi baxımdan asılılığını artıracaq.**

Rəsmi açıqlamaya görə, cari ilin iyulun 1-nə olan göstəricilərdə Azərbaycanda fəaliyyət göstərən bankların xarici öhdəlikləri 6 milyard 629,1 milyon manat təşkil edib. Bu isə ilin əvvəlinə olan göstəricidən 33 faiz çoxdur. Belə davam edərsə, Azərbaycanın Ukrayna və Yunanıstanın gününə düşmə ehtimalının da böyük olduğunu söyləyənlər az deyil.

**Məsələ ilə bağlı qəzetimizə danışan iqtisadi ekspert Rəşad Həsənov** bildirib ki, neft gəlirlərinin azalması səbəbindən, xarici borclar da xeyli böyüyəcək: "Ölkənin iqtisadi vəziyyətinin müqayisəsi zamanı xarici borcların ümumi daxili məhsulda (ÜDM) və əhalinin gəlirlərində payı diqqət mərkəzində olan məsələlərdəndir. Azərbaycan hökuməti bu günə qədər əslində bu istiqamətdə daha müsbət mövqe sərgiləyirdi. Nəticədə isə ölkənin xarici borclarının ÜDM-dəki yerinə görə dünya üzrə müsbət mənada ön sıralardaydı. Bu, təxminən 14 faiz təşkil edirdi. Son dövrlər baş verənlər isə hökuməti və real sektoru məcbur edir ki, xarici borcların miqdarını artırsınlar".



**Ekspert bildirib ki, xarici borclanmanın səbəbi ölkəyə daha çox valyuta axınının təmin edilməsidir:** "Neft valyutasından asılı olan Azərbaycan iqtisadiyyatı, neftin qiymətinin dünya bazarında azalmasından dərhal sonra, prosesə çox kəskin reaksiya verdi. Manat 34 faiz dəyərdən düşdü. Nəticə etibarilə ölkə iqtisadi durğunluq mərhələsinə daxil olub. Ötən illərlə müqayisədə iqtisadi aktivlik kifayət qədər aşağı düşüb. Bundan sonrakı dövrlərdə də Azərbaycanın xarici borclanmasının davam edəcəyini əminliklə demək olar. Lakin əgər əvvəlki dövrlərdə beynəlxalq maliyyə dərəcələri Azərbaycanın kredit reytinqini daha yüksək qiymətləndirirdi və bunun nəticəsində xarici borclanmamızda faiz aşağı idisə, hazırda bu, belə olmayacaq. Reytinqlər aşağı çəkilərsə, ölkənin daha bahalı borclanması baş verəcək. Xarici borclanmanın artması hər bir vətəndaşın üzərinə əlavə yük qoyacaq ki, bu da ölkə büdcəsindən sosial istiqamətli xərclərin azalmasına səbəb ola bilər. Bütün bunlarla bərabər demək olar ki, Azərbaycan Yunanıstanın vəziyyətinə düşməyəcək".

❑ **Əli RAİS**

# Şəbəkəmizin nəzarətə götürülməsi



**Samir SARI**

**Bax, maraqlı xəbər, aktual yenilik budur: "Azərbaycanda sosial şəbəkələrin fəaliyyəti üçün icazə almaq lazım olacaq". Bunu rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov jurnalistlərə özü deyib. Hazırda danışıqlar aparılır, iş başa gələndən sonra şərtlər-filanlar da açıqlanacaq.**

Çoxdan gözlənilirdi. Ara-sıra məmurlar, hökumət adamları qımıldanırdılar, sosial şəbəkələrdən gileylənirdilər, hiss olunurdu ki, xirtdəyə yığılıblar. Budur, gəldi bahar fəsli...

Yayılan xəbərdə göstərilir ki, bəzi çat (yəni messencer) xidmətlərinin də fəaliyyətinə icazə almaq lazım gələcək. Amma heç kəs bundan narahat olmasın. Bu, elə də ciddi məsələ deyil, hədəf sosial şəbəkələrdir.

Hərçənd məsələyə milli təhlükəsizlik, dövlətçilik prizmasından yanaşsaq, xaricə gedən yazılı və səsli mesajlara da nəzarət olmalıdır. Allaha şükür, indi hamının xaricdə (o cümlədən daxili məhbəsdə) qohumları var və bütün günü Skype-də görüntülü danışırlar. Bu danışıqlarda, kim bilir, nə qədər dövlət sirri ora-bura dağılır. Bədxahlar bundan istifadə edə, toplayıb düşmən dəyirmanına su tökmək üçün faydalana bilərlər.

Məsələn, Hollandiyadakı bacısı ilə 3-4 saat ərzində dayanmadan danışan bir qadın (kişilər 3-4 dəqiqə danışır, "salam-sağ ol" edir, söhbəti bitirirlər, amma qadınlar ən azı 3 saat danışmalıdırlar - minimal standart belədir) ölkədəki ictimai-siyasi durum və psixoloji ovqat barədə özü də bilmədən müfəssəl məlumat verir. Düşmən də yatmayıb axı, qulaq asır. Sizi inandırıram ki, biri xaricdə, biri ölkədə yaşayan iki bacının söhbətinə hövsələ eləyib sona qədər qulaq asan kəşfiyyatçı həmin ölkənin daxili vəziyyəti haqqında bir fleş-kart dolusu məlumat əldə edə bilər.

Buna bir nəzarət lazımdır, ya yox? Bəlkə də indiyədək o Skype danışıqları milli, iqtisadi, siyasi, ictimai təhlükəsizliyimizə nə qədər ziyan vurub, bilməmişik. Amma atalar necə deyib? Ziyanın yarısından qayıtmaq da xeyirdir.

İndi keçək sosial şəbəkələr söhbətinə. Sosial şəbəkə deyiləndə hamımızın ağlına "Feysbuk" gəlir, bizim camaat "Tvitter"ə o qədər də maraqlı, həvəsli deyil. Deyirlər, bundan əvvəl "Odnoklassniki" dəb imiş, ora da camaat, populyar ifadə elə desək, "qız tutmaq" üçün girirmiş. Bu xüsusda dəqiq statistika yoxdur, bəlkə də "Odnoklassniki"də "ər tutanlar" faiz etibarilə "qız tutanlar"dan da çoxdur, amma adı belə çıxıb.

Əlbəttə, hökumətin "ər tutanlar"la, "qız bişirənlər"lə elə bir problemi yoxdur, yəqin ki, bu məsələyə savab prizmasından baxırlar, amma "Feysbuk" başqa belədir.

Bu sosial şəbəkə populyarlaşandan hamı jurnalist və şərhçi olub. Kimin 5 min "dost"u var, kefi istəsə səhifə yaradıb "yazar" ola bilir və öz dərin ictimai-siyasi düşüncələrini, fəaliyyətini yazır, "dost"larıyla paylaşır.

20 ilə qəzetləri döyə-döyə, məhkəməyə verə-verə, məhbəsə basa-basa birtəhər yumşaldan hökumət "Feysbuk"da minlərlə "yazar"ın əmələ gəlməsindən əndişəlidir. Yazdıqları statuslara görə onların hamısını bir-bir, iki-bir tutsalar, Kürdəxanı təcridxanası onları tutmayacaq, gərək Suraxanıda, Balaxanıda yeni türmələr tiksinlər (Novxanıda bir sot yer qalmayıb artıq, həm də bu kəndin havası türmə üçün yaramır).

Belə olanda ən yaxşısı suyu dəhnədən kəsməkdir. Birdəfəlik "Feysbuk"u nəzarətə götürürsən, lazım gələndə açırsan, xoşun gəlməyəndə bağlayırsan, dəcəllik edən səhifə yiyələrini bloklayırsan, qurtarıb gedir. Bir var, sarsaqladığına görə tutub adamın ağız-burnunu dağıdasan, bir də var, səhifəsini dağıdasan. Çox fərqi var. Səhifə dağılmasına görə heç bir məsuliyyət yoxdur, amma "yazar"ın ağız-burnunu, eləcə də başqa həyati vacib əzalarını dağıdanda beynəlxalq təşkilatlar tökülüşür, demokratiyanın, azadlığın boğulmasından danışırlar.

Hələ hirsli bibioğlular məsələsi var. Öyünmək olmasın, mənim 12 bibioğlum var, yalnız ikisi "Feysbuk"dadır, onlar da dalaşqan adam deyillər. Amma eləsi var ki, həm əsəbidir, həm də gəncliyində idmançı olub, görsə ki, burda mənimlə söz güləşdirən var, gəlib adamın dalağını partladar, ara yerdə məni də tutarlar.

Neçə vaxtdır, bu işə görə əndişəliydim, nazirin bu müjdəsindən sonra ürəyimə su səpilmiş kimiyəm. Eşq olsun. Nəzarətə götürün, canımız rahat olsun.

YENİ MÜSAVAT
N 189 (6217) 28 avqust 2015

**Son günlər neftin qiymətində kəskin dəyişikliyin müşahidə olunması büdcəsinin əsasını neft pulları təşkil edən digər ölkələrdə olduğu kimi, Azərbaycanda da həssaslıqla izlənilir. Müşahidələrimiz onu deyir ki, əvvəlki dövrlərdə Azərbaycan vətəndaşlarında neftə belə maraq yox idi. Lakin indi insanlarımız neft xəbərlərinə daha həssas yanaşırlar. Paralel şəkildə dollar ajiotajı, manatın devalvasiya təhlükəsi, bahalıq gözləntisi və digər məsələlər vətəndaşların qayğılarını artırıb. Durumu "Caspian Barrel" Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şabanla birgə təhlil etməyə çalışdıq. Azərbaycanın karbohidrogen ehtiyatları, ölkəmizin perspektiv taleyi və digər məsələlər müsahibimiz tərəfindən kifayət qədər ciddi şəkildə təhlil olunub.**

# "Neft Azərbaycan üçün hələ uzun müddət çörək ağacı olacaq"

## İlham Şaban: "Azərbaycan vətəndaşı bu on ildə neftin 39 dollar qiymətini də yaşayıb, 143 dollar qiymətini də..."

***- İlham bəy, Azərbaycanda neft hasilatının azalmağa getdiyi bir zamanda vətəndaşlarımızın, deyəsən, neft mövzusuna marağı artıb. Sizcə, bu, nə ilə əlaqədardır?***

- Əslində vətəndaş elə həmin vətəndaşdır, sadəcə, indiki durumda onun neftə olan marağı sırf sosial-iqtisadi amillərdən qaynaqlanır. Öz təcrübəmdən çıxış edərək deyə bilərəm ki, neftin qiyməti 80, 90 və 100 dollardan yuxarı olanda vətəndaşın maraqları tam başqa idi. Onu öz təsərrüfatını qurub-yaratmaq, olanını genişləndirmək və sair gündəlik məsələlər maraqlandırırdı. Bu zaman onun yadına düşən neftin qiyməti deyildi. Ən çox müzakirə obyekti - mən deyərdim ki, deyingənlik obyekti - isə "bizə neftdən heç nə çatmadı" formasında olan söz-söhbətlər idi. Elə KİV-lərin, qeyri-hökumət təşkilatlarının və xarici təşkilatların da araşdırma mövzusu son 10 ilə yaxın neft gəlirlərindən kimə nə qədər düşməsi statistikası ətrafında olub. Həmin ərəfədə isə ölkəyə külli miqdarda neft vəsaitləri daxil olurdu. Yeri gəlmişkən, 2005-2014-cü illərdə təkcə Neft Fondunun daxilolmaları 115,8 milyard ABŞ dolları təşkil edib. Onların da ölkə vətəndaşları arasında müxtəlif üsullarla paylanma mexanizmləri mövcud idi. Bunlar leqal və qeyri-leqal hissələrə bölünürdü. Leqal o idi ki, dövlətin büdcəsi ildən-ilə görünməmiş sürətlə böyüyürdü. Məsələn, əgər 2005-ci ildə Neft Fondundan dövlət büdcəsinə edilən transfertlərin həcmi cəmi 150 milyon manat idisə, 2008-ci ildə bu göstərici 3,8 milyard manata, 2009-cu ildə 9 milyard manata, 2011-ci ildə pik həddə isə - 11,35 milyard manata çatmışdı.

Yəni bu qədər vəsait büdcəyə təkcə Neft Fondu vasitəsilə daxil olursa və təbii ki, istənilən halda bundan yararlananlar olur. Məsələnin dərinliyinə getmədən belə demək olar ki, hətta mənimsənilən vəsaitlər belə ikinci və üçüncü "emal" zamanı sadə vətəndaşlara gəlib çatırdı. Düzdür, bunun həcmləri arasında məsafə çox böyük olsa da, ancaq necə deyərlər, aktiv olanlara ötən iki "beşilliyi" xoş-beşlə başa vurmağa kifayət etdi.

İndi isə büdcənin əsas donoru olan neft birdən-birə ikiqat dəyərdən düşüb və hökumət də başlayıb xərcləmələri kəsməyə...Özü də kifayət qədər. Nəticədə neft gəlirləri başlayıb zəncirvari şəkildə əksər əhaliyə təsir etməyə: büdcədən meqalayihələr alanların sifarişləri azalıb, tikinti-təmir işləri minimuma enib. Təbii ki, bundan yararlananların sayı və gəliri də adekvat şəkildə azalıb. Əvvəllər bu və ya digər şəkildə həmin gəlirdən bəhrələnənlərin özlərinin yaratdıqları özəl strukturların vəziyyəti pisləşib və ya orada çalışanların əmək haqları azaldılıb. Nəticədə bu, ümumilikdə alıcılıq qabiliyyətinə təsir edib. Günahkar kimi isə ortaya neft çıxıb və beləliklə də bir vətəndaş marağı yaranıb ki, neftlə bağlı axırımız necə olacaq. Məsələnin məğzi bundadır...

***- Biz də həmin vətəndaşdan biri: bəs axırımız necə olacaq?***

- Əslinə qalsa, dramatik bir vəziyyət yoxdur. Çünki əzəldən Azərbaycan vətəndaşını hökumət digər neft ölkələrindəki kimi hansısa sosial rifahlara öyrətməyib ki, indi onları kəssin və bundan insanların əksər hissəsi şoka düşsün. Bu gün neftin qiyməti faktiki olaraq 2005-ci illər səviyyəsindədir. Azərbaycan vətəndaşı bu on ildə neftin 39 dollar qiymətini də yaşayıb, 143 dollar qiymətini də...Azərbaycanda reallıqda pulsuz faktiki heç bir xidmət yoxdur. Təhsil və səhiyyə pulsuz olsa belə, praktikada yalnız quru adı var. Adicə normal uşaq bağçasının xərcləri orta əmək haqqının yarıdan çoxunu təşkil edir. Diqqət yetirin, sadaladığım bu amillər əslində hökumət üçün neftin aşağı qiymətində təhlükəsizlik yastığı rolunu oynayan əsas vasitədir. Məhz onun vasitəsilə hökumət istədiyi dövrə qədər büdcə xərcləmələrini idarə edə bilər. Axı büdcənin istehlakçıları pulsuz və ya dividentlər şəklində ondan hansısa imtiyazlar tələb etmirlər. Digər neft ölkələrində isə ölkə vətəndaşlarına gəlirlərdən asılı olaraq sosial paketlər nəzərdə tutulub. Hətta heç bir resursu olmayan Türkiyə belə öz vətəndaşları qarşısında bir sıra sosial öhdəliklər daşıyır.

***- Belə çıxır ki, bu gedişlə vətəndaşlar birtəhər öz başlarını saxlayacaq, hökumət isə qlobal işlərlə məşğul olmaqda davam edəcək?***

- Ümumən götürsək, belə demək mümkündür. Baxmayaraq ki, artıq bu 10 ildə vətəndaşın yaşayış minimumu da dəyişib, onun dünyaya baxışları da daha əvvəlki kimi deyil. Çünki kommunikasiyası müəyyən qədər artıb, əvvəlki kimi məhdud çərçivə həyatında yaşamır. Ona görə də artıq Rusiyada rublun, Qazaxıstanda təngənin vəziyyətini görüncə özü qərar verir ki, gedib ehtiyatda olan manatını dollara dəyişsin, ya yox. O mənada artıq Azərbaycanın maliyyə rəsmilərinin hansısa çıxışına və şərhinə elə bir ehtiyac yoxdur.

***- Yəni deyirsiniz sadə vətəndaş aktiv həyat tərzini seçib?***

- Söhbət adi vətəndaşdan getmir, aktiv vətəndaşdan gedir. Bütün dünyada belədir. Cəmiyyətin lokomotivi aktiv vətəndaşlar olur, digərləri onlara baxıb hərəkət edir. Məsələn, bizdə biri dollar dəyişdi, o biri ona baxdı, beləcə tələbat yarandı və sonu çox maraqla bitdi: hamı devalvasiya gözləyirdi, ancaq Mərkəzi Bank manatı bərkitdi. Baxmayaraq ki, valyutadəyişmə məntəqələrində dollar qıtlığı məsələsi yenə aktual olaraq qaldı. Hökumət hələ ki bu prosesi inzibati üsullarla nəzarətdə saxlaya bilir.

***- İlham bəy, qayıdaq neft məsələsinə: Azərbaycanın yaxın perspektivdə iqtisadiyyatının neft amilindən qurtulacağı nə dərəcədə realdır və real deyilsə, neftə nə qədər ümid bəsləyə bilərik?***

- Azərbaycan hökuməti 5 il əvvəl ortaya bir proqram irəli sürdü (Azərbaycan 2020: Gələcəyə baxış - İnkişaf Konsepsiyası) ki, 2020-ci ildə onun iqtisadiyyatı artıq neftdən asılı olmayacaq. Bu inkişaf konsepsiyasına görə Azərbaycanın qeyri-neft sektoru artıq 5 ildən sonra adambaşına düşən ixrac həcmini 1000 ABŞ dollar həcminə çatdırmalıdır. Gömrük Komitəsinin rəsmi məlumatına görə, cari ilin I yarımilliyin yekunlarına əsasən, qeyri-neft sektorumuz 870 milyon 795 min dollarlıq məhsul ixrac edib. Bu, ümumi ixracatın 14%-i deməkdir, yəni yerdə qalan pay xam neft, neft məhsulları, təbii qaz və elektrik enerjisinin üzərinə düşüb. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin əvvəlinə əhalinin sayı 9 milyon 593 min nəfər olub. Yəni adambaşına qeyri-neft sektorunun ixracı hazırda illik göstərici ilə cəmi 90,77 dollardır. Daha doğrusu, tuşlandığımız hədəfdən 11 dəfə az. Təbii ki, bu templə göstərilən nailiyyətləri əldə etmək mümkün deyil.

Hökumətin daha çox vurğuladığı bir məsələ də yaxın 5 ildə ÜDM-də neft payının 25%-dək azalmasıdır. Bu zaman digər sektorların, İKT, kənd təsərrüfatı, turizmin yüksək inkişafı ölkənin qeyri-neft sektorunun əsas istiqamətləri kimi göstərilir. 2010-cu il Azərbaycan neftinin pik dövrü olub. O zaman 50,8 milyon ton neft hasil edilib. Onda sənaye sektoru 66% təşkil edirdi. Bunun da əsas hissəsi neft-qaz sektorunun payına düşürdü. Kənd təsərrüfatının ÜDM-də payı 9,3%, İKT-nin payı 2,8%, turizmin payı isə 1%-dən bir qədər çox olub. 2015-ci ilin I yarımilliyin yekunlarında kənd təsərrüfatının ÜDM-də payı 5,6%, İKT - nin 1,9%, turizminki isə 2,9% olub. Bu arada sənaye sektoru 36%-dək azalıb. O da neftin qiymətlərinin azalması və təbii ki, 2010-cu illə müqayisədə hasilatın 20%-dək düşməsi nəticəsində əldə edilib.

Sualın ikinci hissəsinə gəldikdə isə onu demək olar ki, neft hələ bizim gələcəyimizdir, baxmayaraq ki, qaza keçidi elan etmişik.



**"Hələ ki 40 milyon tondan artıq neft hasil edirik, neftin ən aşağı qiymətində belə neft və neft məhsulları ixracından 10 milyard dollardan çox vəsait qazanırıq"**

***- Düzü, sonuncu fikirləriniz anlaşılan olmadı. Əksəriyyət nefti keçmiş sayarkən siz "gələcəyimizdir" deyirsiniz...***

- Təəccüblənməyin! Hələ ki 40 milyon tondan artıq neft hasil edirik, neftin ən aşağı qiymətində belə neft və neft məhsulları ixracından və onların servisindən 10 milyard dollar, bəlkə bir qədər də çox vəsait qazanırıq. Özü də bu dediklərim mənfəətdir. Təmiz mənfəət. Qeyri-neft sektorunun ixracı isə ümumi rəqəmdir, onun mənfəəti heç zaman açıqlanmır, heç bilinmir ki, 10%-dir, bəlkə 5%-dir, ya 15%. Ancaq ümumi bir rəqəmdir. Ona görə də neft Azərbaycan üçün hələ uzun müddət çörək ağacı olaraq qalacaq. Bu müddət mənim anlamımda dəyər baxımından - illik 10 milyard dollar ətrafında - minimum 15-20 il çəkəcək. Məsələ belədir ki, "Azəri-Çıraq-Günəşli" yataqları üzrə müqavilə 2024-cü ildə bitir. Ancaq müqavilə müddəti bitənədək oradakı bütün nefti hasil etmək mümkün olmayacaq. Azərbaycan geoloqlarının hesablamalarına görə, o müqavilə sahəsində ən azı 300 milyon tonadək çıxarıla biləcək neft ehtiyatı var. İkincisi, Xəzərin dərin hissəsində kəşf edilmiş və kəşf ediləcək qaz yataqlarında həmçinin kondensat da olur. Kondensat yüngül neftdir. Özü də kifayət qədər ehtiyatlara malikik Xəzərdə. Bu amilləri nəzərə alsaq, neft hələ bir neçə beşilliyə ölkəyə o gəliri verə biləcək ki, onun qeyri-neft sektoru çox güman ki, bu gedişlə heç 10 il sonra da həmin zirvəyə yüksəlməyəcək.

Mən bir şeyi diqqətinizə çəkmək istəyirəm ki, qarşımıza gələn beşillikdə hər şey neft-qaz amili ilə bağlıdır: ən iri layihələr, ən böyük investisiyalar, ölkə xaricində həyata keçirilən layihələr, ölkəyə real gətirilən vəsaitlər. Ona görə də təhsildə də neft sektoruna maraq böyükdür. Əgər neft eramız bitsəydi, onda "neftə" belə maraq olardımı?

***- Bəs qaza olan ümidlər barədə nə demək olar? Bu məsələdə də nikbinsiniz?***

- Qaz məsələsi bir balaca qəlizdir, çünki onun ixracı mürəkkəbdir və bir sıra amillərlə bağlıdır. Elə biz durduğumuz yerdə 3 həftədə iki dəfə əsas ixrac kəmərimiz partladıldı. Ancaq xoşbəxtlikdən hər iki halda qaz ixracı olmayan zaman baş verdi.

Oxucularımız bilməlidirlər ki, "Şahdəniz-2" layihəsi çox kapitalyönümlü layihədir. Məsələn, "Şahdəniz-1" layihəsinə cəmi 5,1 milyard dollar kapital qoyulmuşdusa və bu xərcə Türkiyə sərhədinə qədər ümumi buraxıcılıq gücü 7,2 milyard kub metr olan ixrac boru kəmərinin inşası da daxil idisə, indi təkcə "Şahdəniz-2" layihəsinin özünə - qazı hasil edib sahilə gətirmək üçün - 28 milyard dollar vəsait gərəkdir.

***-Bu qədər fərqin yaranmasının səbəbi nədir?***

- Əvvəlki layihədə hasilat dayaqlar üzərində quraşdırılmış platformadan həyata keçirilir. Özü də deyim ki, çox yaxşı nəticələrlə. Ötən il bircə platformadan 10 milyard kubmetrə qədər qaz hasil edilib və hasilatda 5 quyu vardı. Siz onların məhsuldarlığını təsəvvür edin. İndi tempi saxlamaq üçün bp şirkəti daha bir quyu qazıb istismara verib.

"Şahdıniz-2"də də platforma olacaq. Ancaq oradan hasilat həyata keçirilməyəcək. Bu, Xəzərdə ilk "vışkasız" (buruqsuz-E.P.) platforma olacaq. O, dənizin dayaz hissəsində quraşdırılacaq və texniki funksiya yerinə yetirəcək. Hasilat isə dənizin 550 metr dərinliyindəki manifoldlardan - robotlaşdırılmış hasilatçı qurğulardan - həyata keçiriləcək. Bu da Xəzər üçün tam texnoloji bir yenilik olacaq. Bundan sonra isə qazı hasil etmək üçün 6800-7100 metr dərinliyində quyular qazılacaq. Onların bir çoxu artıq öncədən qazılır. Həmin manifoldlardan platformaya və oradan sahilə qazı daşımaq üçün təqribən 500 km uzunluğunda sualtı boru xətləri çəkiləcək. Ümumiyyətlə, "Şahdəniz-2" geoloji baxımdan çox çətin bir yataqdır. Oradan qazı çıxardıb dünya bazarına 3500 km nəql etmək isə daha bir mürəkkəb məsələdir.

Ona görə də...qazın Avropaya nəqli 2021-ci ildən başlayacaq və ilk beşillik lazımdır ki, şirkətlər yatırdıqları külli miqdarda vəsaitləri müqavilə ilə müəyyən olunmuş çərçivədə qaytara bilsinlər. İkinci məsələ isə ondan ibarətdir ki, qazın Avropada qiyməti proqnozlara görə, 2025-ci ilə qədər heç də baha olmayacaq. Ancaq bəxtimiz gətirsin ki, ondan sonra baha olsun, necə ki, "Azəri-Çıraq-Günəşli" layihəsində ilk neft bazara çıxanda neft 10-15 dollar arasında idi, böyük neftimiz çıxanda isə bundan dəfələrlə yüksək oldu...

❑ **Elşad PAŞASOY**



Elmira Axundova



Həbib Axundov

# Deputat oğlu haqqında yazılanlara reaksiya verdi

## Həbib Axundov ona qarşı ittihamların əsasını təşkil edən məsələlərin üstündən niyə sükutla keçir...

**Deputat Elmira Axundova və oğlu Həbib Axundovun adının 8 milyonluq dələduzluq qalmaqalına qarışması haqda mətbuatda dəfələrlə yazılıb. Axundovlar onlara yönəlik ittihamların doğru olmadığını söyləsələr də, qarşı tərəf iddialarında israrlıdır. “Yeni Müsavat”da bu mövzu ilə bağlı bir neçə yazı dərc olunub.**

“Deputatın oğlu Gömrük Komitəsindən qovuldu” sərlövhəli, bu mövzuda son yazı Ziya Vəliyev, Elvin Vəliyev, Sabir Ağayev, Fərman Məmmədov və Şahin Məhərrəmovun müraciəti əsasında hazırlanmışdı. Müraciət müəllifləri iddia edirlər ki, H.Axundov və onun dostu Elnur İbrahimovun “biznes plan”ı onların külli miqdarda - 8 milyon manata yaxın pullarının mənimsənilməsinə xidmət edib. Qısa olaraq qeyd edək ki, müraciət müəlliflərinin təqdim etdikləri məlumatlardan belə nəticəyə gəlmək olurdu ki, aralarında narazılıq yaranandan sonra Axundovlar kəskin şəkildə varlanıblar.

2012-ci ilədək Rusiya istehsalı olan “OKA” və “VAZ” markalı avtomaşınların sahibi olan Həbib Axundov birdən-birə belə varlanaraq, dəyəri yüz minlərlə olan bahalı Avropa istehsalı olan avtomaşınlar alıb. Şəhərin mərkəzində 6 mərtəbəli qeyri-yaşayış binası tikdirməyə başlayıb, Port Baku yaşayış kompleksində sahəsi 370 kv.m olan 2 mənzil alıb. Müraciət müəllifləri dediklərinin təsdiqi kimi H.Axundovun Türkiyə, İngiltərə və ərəb ölkələrindəki bahalı istirahətlərini əks etdirən fotolar da təqdim etmişdilər.

**Yazı dərc olunandan sonra Həbib Axundov mətbuatda özü barədə yazılan məqalələrə etirazını ifadə edən yazı yazıb və redaksiyamıza göndərib. Həmin yazını təqdim edirik:** “Artıq xeyli müddətdir bəzi saytlarda Milli Məclisin üzvü Elmira Axundova və mənim barəmdə yer alan şantaj və böhtan dolu yazılara dəfələrlə ”Deputatın oğlu ittihamlara cavab verdi", “Fərman Məmmədovun yazdıqları yalan, şantaj və böhtandır...” kimi yazılarla ətraflı aydınlıq gətirmişəm. Xatırlatmaq istəyirəm ki, sizin saytınızda da 15 iyul 2015-ci il tarixində (http://musavat.com/news/olke/deputat-oglu-ittihamlara-cavab-verdi-ag-yalandir_278955.html) həmin əsassız ittihamlara cavabım dərc edilib. Sizin kimi dəyərli və oxucu kütləsi olan ciddi bir saytda eyni xarakterli yazıya yenidən yer verilməsi, sözün düzünü desəm, məndə təəssüf hissi oyatdı. Hazırda mənim də zərərçəkən kimi tanındığım işin hüquq-mühafizə orqanları tərəfindən araşdırıldığını nəzərə alsaq, mənə və ailəmə qarşı yönəlmiş heç bir əsası olmayan, mənim tərəfimdən dəfələrlə təkzib olunan məsələnin yenidən saytınızda dərc edilməsi başa düşülən deyil.

Qısaca bir daha xatırladıram ki, mən özüm də qeyd edilən işdə zərərçəkən kimi tanınmışam. Elnurun aldatdığı digər şəxslərin və o cümlədən mənim ərizəm əsasında bu dələduzu Azərbaycanın hüquq-mühafizə orqanları axtarır, onun şəkli isə bütün polis bölmələrinin qarşısında asılıb. Hüquq-mühafizə orqanlarına şikayət edənlər və zərərçəkmiş kimi tanınanlar sırasında isə Fərman Məmmədovun adı yoxdur.

Yeri gəlmişkən, Elmira Axundova və mənim barəmdə yalan və şantaj dolu yazıları dərc etdirdiyinə görə artıq Fərman Məmmədovla bağlı rəsmi qaydada məhkəməyə müraciət etmişəm. Mənim Fərman Məmmədova qarşı iddiam əsasında Binəqədi Rayon Məhkəməsində proses başlayır. Fərman Məmmədov bu cür şantaj və böhtan kampaniyası apardığına görə vicdanı və qanun qarşısında gec-tez cavab verəcək. Məhz onunla bağlı məhkəməyə müraciət etməyimdən sonra eyni yazılar indi də Ziya Vəliyev adlı şəxsin adından saytlara göndərilir. Bu bir neçə ayda KİV-lərdə mənə qarşı olan yazılara fikir versək, görərik ki, hamısının müəllifi eynidir, Fərman Məmmədovun sifarişi əsasında Firuz Haşımov. Mən əminəm ki, bu cür yalan dolu yazıları dərc etdirdiyinə, məni ağır cinayətdə ittiham etdiyinə görə Ziya Vəliyev barədə də məhkəməyə müraciət etsəm, növbəti dəfə bu yazılar məqalədə adıçəkilən və Fərman Məmmədov tərəfindən bu işə süni şəkildə cəlb edilən digər şəxslərin adından verilməyə başlayacaq. Bir maraqlı məqam da odur ki, o şəxslərdən bəzilərini ümumiyyətlə tanımıram. Ona görə də artıq dərəcədə xahiş edirəm, bu qeyri-ciddi yazıları araşdırmadan öz saytınızda onlara yer verməyəsiniz. Fərman Məmmədovla bağlı məhkəmə prosesi yekunlaşdıqdan sonra tərəfimdən saytlara məlumat veriləcək.

Sonda bir daha vurğulamalıyam ki, Fərman Məmmədovun mənə qarşı hər hansı iddiası varsa, nə üçün məhkəməyə müraciət etmir? Nə üçün məhkəmədə öz iddialarını sübut etmək əvəzinə, ucuz şoulara əl atır, mənim və ailəmin adını heç bir sübutu olmadan mətbuatda ləkələyir? Nə üçün KİV-lərin arxasında gizlənir? Axı nə vaxtdan KİV hüquq-mühafizə orqanlarının funksiyasını yerinə yetirməyə başlayıb? Heç kəs kütləvi informasiya vasitələrini öz çirkin oyunlarına alət etməməli, öz hüquqlarını qanuni yolla qorumalıdır. Hüquqi dövlətdə yaşayırıq, hər şey qanuni yolla, əxlaq çərçivəsində, məhkəmədə həll edilməlidir".

**Maraqlıdır ki, H.Axundov ona yönəlik ittihamların mahiyyətinə varmadan, qəfil varlanmasının səbəbini izah etmədən, işdən çıxarılması məsələsinə aydınlıq gətirmədən bu cür mövqe sərgiləyib.**

❑ E.MƏMMƏDƏLİYEV

# Beynəlxalq Bank işi - məşhurların yaxınlarından kimlər həbsdədir?



## Sabiq vitse-primyerin qardaşı Nadir Abbasov, “Qara polkovnik”in oğlu Adil Hüseynov, bankın İdarə Heyətinin sabiq rəhbərinin bacanağı...

**51 faizi dövlətə məxsus olan Beynəlxalq Bankın çöküşü illərlə dartışılan problemli kreditlər məsələsini ən ağrılı şəkildə ortaya çıxardı. Belə bir vəziyyətdə ümidsiz kreditlərin administrativ üsullarla geri qaytarılması qərarı verildi. Mart ayından başladılan prosesə, bəzi məlumatlara görə, 200-dən artıq iş adamı cəlb olunub. Bankın qarşısında öhdəlikləri olan yüzlərlə kreditorun həbsi haqda məlumatlar var. Amma tutulanların çox az qismi haqda dəqiqləşdirilmiş məlumatlar mövcuddur.**

Həbsləri Daxili İşlər Nazirliyi Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşları həyata keçirir. Lakin tutulanlar haqda ictimaiyyətə rəsmi məlumat verilmir.

Bu gün iş üzrə həbsdə olan şəxslər sırasında baş nazirin keçmiş 1-ci müavini Abbas Abbasovun qardaşı Nadir Abbasov, “Qara polkovnik” kimi tanınan mərhum Fətulla Hüseynovun oğlu Adil Hüseynov, Orta Asiya ölkələrindən birində Azərbaycanın səfiri olan şəxsin Kamal adlı qardaşı, bankın İdarə Heyətinin sabiq rəhbəri Cahangir Hacıyevin bacanağı, “İntertabakko” Zaqatala Tütün Emalı Zavodunun direktoru İsmayıl Hidayətzadə kimi tanınmışlar da var.

Mətbuatda yer alan məlumatlara əsasən, Nadir Abbasov bir müddət əvvəl Gəncədə keçmiş Yeyinti Ticarəti İdarəsinin bazasında soyuducular tikmək üçün Beynəlxalq Bankdan kredit götürüb. Krediti 10 milyon manat olduğu və son ödəmə müddətinin 2018-ci il olduğu bildirilir. İddiaya görə, onu DİN-in Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinə çağırıblar. Ondan krediti dərhal qaytarması tələb olunub. Krediti geri qaytara bilməyən N.Abbasov həbs olunub. Beynəlxalq Bankın Dubay filialının rəhbəri Adil Hüseynovu isə kreditləri aldatma yolu ilə mənimsəməkdə ittiham edirlər. İttihama görə, A.Hüseynov Cahangir Hacıyevi və onun 1-ci müavini olmuş Emil Mustafayevi aldadaraq 317 milyon manat mənimsəyib.

Səfirin Kamal adlı qardaşını da Beynəlxalq Bankdan 32 milyon manat kredit götürüb qaytarmamaqda suçlayırlar. Bu şəxsin krediti geri ödəməsində son tarixin 2018-ci il olduğu bildirilir. Cahangir Hacıyevin bacanağı İ.Hidayətzadə Bakıda tütün fabriki yaratmaq üçün Beynəlxalq Bankdan 100 milyon dollar kredit götürübmüş. İstintaq bu kreditlərin təyinatı üzrə xərclənməsinə şübhə ilə yanaşır.

İş üzrə tutulan şəxslər bir qayda olaraq CM-in 178.3.2-ci -külli miqdarda ziyan vurmaqla dələduzluq maddəsi ilə ittiham olunurlar.

Yayılan məlumatlara görə, Beynəlxalq Bankdan yüz milyonlarla kredit alan və geri qaytarmayan onlarla sahibkar həbs olunub, onlardan 43 nəfəri kredit borclarını ödədikdən sonra sərbəst buraxılıb. Borcların ödənilməsindən sonra iş adamlarından bəziləri barəsində seçilmiş həbs-qətimkan tədbiri məhkəmə qərarı ilə dəyişdirilib. Son rəsmi məlumata görə, sərbəst buraxılmış iş adamlarının indiyə qədər ödədikləri vaxtı keçmiş kredit borcunun ümumi miqdarı 110 milyon manat təşkil edir ki, bu da Beynəlxalq Banka olan borcun heç minimum həddi də deyil. Prezident İlham Əliyevin Azərbaycan Beynəlxalq Bankı ilə bağlı iyulun 15-də imzaladığı fərman borclu oliqarxlar, eləcə də bankda kredit məsələlərinə məsul olan rəhbər şəxslərin üzərinə böyük məsuliyyət qoyur. Məlumdur ki, prezidentin fərmanında kreditlərin verilməsi zamanı bank və mülki qanunvericiliyin tələblərinə riayət edilməsi məsələlərini araşdırmaq, aşkar olunmuş nöqsanlara yol vermiş şəxslərin hərəkətlərinə hüquqi qiymət verilməsi və onların məsuliyyətə cəlb olunması üçün hüquq-mühafizə orqanları ilə birlikdə tədbirlər görmək tapşırılıb. Kreditlərin geri qaytarılması üçün bir-birinin ardınca atılan addımlar onu deməyə əsas verir ki, iqtidar Beynəlxalq Bankdan götürülən kreditlərin son qəpiyinə qədər qaytarılmasında israrlıdır.

❑ E.MƏMMƏDƏLİYEV




# Əməl və davranışların kökündə dayanan yeganə düz niyyət

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**

**Yaşadığımız gündəlik həyatın ən ağır tərəfi odur ki, iş, məşğuliyyətlər, mənfi və müsbət qıcıqlar çoxdur. Nəticədə bu məşğuliyyətlərin içərisində insana qarşı ciddi təhlükələr meydana gəlir. Bunlardan ən başlıcası - qəflətdə olmaqdır. Bütün bunlara onu da əlavə etsək ki, şeytan (lən) də boş durmur və insanın gündəlik həyatında hər şey edilir ki, həyatımızda Allah az xatırlansın, onda mənzərə bir qədər də faciəvi görünür. Bağça Allah xatırlamadan danışmır, məktəb bundan danışmır, universitet bundan danışmır, telekanallar bu mövzulardan danışmır, ya da elə halda danışır ki, danışmasa ondan daha yaxşıdır. Din adı olsun, amma nəticədə qəflətə aparan amillərdən olsun. Amma, bütün bunların müqabilində Uca Allahın da bizlərə öz yardımları, öz nemətləri var. Allah Təala ibadətlər, dualar, münacatlar vasitəsilə bizlərə hər an Öz varlığını xatırladır. Bu vasitələrlə Öz bəndələrini toparlayır, bəndələr bu konsentrasiyadan ayılır və nəticə etibarilə bir durum yaranır ki, biz həm Allahı xatırlayaq, həm də öz mükəlləfiyyətlərimizi başa düşərək, iradəli yaşamağı öyrənək.**

## Əməlin bütün keyfiyyəti - niyyətdədir

Əxlaq mütəxəssisləri insanın əməllərinin keyfiyyətini niyyətə bağlayırlar. Niyyət necədirsə, əməllər də keyfiyyətcə o cürdür. Niyyət nə qədər ixlaslı, nə qədər xalisdirsə, əməllərin də keyfiyyəti ona bağlıdır. Niyyətin də öz dərəcələri var. Əməlin ixlaslı olması üçün zəruri olan ən aşağı dərəcəsi budur ki, insan niyyət edərkən üzərinə düşən vəzifələri, İlahi mükəlləfiyyəti, vacibatları, İlahi təkliflləri yerinə yetirməyi düşünsün və üzərində bu mükəlləfiyyətlə bağlı borcun, öhdəliyin qalmasını istəməsin. Yəni, bundan aşağı olarsa, daha o əməlin minimal həddə də ixlası yoxdur. Qeyri-adi bir məsələdən danışmırıq. Gündəlik həyatımızda tez-tez rastlaşdığımız bir məsələdir. Namazı qılmalıyıq, insan düşünür ki, namazı qılsın ki, bu məsuliyyətindən qurtulsun. Qılsın ki, mükəlləfiyyəti boynundan götürülmüş olsun. Digər bütün həyata keçirdiyi ibadətlər də o cür.

İxlasın ən ali dərəcəsi isə budur ki, insan o əməli İlahi eşqlə həyata keçirsin. Namazı ona görə qılsın ki, Allaha eşqi var və Onun əmrini yerinə yetirərkən bu məhəbbətinə sadiq olur, bu eşqini yaşadır. Bu halda əməl ən ali ixlas dərəcəsində olar. Çünki bu niyyətlə digər niyyət arasında kifayət qədər fərq var. Ona görə də bizlər diqqətli olmalıyıq ki, əməllərimizin, davranışlarımızın niyyətinə fikir verək.

## Bütün yaxşı əməllərimizin niyyətində Allaha xatirlik dayansın

Ümumən, əxlaq ustadlarının və ariflərin birmənalı tövsiyəsi budur ki, nə ediriksə edək, onu Allah üçün edək. Təbii ki, burada söhbət Allahın razılığı olan işlərdən gedir. O işlərdən ki, onların həyata keçirilməsi dinimizin nəzərində düzgün hesab olunur. Hansı işi görürüksə görək, onu Allah üçün görək. Həzrət Rəsulallah (s) cənab Əbuzərə (r.ə) buyurur: "Ey Əbuzər! Gərək hər bir işdə pak niyyətin olsun, hətta yemək və yatmaqda da belə". Yəni, insan əgər Allah bəndəsi olmaq istəsə, Allahın hüzurunda öz halında müsbətə tərəf dəyişikliyə çatmaq istəsə, çalışmalıdır ki, bütün davranışlarının, bütün etdiklərinin, bütün tərk etdiklərinin, bütün rəftarlarının niyyətinə fikir versin və bunların hamısını Allah üçün etsin. Əgər Allah üçün etsə, nəticəsi olacaq.

Böyük əxlaq ustadı və arif olan Şeyx Rəcəbəli Xəyyatın şagirdlərindən biri onun dilindən nəql edir ki, Ayətullah Bürucerdinin (r.ə) dəfn mərasimində böyük sayda insan iştirak edirdi, insanların əzəmətli iştirakı var idi. Şeyx Rəcəbəli bərzəx aləmində ondan soruşur: "Necə oldu ki, bu qədər əzəmətlə yad edildiniz?". Ayətullah Bürucerdi buyurdu: "Bütün tələbələrə Allah xatirinə dərs verirdim". Ayətullah Bürucerdinin çox böyük elmi fəaliyyəti olub və bildirir ki, bütün bu elmi fəaliyyətində ixlaslı olub, bütün tələbələrə yalnız Allaha xatir dərs keçib. Aydın olur ki, əgər insan bütün işlərini yalnız Allahın razılığı üçün həyata keçirsə, Allah istədiyi bəndələrinə onu sevdirərər və onu insanların gözündə əzəmətli edər.

## Özümüz üçün istədiklərimizi Allaha xatir istəyək

Ümumiyyətlə, insanın əməllərinin böyük və kiçikliyinin heç bir fərqi yoxdur. Nə etməyimizin də fərqi yoxdur. Yenə də həmin tövsiyələrə nəzər salanda, biz görürük ki, bəzən insan ən yaxşı əməli edər, bəzən gözəl davranışları olar, gözəl işlər görər, amma niyyəti Allaha xatir olmaz. Bu əməllərin insanın aqibəti üçün heç o qədər də nəticəli olmaz. Alimlərdən biri Şeyx Rəcəbəlidən özü haqqında rəy soruşarkən, o, cavab verir: **"Ürəyin yaxşı olmağı istəyir, amma özün üçün. Çalış yaxşı olmağı Allaha görə istə".** Şeyx Rəcəbəli həmin alimə vəziyyətini, halını dərk etməyə kömək edir. Bildirir ki, sən təvazökar, fəzilətli, yaxşı işlər görən, müsbət davranışları olan insan olmaq istəyirsən, amma bunları özün üçün istəyirsən. Bütün bu yaxşı istədiklərinin hamısını Allah üçün istə. Biz çalışmalıyıq ki, bütün istədiklərimizi Allah üçün istəyək. Əgər Allah üçün istəsək, həyatımızda dəyişikliklər baş verə bilər. Həyatımızda məzmunca da, mənaca da hər şey dəyişər.

İxlasın, niyyətin pak olmasının insanın həyatına təsiri fövqəl dərəcədədir. Ariflərin buyuruşlarında görürük ki, hər kəs tam mənada Allah üçün çalışsa, Allah da onun üçün olacaqdır. Sən Allah üçün ol, Allah da sənin üçün olar.

Əgər insan ixlasa əməl etməyə hətta nail olmasa da, müvəffəq olmasa da, ixlas haqqında söhbət etməyin özü artıq insanın ruhiyyəsində gözəl təsir qoyar. Yəni ixlas haqqında, ixlaslı davranış haqqında, əməlləri xalisləşdirmək haqqında danışmaq, bu haqda müzakirə etmək, düşünmək hətta bilavasitə nəticəyə gətirib çıxarmasa belə, bunun xatırlanmasının özü insanın ruhiyyəsində gözəl təsir buraxar.

Şeyx Rəcəbəlinin şagirdlərinin biri onun ixlas barədə tövsiyələrinin birində buyurur ki, Şeyx Rəcəbəli onun ziyarətinə gələnlərə deyərdi: "Buraya Allah xatirinə gəlin. Əgər mənə xatir gəlirsinizsə, uduzmusunuz". Fövqəl dərəcədə önəmli bir məsələdir. Ziyarətə getmək barədə də ariflərin tövsiyələrində var ki, ziyarətə gedəndə, Əhli-beytə (ə) məhəbbətimizi izhar edəndə Allahın razılığını əldə etmək üçün baş verərsə - kamil ziyarət o zaman alınar. Bizlər, diqqətli olmalıyıq ki, niyyətimiz tam şəkildə ixlaslı olsun.

## Niyyətlərimizin Allaha xatir olması bizim Ona aidliyimizin bəyanıdır

Şeyx Rəcəbəlinin özünün belə bir ibarəsi var. Öz dərzilik avadanlığına işarə edərək, buyurarmış: **"Bu dərzilik çarxını görün. Onun kiçikli-böyüklü bütün hissələrinin xüsusi markaları vardır. Bununla demək istəyirlər ki, bu maşının ən kiçik hissəsi belə bizim zavodun istehsalını göstərir. Mömin insanın da bütün işləri Allah nişanəsinə malik olmalıdır".** Həqiqətən də hər bir istehsal olunan məhsulun üzərində onu istehsal edən şirkət özünə aid işarə qoyub, ona aid olmasın görünür. Bizlər də Allahın bəndəsi olaraq Ona məxsus olmağımızı göstərməliyik. Bunun üçün bütün işlərimiz Allaha xatir olmalıdır ki, Ona aid olmaq nişanəsi daşımış olsun.

Bəzən belə yanlış fikirlər təlqin edilir ki, yaxşı işlər öz-özlüyündə yaxşıdır və onları yaxşı iş olaraq görmək lazımdır. Bu, şeytanın (lən) fitnələrindəndir. Harada ki, gözəl əməl, rəftar, iş, hərəkət Allahdan, Allaha xatir olmaqdan ayrılır, orada həmin işin bərəkəti olmaz. Ona görə də bizlər özümüzün kiçik, böyük - bütün əməllərimizdə Allaha xatir olmasını düşünməliyik. Yalnız namazlarımız, oruclarımız, zəkatımız deyil, istənilən rəftar və davranışımız Allah razılığı üçün olmalıdır. Əgər yemək yeyərkən Allah razılığını qazanmaq üçün etdiyimizi düşünsək, o əməl bizə bir bəndəlik gücü verər. Əgər belə olmasa, o zaman qəflətdə olarıq. Əgər insan yemək yeməsinə "Bismillah" deyərək və bu barədə düşünərək başlasa, bu, onun Allaha ibadəti sayılar və onu Allah razılığına yaxınlaşdırar. "Bismillah"ın təfsirində də var ki, bu kəlməni deyən adam Allah bəndəsi olduğunu, özünün Allaha aidliyini bəyan edər, sanki özünə bir Allaha aid olmasının möhürünü vurar. İnsanın bir əməlinə başlayarkən "Bismillah" söyləməsi Allah bəndəsi olmasını bəyan etməsinin elanıdır. İnsan bütün davranış və rəftarlarını, əməllərini bu cür etməyi bacarsa, onun bütün həyatı bərəkətlənər. Evdə övladları ilə oynayarkən, ailəsi ilə ünsiyyət saxlayarkən Allah razılığını düşünsə, ailəsi nuraniyyətə bürünər.

Allahdan qırılaraq edilən yaxşı əməlin, hərəkətin nuraniyyəti, bərəkəti və əsas da - davamiyyəti olmaz. Daim olan yeganə Allah olduğundan, yalnız Onun üçün edilən əməllərin davamlılığı ola bilər. Qalan bu dünyada hər bir şey fani olduğundan, fani olan şeylər üçün hərəkət etməyə dəyməz.

## Allahın razılığını düşünürüksə, seçimlərdə nəfsin istəklərinə nəzər salaq

Əgər biz əməl və davranışlarımızda Allahın razılığını düşünsək, əməllər edən zaman nəfsimizlə Allahın razılığı arasında seçim etməkdə çətinlik çəkməyəcəyik. Əgər insan nəfsi ilə Allah razılığı arasında düzgün seçimlər edə bilməsə, bu vəziyyət onu qəflətli duruma salar. Çünki insan nəfsinin istəklərini ödədikcə məst olur, daha da qəflətə düşər. Belə insanın Allah razılığı barədə düşünməyə heç halı, mənəvi tutumu da olmur. Həzrət İmam Kazım (ə) buyurur: **"İki işlə qarşılaşıb onlardan hansı birinin doğru olduğunu bilməyəndə, hansının sənin nəfsi istəyinə daha yaxın olmasına bax və ona qarşı çıx. Çünki sənin nəfsi istəyinə qarşı çıxmağında çoxlu savab gizlənmişdir".** İnsan qəflətdə olmadığı zaman, ayıq zamanında öz istəklərini ölçə bilir, hansının Allah razılığına, hansının isə nəfsinin istəklərinə uyğun olmasını müəyyənləşdirə bilir. İnsan iki iş arasında seçim edə bilməyən zaman baxmalıdır ki, onlardan hansı biri nəfsinin istəklərinə daha yaxındır. Məhz nəfsi istəklərin təmininə yaxın olan bir əməl tərk edilməlidir.

Nəfsi istəyin əsas xüsusiyyəti budur ki, iradəyə, düşüncəyə və Allahın razılığına söykənmir. Nəfsi istək odur ki, insan ümumiyyətlə onun barəsində düşünmək istəmir, sadəcə, onu təmin etmək istəyir. Burada görülən işlərdə ağıl işığı olmur. Ola bilər ki, bəzən nəfsi istəyə söykənən işlərdə insana zahirən elə gələ bilər ki, həmin işlərdə Allahın da razılığı var. Amma, zahirlər eyni görsənsə də, nəticələrdə fərq olduqca dəqiqdir. Birinə ağıl işıq salır, insan düşünür, iradəvi olaraq Allahın razılığının axtarır və seçim edir. Digərini isə sadəcə olaraq, insan ürəyi istədiyinə görə edir. Birinin nəticəsi aqibətin xeyirli olmasına aparır, digərinin isə ən maksimum - bu dünyada müəyyən faydalılığı olur.

## Adət və vərdişlərin tərki də nəfsi istəklərin təminindən uzaqlaşmaqdır

Nəfsi istəklərdən uzaqlaşmaqla bağlı ən ciddi mövzulardan da biri vərdiş və adətlərdən uzaqlaşmaqdır. Həzrət Əli (ə) buyurur: **"Adətləri tərk etmək üstündə öz nəfslərinizlə, onlara qalib gələnədək vuruşun və nəfsi istəklərinizlə, onları zəncirləyənə kimi mübarizə aparın".** Bizim bir çox müsibətlərimiz vərdişlərimizi tərk edə bilməyimizlə bağlıdır. İnsan nəfsi istəklərindən irəli gələn vərdiş və adətlərini həyata keçirən zaman elə əslində nəfsi istəyinin təmini ilə məşğul olmuş olur. Həzrət Əmirəlmöminin (ə) bizə xəbərdarlıq edir ki, onları tərk etmək elə də asan olan mövzu deyil. Ona görə də, onlara qalib gələnə qədər mübarizə aparmağı bizlərə tövsiyə edir. Nəfsi istəklər zəncirlənməsə, nəzarətə alınmasa, gözləmədiyimiz zamanlarda, hazır olmadığımız vaxtlarda, zərrə qədər boşluq əmələ gələn vaxtlarda üzə çıxacaq, bizi özünə cəzb edəcək. Əgər qəflətdə olsaq, onu təmin etməyə çalışacağıq.

Allahın razılığını düşünmədiyimiz zaman nəfsi istəklər bizi özünə alacaq və bir ömür boyu məhz onların təmini ilə məşğul ola bilərik. Bunlar heç də hansısa mücərrəd mövzular deyil. Biz günümüzün iyirmi dörd saatında məhz bu seçimlərlə qarşı-qarşıya oluruq. Bu seçimlər həyatımızın bütün sahələrini əhatə edir.

**Allahım, bizlərə hər bir işimizdə Sənin razılığını düşünməyi nəsib et!**

**Allahım, bütün seçimlərimizdə nəfsi istəklərimizə uyğun olan işləri tanıyıb, onlardan uzaqlaşmağı nəsib et!**

**Allahım, aqibətlərimizi xeyirli et! Amin!**



# Həbsxana əməkdaşları qəzaya düşdü: 4 ölü

**Şəkidə dəhşətli yol qızası baş verib. İdarəetmədən çıxan avtomobil bir neçə dəfə yuvarlanaraq yol kənarındakı dərəyə aşıb. Hadisə Şəki- Qax yolunun 17-ci km-də Şəkinin Göynük kəndi ərazisində qeydə alınıb. Belə ki, qəza zamanı Şəki sakini Əlizadə Elşən Akif oğlu idarə etdiyi 99-GK-948 dövlət nömrə nişanlı Sayfa markalı avtomobillə Şəki istiqamətində hərəkətdə olarkən qəfildən idarəetməni itirib.**

İdarəetmədən çıxan avtomobil bir neçə dəfə yuvarlanaraq yol kənarındakı dərəyə aşıb. Nəticədə sürücü ilə yanaşı, avtomobildə olan sərnişinlər Şəki sakinləri Abdullayev Araz Gündüz oğlu, Sədiyev Asif Çingiz oğlu və Şəkinin Aşağı Göynük kənd sakini Mustafayev Seymur Hüseyn oğlu aldıqları bədən xəsarətləri nəticəsində elə hadisə yerindəcə dünyalarını dəyişiblər.

İlkin məlumatlara görə, qəza zamanı ölən şəxslər gecə saatlarında Qax rayonundan toy mərasimindən gəlirmişlər. Qəzanın ilkin olaraq yüksək sürət səbəbindən baş verdiyi ehtimal olunur. Qeyd edək ki, qəza gecə saatlarında baş versə də hadisədən ancaq səhər saat 8 radələrində xəbər tutulub.

Faktla bağlı Şəki Rayon Prokurorluğunda araşdırmalar aparılır. Nəzərinizə çatdıraq ki, qəza zamanı dünyasını dəyişən 4 nəfər Şəki penitensiar müəssisəsinin əməkdaşlarıdır.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

# MAXE rəsmilərdən kömək istəyir




**Şirvan şəhər sakini, 23 yaşlı Orxan Şahin oğlu Kazımzadə redaksiyamıza ünvanladığı müraciətdə bildirir ki, 2 il 8 ay Daxili Qoşunlarda müddətdən artıq xidmət edib (MAXE) və 2014-cü ilin dekabr ayında tərxis olunub.**

MAXE yazır ki, tərxis olunsa da, ona işsiz kimi müavinət alması üçün arayış yubandırılıb və nəticədə müavinət ala bilməyib: “12 yaşımdan atasız qalmışam. Yetim, kasıb, imkansız olduğum halda 23 yaşımda haqsızlığın qurbanı oldum və bu gün ailə başçısını itirən ailəmizin bir tikə çörək yeri kəsilib. Daxili Qoşunların hərbi hissəsi əmək haqqı arayışımı bilərəkdən gecikdirdi ki, mən dövlətimin ayırdığı müavinəti ala bilməyim. Ona görə mən cənab Ramil Usubova və Səlim Müslümova müraciət edərək üzləşdiyim süründürməçiliyə son qoyulmasına yardımçı olmalarını istəyirəm. Bildirirəm ki, ailədə dolanışıq sarıdan çox çətinlik çəkirik. İşləyənimiz yoxdur. Mənim halal haqqımın verilməsini təmin etdirin. Xahiş edirəm, mənim haqqımın bərpasına köməklik edin".

**MAXE yazır ki, bu ilin mayında hərbi hissəyə gedərək son 1 il müddətində aldığı əmək haqqı barədə arayış istəyib. Ona rəsmi müraciət etməyi məsləhət görüblər. Rəsmi müraciətə isə cavab yubadılıb:** “Uzun get-gəldən sonra 5 avqust tarixində həmin arayışı aldım və Şirvan Məşğulluq Mərkəzinə təqdim etdim. Məşğulluq Mərkəzindən dedilər ki, tərxis olunduğun dövrdən 6 ay ötüb və işsizlik müavinətini verə bilməzlər. Bu arayışın gecikməsi məndən asılı olmayıb. Hərbi hissənin ucbatından gecikdi. Ona görə mən ilk öncə cənab nazir Ramil Usubova müraciət edirəm. Mən alnıaçıq, üzüağ Daxili Qoşunlarda xidmət elədim. Xəbərim olmadan adıma töhmətlər yazıldı və xidmətdən tərxis olundum. Amma xidmətim zamanı nailiyyətlərim heç yerə yazılmadı. Dərdimi deməyə kimsə də yoxdur. Çünki mənim heç kimim yoxdur”.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Məktəb direktoru axtarışa verildi

**Azərbaycanda məktəb direktoru barəsində cinayət işi başlanıb. Bakı Şəhər Baş Polis İdarəsindən APA-ya verilən məlumata görə, paytaxtda yerləşən 55 saylı orta məktəbin direktoru olmuş, 1960-cı il təvəllüdlü Vahid Şahmar oğlu Dəmirov Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə təqsirləndirilir. İstintaqdan yayındığı üçün onun barəsində axtarış elan olunub.**

55 saylı orta məktəbdən APA-ya bildirilib ki, V. Dəmirov may ayından işə çıxmır. Onun tutduğu vəzifədən azad olunması barədə əmrin olub-olmadığı məlum deyil.

Hazırda polis V. Dəmirovun tutulması istiqamətində əməliyyat-axtarış tədbirlərini davam etdirir.

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34




# Nazirlik “Yeni Müsavat”ın yazısına reaksiya verdi

**Bugünlərdə “Yeni Müsavat” qəzetində Qarabağ qazisi Rüxsarə Cumayeva barəsində gedən yazıya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi reaksiya verib.**

Bu barədə “Yeni Müsavat”a qazi xanım R.Cumayeva bildirib. Onun sözlərinə görə, qəzetin 27 avqust tarixində dərc edilən sayında “Qarabağ qazisi xanım yardım istəyir” başlıqlı yazısındakı “1-ci qrup əlillik almaq üçün sənədlərimi təqdim etdim, məndən buna görə pul istədilər” sözləri nazirliyin əməkdaşlarının diqqətini cəlb edib:

“Barəmdə olan yazı dərc edildikdən bir az sonra Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin əməkdaşı Saday Abdullayev mənimlə telefon əlaqəsi saxladı. O bildirdi ki, yazıda qeyd edilən məqam nazirliyin diqqətini cəlb edib. S.Abdullayev məni əmin etdi ki, məsələ dərhal araşdırılacaq və mən tezliklə 1-ci qrup əlillik dərəcəsi ala biləcəm.

Mən isə iradımı bildirərək qeyd etdim ki, bütün sənədlərim qaydasında olmasına baxmayaraq, nədənsə 5 saylı şəhər poliklinikası əlillik vəziyyətimin müəyyən edilməsi üçün gərək olan göndəriş formasını (forma 88) vermək istəmir. Mənə bildirildi ki, 6 ay gözləməliyəm, vaxt bitdikdən sonra isə təklif edilən qədər pulu verib formanı ala bilərəm. Dəfələrlə demişəm ki, mənim nə adamım, nə də pulum var. Lakin məmurlar hər zaman bu sözlərimə etinasızlıqla yanaşıblar.

Mənim hər iki ayağım dəfələrlə əməliyyat edilib və hər ikisinə protez qoyulub. Keçirdiyim 6 əməliyyat onu bir daha sübut etdi ki, ayaqlarımın vəziyyəti düzələsi deyil. 1-ci qrup əlillik almaq üçün məmurlara daha nə lazımdır, yıxılıb ölməyim?!"

Qeyd edək ki, bu yaxınlarda 6-cı dəfə ayağından əməliyyat olunan Qarabağ qazisi Rüxsarə Cumayeva bir neçə gün bundan öncə müvazinatını itirərək yıxılıb. Nəticədə sol ayağı protezindən ayrılıb və orqanizmində ciddi fəsadlar yaradıb. Həkimlərin müayinəsindən sonra isə məlum olub ki, qazi xanım yenidən təcili əməliyyat edilməlidir və bu əməliyyat üçün 20 min manat pul lazımdır.

❑ **Xalidə GƏRAY**

# Ərzaqların qiyməti bahalaşa bilər



**“Rusiyada ərzaqların qiymətinin artması Azərbaycana da təsir edəcək”. Bu fikri musavat.com-a açıqlamasında millət vəkili Vahid Əhmədov deyib. O bildirib ki, Azərbaycanın ticarət əlaqəsində olduğu istənilən ölkədə baş verən devalvasiyanın müəyyən mənada ölkəmizə də təsiri olur:**

“Baş verən siyasi hadisələr, Rusiyaya qarşı aparılan sanksiyalar, kəskin devalvasiya təbii ki, qiymətlərə də öz təsirini göstərir. Rusiya ilə Azərbaycanın ildə təxminən 2 milyard dollara yaxın ticarət əlaqələri var. Oradan müəyyən məhsullar Azərbaycana göndərilir. Eyni Rusiyada bizim vətəndaşlarımız da yaşayırlar ki, onlar da ölkəyə pul vəsaiti göndərirlər. İstər Rusiya, istər Qazaxıstan və ya digər ölkələrdə olan devalvasiyanın Azərbaycana az da olsa təsiri olur. Məhsulların qiymətində dəyişiklik varsa, həmin ölkələrin ixrac qiymətlərində də müəyyən dəyişiklik olacaq”.

Qeyd edək ki, Rusiya Statistika Komitəsinin açıqladığı məlumata görə, cari ilin yanvar-iyul aylarında Rusiyada ərzağın qiyməti ötən ilin eyni dövrü ilə müqayisədə 10,6% artıb.

Rusiyanın Qərb ölkələrindən ərzaq idxalını dayandırması və rublda müşahidə olunan devalvasiya qiymət artımına səbəb olub. Statistikaya əsasən, ilin əvvəlindən bütün ərzaq məhsullarında bahalaşma qeydə alınıb. Yanvar-iyul aylarında meyvənin qiyməti 25,4% artımla ilk sırada yer alıb. Balıq və dəniz məhsulları 17,8%, şəkər, bal 16,3% bahalaşıb. Çörəyin qiymətində 11,6% artım, ətdə 7% artım müşahidə olunub.

❑ **Əli Rais, musavat.com**

# YENİ MÜSAVAT

## Son səhifə

N 189 (6217) 28 avqust 2015


# 6 milyard dollara Marsda şəhər

Marsda ilk insan məskənləri qurman üçün "Mars One" projesini başladan Hollandiya şirkəti dünyanın ən zəngin şəxslərinə “bizə 6 milyard dollar verin, Marsda bir şəhərə adınızı verək” deyərək müraciət ediblər. "Mars One" şirkəti 2027-ci ildə Marsda ilk insanların yaşaya biləcəyini iddia edir. Proje çərçivəsində 2020, 2022 və 2024-cü illərdə bu şəhərin qurulması üçün lazım olan avadanlıqlar Marsa göndəriləcək. 2027-ci ildə tamamlanacaq olan iş üçün 6 milyard dollar xərclənəcək. "Mars One" dünyanın ən zəngin şəxsləri olan Bill Geyts və meksikalı Carlon Slime Marsda bir şəhərə adlarının verilməsi üçün müraciət edib.





## Qadınlar haqqında bilmədikləriniz...

Zaman-zaman kişilər qadınların emosianal və anlaşılmaz olduğunu iddia edir. Qadınlarla bağlı bəzi maraqlı detalları təqdim edirik:

Qadınlar hər zaman diqqət gözləyər - qadınlar hər zaman diqqətdə olmağı və onlara qayğı göstərilməyi sevir.

Qadınların psxologiyasında “mesaj yazmırsa, zəng etmirsə” maraqlanmır deməkdir. Təbii ki, bu maraq da qədərində olmalıdır.

Çox danışarlar, amma hər şeyi də danışmazlar - “qadınlar çox danışırlar” deyənlərin diqqətinə. Bu sözlər arasında gizli mesajlar var və qadınlar qarşı cinsdən bunun diqqətə alınmasını gözləyirlər.

Qədərində qısqanılmaq xoşlarına gəlir - sahiblənilmək və sevdiyini qısqanmaq təbii ki, xoşa gələn bir şeydir. Amma bu həddindən artıq olunca qadın soyuyur və getdikcə sevgisi nifrətə dönməyə başlayır. Bunun üçün də çalışın tarazlığı hər zaman qoruyasınız.

Əvvəlki sevgilinizdən bəhs etməyin - mümkünsə əvvəlki sevgilinizlə olan xatirələrinizdən onun yanında bəhs etməyin. Ümumiyyətlə, xatirələrinizi bir çəkməcəyə qoyub gizlədin, ya da od vurub yandırın.

# Zoğalın faydaları

Zoğal immunitet sistemini sürətlə gücləndirir. Xüsusilə qan dövranı sisteminə təsiri böyükdür. İnfarkt riskini azaldır, xərçəngin qarşısını alır. Zoğal meyvəsi güclü bir melatonin qaynağıdır. Melatonin gecə ifraz olunur və bunun sayəsində yuxu yatırıq. Lakin melatonin kifayət qədər ifraz olunmazsa, xərçəng meydana gəlir. Hüceyrə istehsalı sürətlə pozulmağa başlayır. Yuxu probleminiz varsa və yata bilmirsinizsə, yatmadan əvvəl mütləq 1 stəkan zoğal suyu için. Melatonin sürətlə ifraz olunduqca yuxunuz gələcək. Gündə 1 ovuca qədər zoğal yemək döş xərçəngini dayandırır. Araşdırmalarda zoğalda brokolidən 5 qat daha çox antioksidant tapılıb. Antioksidantlar hüceyrə quruluşunu qoruyur. Damarların tıxanmasını önləyərək, ürək xəstəlikləri və iflic kimi narahatlıqlardan mühafizə edir. Zoğal sidik yolu infeksiyalarında məsləhət görülür. Sidikdəki turşu miqdarını artıraraq böyrək daşının meydana gəlməsinə mane olur. Üstəlik, daşlardan xilas olmağı təmin edir. Təbii bir antibiotik olan zoğal mədə xorası kimi xəstəliklərə xeyirlidir. Zoğal temperaturu salır və ishalı dayandırar. Yara və yanıqlarda müalicəedici xüsusiyyəti vardır. Depressiya və ruhi xəstəliklərdə kömək edir. Xüsusilə şəkər xəstələrinə təklif edilir. Çünki içində şəkər nisbəti aşağıdır.





## Xəyanət edən ərini biabır etdi

Aldadıldığını öyrənən qadın ərini biabır edərək ondan intiqamını alıb. Timesa Brovn adlı qadın ərinin bir başqası ilə ilişkisi olduğunu öyrənəndə şok olub, amma aldadılan arvad daha pis xəbər də alıb. Məlum olub ki, əri Patrikin gizli eşq yaşadığı qadın uşaq da gözləyir. Əri haqqında həqiqətləri öyrənən qadın ondan intiqamını başqa şəkildə alıb. Belə ki, o, qəzetə elan verərək bu sözləri yazıb: “Sara Cormir və Patrik Brovnu təbrik edirəm. Uşaq gözləyirlər. Ümid edirəm ki, gerçəkdən bir-birinizi sevirsiniz. Münasibətiniz davamlı olsun. Patrikin həyat yoldaşı Timesa Brovn”.

Bu elandan sonra qadın ərindən boşanıb və heç bir qalmaqal yaratmayıb. Arvadından ayrılan Patrik sevgilisini tərk edib. Sara isə uşağını dünyaya gətirib. Patrikin qadınlardan ayrıldıqdan sonra depressiyaya düşmədiyi, həyatını daha rahat yaşadığı deyilir.






QOÇ - İş metodunuzda yenidənqurma aparmağa səy göstərin. Bununla siz gələcək perspektivlərinizə işıq saça bilərsiniz. Səmərəsiz iş prinsipindən qaçın. Nahardan sonra təzə xəbər eşidəcəksiniz.



BUĞA - Bir qədər gərgin gün yaşamalı olacaqsınız. Amma maraqsız proseslərə müdaxilə etməsəniz, bunun qarşısını az da olsa, ala biləcəksiniz. Əsəblərinizi qoruyun. Axşamsa qonaq gedin.



ƏKİZLƏR - Göy qübbəsi işdən kənarda hansısa uğura yiyələnəcəyinizə təminat vermir. Əksinə, yersiz mübahisələr, ifrat yorğunluq ovqatınızı korlaya bilər. Diqqəti ailə-sevgi münasibətlərinə yönəldin.



XƏRÇƏNG - Sağlıq durumunuza diqqət yetirsəniz, gün ərzində hansısa xoşagəlməzliklə rastlaşmayacaqsınız. Günün ikinci yarısında aldığınız hər bir işgüzar təklifə razılıq verin.



ŞİR - Rastlaşacağınız hadisələr daha çox öz rəftar və gedişlərinizdən asılı olacaq. Belə bir ərəfədə hansısa risk uğursuzdur. Əgər planlaşdırmısınızsa, bu gün mütləq səfərə çıxın.



QIZ - Hər mənada əhəmiyyətli gündür. İstər fəaliyyət göstərdiyiniz sahələrdə, istərsə də qarşılıqlı münasibətlər zəminində uğurlarınız gözlənilir. Yalnız pulla bağlı qanqaraçılıq mümkündür.



TƏRƏZİ - İxtiyarınızda olan bu təqvimdə sizə əsəb gətirən adamlardan uzaq olmalısınız. Yoxsa bu hal bütün maddi-mənəvi sərvətlərinizi tari-mar edəcək. Günortadan sonranı sevgiyə həsr edin.



ƏQRƏB - Axşam saat 18-ə qədər ümumi vəziyyət xeyrinizədir. Nüfuzlu adamlarla görüşləriniz müsbət nəticə verəcək. Amma ixtiyarınızda olan bu ərəfədə hisslərinizi də cilovlamalısınız.



OXATAN - İşgüzar görüşlər keçirmək üçün çox səmərəli vaxtdır. Ona görə də bütün enerji və diqqətinizi məhz bu istiqamətə yönəltməlisiniz. Maliyyə sövdələşmələrinə isə girişməyin.



OĞLAQ - Təlatümlü gün olmasa da, mülayimlikdən də əsər-əlamət olmayacaq. Odur ki, riskdən və həyatınız üçün önəmli olmayan məsələlərdən uzaq durmalısınız. Məsləhətləşmələrdən yayınmayın.



SUTÖKƏN - Təxminən saat 13-ə qədər xoşagəlməz işlərə cəlb oluna bilərsiniz. Buna baxmayaraq, belə hallarda öz mənafelərinizi qorumalısınız. Nahardan sonra bəxtinizin gətirəcəyi gözlənilir.



BALIQLAR - Ulduzlar taledən gileylənməyinizə heç bir əsas görmür. Çünki ixtiyarınızda olan bu təqvim sizə olduqca xoş ovqat bəxş edəcək. Məhəbbət amili isə başlıca xilas mənbəyinizə çevriləcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Restoran sahibi gəlini girov götürdü



Qazaxıstanda restoran sahibi hesab ödənilmədiyinə görə gəlini girov götürüb. Toy keçirdikləri məkanın pulunu tam ödəyə bilməyən bəyin yanındakı gəlini restoran sahibi girov götürüb. Bəy kredit götürərək, 150 nəfərlik restoranda toy məclisi keçirib. Toy şənliyi bəyə 2 milyon 150 min təngəyə başa gəlib. Restoranın 70 faiz ödənişini edən toy sahibi pulun qalan hissəsini qonaqların verəcəyi pul hədiyyəsi ilə ödəməyi planlaşdırıb. Lakin dəvət olunan qonaqlardan 30 nəfərin gəlməməsi bəyin planlarını alt-üst edib. Nəticədə təzə bəy 500 min təngə restoranın sahibinə borclu qalıb. Restoran sahibi gəlini girov olaraq götürüb. Restoran sahibi bildirib ki, bəy borcu qaytarmayana qədər gəlin girov qalacaq. Toy təşkilatçılarının sözlərinə görə, Qazaxıstanda toylarda belə hadisələr kifayət qədər sıx rast gəlinən haldır.


Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300